Bu kitab Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən maliyyələşdirilən *"Unudulmaqda olan milli adət-ənənələrimizin gənc nəslə aşılanması (və onların qorunmasında gənclərin fəallığının artırılması)"* adlı layihə çərçivəsində nəşr olunur.

*Dünya Gənc Türk Yazarlar Birliyi // www.dgtyb.org*

# *UNUDULMAQDA OLAN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZ VƏ GƏNCLİYİMİZ*

-8618-

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

*"VEKTOR" Nəşrlər Evi*
*Bakı/Azərbaycan - 2010*

*Layihə rəhbəri:* ***Əkbər Qoşalı***

*Tərtib edən:* ***dos. dr. Rəsmiyyə Sabir***

*Elmi redaktor:* ***prof. dr. Nizami Cəfərov***

*Redaktor:* ***prof. dr. Elçin İsgəndərzadə***

*Texniki redaktor:* ***Vəfa Ramazanova***

DGTYB, **Unudulmaqda olan milli-mənəvi dəyərlərimiz və gəncliyimiz**, *Məqalələr*, "Vektor" Nəşrlər Evi. Bakı, 2010. 158 səh.

*Məqalələr toplusunda, unudulmaqda olan (və ya unudulmuş deyə biləcəyimiz) adət-ənənələrimizdən, mənəvi yaddaşımızın bərpası sürəcinin gərəkdirdiyi işlərdən, habelə dəyərlərimizin qorunmsaında yeni nəslin, ümumən vətəndaşlarımızın üzərinə düşən vəzifələrdən söz açılıb. Daha çox elmi məzmun daşıyan məqalələr toplusu geniş oxucu auditoriyası üçün nəzərdə tutulub.*

**© Dünya Gənc Türk Yazarlar Birliyi, 2010**



## *KİTABA BAŞLARKƏN...*

Hər bir milləti xarakterizə edən özəlliklərdən biri də, onun milli-mənəvi dəyərlər sistemidir. Bu dəyərlər sisteminin qorunması isə əsasən gənc nəsillərin üzərinə düşür.

Bəlli olduğu kimi, Azərbaycan XX yüzilin sonlarında ikinci dəfə müstəqilliyini əldə etdi. İgid Azərbaycan oğullarının qanı-canı bahasına əldə olunan bu müstəqilliyin qorunması, üçrəngli qütsal bayrağımızın hər zaman dalğalanması gənc nəslin üzərinə məsuliyyətli və şərəfli vəzifələr qoyur. Sevindirici haldır ki, müasir dövrdə gənclərimizin böyük əksəriyyəti milli-mənəvi dəyərlərinə sa-hib çıxaraq onları qoruyurlar. Lakin təəssüflər olsun ki, qloballaşan dünyada milli-mənəvi dəyərlərindən uzaq düşən gənclərimizə də rastlaya bilirik. Bunun bir sıra səbəbləri vardır. Bu səbəblərin sırasına 70 illik dönəmdə işğalçı bir dövlətin tərkibində milli dəyərlərimizin ikinci plana keçirilərək unutdurulmağa çalışılması, Avropaya inteqrasiya, qloballaşma prosesi, informasiya texnologiyalarının inkişafı və s. aiddir. Buna baxmayaraq, nə olursa olsun, heç bir səbəb milli-mənəvi dəyərlər sistemini arxa plana keçirməməlidir. Bu, hər bir millətin "var olma"ğının əsasıdır.

Sadaladığımız səbəblər bizi bu kitabı hazırlamağa sövq etdi. Dünya Gənc Türk Yazarlar Birliyi olaraq bu kitabı araya-ərsəyə gətirməkdə məqsədimiz qloballaşan dünyada çağdaş gəncliyimizə millli-mənəvi dəyərlər sistemimizi təbliğ etmək sahəsində bir qaynaq oluşdurmaqdır. Əgər yetişməkdə olan gənc nəslə bu gün milli-mənəvi dəyərlərimizi təbliğ etməsək, sabah gec olacaqdır. Qədim tarixə, zəngin gələnəklərə, böyük mədəniyyətə malik olduğumuzu heç zaman

yaddan çıxartmamalıyıq. Bu, hər birimizin, ilk növbədə, vətəndaşlıq borcundan, Böyük Azərbaycana layiq vətəndaşlar olmaq duyğusundan (istəyindən!) irəli gəlir.

Bu kitabın unudulmaqda olan milli-mənəvi dəyərlərimizin gənc nəslə təbliği yolunda önəmli rol oynayacağına inam hissi ilə...

*dos. dr.* **Rəsmiyyə SABİR**

***DGTYB-nin baş katibi***



## TOY ADƏTLƏRİMİZ

### *Qız bəyənmə və ya qızgörmə*

Xalq arasında qızgörmədən sonra oğlan qərara gəlir, qızı bəyənirsə, yaxın adamlarına bunu xəbər eyləyir. Qızın yerini-yurdunu öyrənib xəbər tuturlar. Ailəsinin – anasının, atasının, bacı və qardaşlarının kimliyini öyrənirlər. Sonra valideynlərin fikri öyrənilir. Oğlanın ata-anası razı olduqdan sonra qızın yaxın adamlarına (xalasına, bibisinə, anasına) xəbər göndərir. Onların ağzı aranır.

### *Xəbərgöndərmə*

Oğlan evi arayıb, axtarıb qız evinə münasib, yaxın bir adam göndərir ki, kim tərəfdən elçi gəldiyini qız evinə xəbər versin. Bəzən elə olur ki, qız evi razılıq vermir. Necə deyərlər, "ətəyindəki daşı yerə tökmür". Onda elin-obanın ən mötəbər, hörmətli adamı qız evini razılığa gətirməyə çalışardı.

### *Kiçik elçilik*

Adətə görə iki qadın – oğul anası və yaxın qohumlarından biri elçi gedər. Çünki həmişə analar qızın ürəyindəkiləri bilərdi. Elə ki, qadınlar razılığa gəldi, ailənin şah damarı sayılan atalar görüşməli idi. Oğlan atası üç nəfər hörmətli şəxslə qız evinə gedər. Elçi gedənlər öz hərəkəti, davranışı ilə qız evinə bildirir ki, elçiliyə gəlib. "Elçiliyə gecə getməzlər".

Elçilikdə deyirlər "qız ağacı qoz ağacı, hər gələn bir daş atar", "qız yükü duz yükü". Qız atası elə birinci elçilikdən razılığa gəlmir. "Qız qapısı, şah qapısı". Bir qızla, anası ilə yaxın qohum – əqrəbə ilə məsləhətləşim, sonra qəti fikrimizi sizə bildirərik, deyir.

Qızın rəyi soruşulanda həmişə susar. Susmaqsa razılıq əlamətidir, – deyərlər. Ancaq yenə qəti söz deyilməzdi. Böyük

elçiliyə razılıq verilərdi. Çünki əsas sözü böyüklər, ağsaqqallar deməli idi.

### *Elçilik*

Ata ailəyə yaxın olan adamlar – əmini, dayını və başqa qohumları evə dəvət edir. Məsləhətləşdikdən sonra "elçi" getməyi qərara alardılar.

Oğlanın bacısı və ya gəlinləri qızı görüb, bir də ağzını "arayardı". Qızın razı olduğunu görəndə öz fikirlərini ona deyərlər. Sonra qızın anasının yanına gəlib eyhamla bildirirlər ki, "bəs filan gün sizə gəlirik, elçiliyə".

Qızın anası da evdəkiləri bundan xəbərdar edir. Yaxın qohumlardan evə çağırırlar. Məsləhətləşdikdən sonra əgər öz aralarında razılığa gəlirlərsə, qızın da fikrini öyrənirlər. Bunu da qıza yaxın olan bacı, gəlin, ana və ya rəfiqəsi soruşur. Qız razı olduğunu bildirmək üçün həmişə : "özünüz bilərsiz" deyir.

Təyin olunmuş gündə elçilər gəlir. Uzun söhbətdən sonra mətləbi açıb deyirlər. Əgər qız tərəf razı deyilsə, rədd cavab verir. Bu söz daha dəyişilmir. əgər razıdırsa deyir ki, "qoy bir fikirləşək, götür-qoy edək məsləhətləşək, sonra qərara gələrik. İndi isə qonağımızsınız".

Oğlan evi aradan bir müddət keçdikdən sonra yenidən, ikinci dəfə elçiliyə gəlir. Yenə də əvvəldən qız tərəfi xəbərdar edirlər ki, "sizə gəlirik". Qız evi bu dəfə hazırlıqlı olur. Qonum-qonşudan da ağsaqqal, ağbirçək dəvət edirlər.

Oğlanın elçiləri gəlir. Onları yuxarı başa keçirirlər. Qız tərəfi də əyləşir. Bu məclisdə həm qadınlar, həm də kişilər iştirak edir. Təkcə qızın anasından başqa. O da otağa girib çıxır, ancaq onlarla oturmur.

Bir qədər söhbətdən sonra oğlan tərəfdən bir nəfər mətləbi gətirir əsas məsələnin üstünə. Qız tərəfə üzünü tutub, soruşur ki: "Hə, indi sizin son sözünüz nədir?" Qız tərəfdən də əmisindən, dayısından biri bir qədər yüngülcə minnətdən (daha



qapımıza gəlmisiz, duz-çörək kəsmişik və s.) sonra "Allah mübarək eləsin", "Xoşbəxt olsunlar" deyir. Oturanlar da birağızdan "Amin" söyləyirlər. Yeni qohumlar bir-birini təbrik edirlər.

Qızın bacısı və ya gəlinləri çay gətirir. Hamı "şirin çay" içir. Bundan sonra bəzən yemək də verirlər. Elçilər gedəndən sonra qızın bacısı və ya gəlinləri "gəlinin" "bacılığı"gilə yollanırlar. Çünki elçi gələndə qız evdə oturmaz. Onlar qıza mübarək deyir və evə gətirirlər. Evdə qızı qardaşları, ata-anası təbrik edəndə o, həmişə ağlayır.

### *Nişan*

Bəlgədən bir neçə ay sonra böyük nişan gətirirlər. Buna oğlan tərəf çoxdan hazırlaşmış olur. Nişanda qız üçün nə lazımdır alıb gətirirlər. Təkcə ayaqqabıdan başqa. Deyirlər ki, ayaqqabı darlıqdır. Onu da alırlar. Ara günlərdə qaynana qızın yanına gələndə gətirir.

Nişanda bütün xərci çox vaxt oğlan evi göndərir. ət, yağ, un, düyü, göyərti, bir sözlə, soğandan başqa hər şey. Soğan acılıqdır.

Oğlan evi nişanı, qırmızı lentlə bəzədilmiş xonçalarda və çamadanlarda gətirirlər. Hamı yeyib-içib, şənlənəndən sonra süfrə yığılır. Qızı oturdurlar yuxarı başda. Qabağına güzgü qoyurlar, şam yandırırlar. Xonçaları da düzürlər dövrəsinə. Bundan sonra oğlan yengəsi (qardaşı arvadı) xonçanın üstünə nəmər atır. Qız yengəsi də gəlib nəmər atır. Bundan sonra oğlanın bacısı başlayır gətirilən şeyləri nümayış etdirməyə. Oturanlar da birağızdan "mübarəkdir" söyləyirlər. Sonra nişanda gəlmiş ətirlərdən birini götürüb, verirlər oturanlara, hamı onunla ətirlənir.

### *Xonça gətirmə*

Nişandan sonra qız kimin toyuna getsə onun adına xonça gətirirlər. Burada qızlar oturur bir tərəfdə. Bu zaman qaynana əlində xonça oynaya-oynaya girir məclisə. Gəlir gəlinin qabağına.

Alnından öpüb onu qalxızır və xonçanı qoyur onun yerinə. Qızı oynadır. Bundan sonra baldız, qayın, elti və bəy gəlini oynadırlar.

### *Bayramlıq*

Toya qədər bütün bayramlarda qıza bayramlıq gətirirlər. Bunlardan ən maraqlısı novruz bayramlığıdır. Bu bayrama qaynana həvəslə hazırlaşır. Ya axır çərşənbə, ya da bayram axşamı gəlinə bayramlıq gətirirlər. Burada qıza qırmızı rəngli paltar, ya yaylıq, bir zinət, başına xına qoyulmuş buynuzlu qoç gətirirlər. Bundan başqa şəkərbura, paxlava, qatdama, qoz-fındıq, innab, xurma ilə dolu xonçalar, şamlarla bəzədilmiş səməni və səbətlər gətirirlər. Gəlinin başına, əlinə, ayağına xına qoyurlar.

### *Cehiz*

Toydan iki-üç gün əvvəl gəlinin cehizini gətirirlər. Bunu gəlinin qardaşları, əmisi, dayısı, bibisi, xalası oğlanları, bəyin dostları və "qardaşlığı" gətirirlər. Ana gəlinin cehizini düşürmək üçün gəlinin qaydasına nəmər verir.

Sonra gəlinin yengəsi, bacısı evi bəzəməyə gəlirlər. Onlar evi bəzəyib qurtarandan sonra əşyaların bəzisinə qırmızı lent bağlayırlar. Qaynana evi bəzəyənlərə də xələt verir.



### *Paltarbiçdi*

Toydan qabaq qız evində "paltarbiçdi olardı". Bu məclisdə ancaq qadınlar iştirak edərdi. Qohum-əqraba qıza aldığı hədiyyəni göstərər, sonra xüsusi kiçik torbalarda hazırlanmış şirniyyatdan götürərdilər. Sonra qız bacısı gəlinin ata evindən aparacağı cehizi göstərərdi. Cehizlər oğlan evinə aparırlar və gəlin otağı bəzənərdi. Ev bəzəyən qızlara oğlan anasından xələt verilərdi. Hamı şənlənərdi.

### *Qız şaxı*

Hər qızın yaxın rəfiqəsi, bacılığı var. Kimin toyu oldu, bacılığı "şax" qaldırır. Şaxqaldırma geniş yayılmış bir adətdir. Şax taxtadan düzəldilmiş üstünə güzgü, şam, parça, şirni, meyvə bərkidilmiş bir toy bəzəyidir. Onu bəzəməyə də xüsusi məharət lazımdır. Əgər toyu olan qızın bacılığı ərə gedibsə, gəlin olduğu evdən şax qaldırır.

Bacılıqgildə süfrə açılır, şax bəzədilir. Cavanlar oynaya-oynaya gəlirlər bacılıqgilə. Yeyirlər, içirlər, oynayırlar. Axşam təxminən saat doqquzda, onda oğlan evindən cavanlar gəlir qız şaxına. Bəy də gəlir, qardaşlıq da. Həyətdə "lopa" yandırırlar, tonqal qalayırlar, o ki var oxuyub-oynayırlar. Sonra da şaxı götürüb çala-çala, tüfəng ata-ata gəlirlər qız evinə. Qız evində də yeyib-içib şənlənirlər.

### *Xınayaxdı*

Qızlar yığışır otağın birinə, qız yengəsi də islanmış xınanı götürüb düşür ortaya, oynayır. Sonra bir sini, bir də boş bir kasanı gətirib qoyur oğlan adamının qabağına. O da boş kasaya pul atıb, xınanı götürür. Oynaya-oynaya gəlir qızın yanına.

Onun əllərinə, ayaqlarına xına qoyur. Sonra da məclisdəkilərin qabağına gətirir. Hamı xına qoyub, nəmər salır.

Qızlar "xınayaxdı"da olanda oğlanlar oynayıb, şənlənirlər. Bu vaxt qız tərəfdən bir nəfər "ikirəngli" çay gətirib qoyur bəyin və dostlarının qabağına. Onlar da çayı içib, boş nəlbəkiyə nəmər qoyurlar.

Qızlardan biri xına gətirir. Oğlanlar da çeçələ barmağını batırırlar xınaya.

### *Kəbinkəsdirmə*

Kəbinkəsdirmə toy günündən bir neçə gün qabaq olardı. Kəbini adətən molla kəsirmiş. Bu mərasimdə hər iki tərəfdən iştirak edərmiş. Hər tərəfdən 1 nəfər şahid olardı. Mollaya 3 manat pul, bir kəllə qənd pay verərmişlər. Kəllə qəndin çəkisi 8 kq olarmış.

Kəbinkəsdirmədə hər iki tərəfin yaxın adamı, bir çox hallarda isə qız və oğlan iştirak edərdilər.

Azərbaycanda Sovet hakimiyyəti mövcud olandan sonra nikahın dövlət tərəfindən qeyd olunması forması tətbiq edilmişdir.

### *Qız toyu*

Səhər saat on birdə, on ikinin yarısı "qara zurnanın" səsi ətrafa yayılar, kəndi ayağa qaldırardılar. Toy başlanardı.

Yenə cavanlar yığılır qulluq etməyə. Dəstə-dəstə adamlar toy evinə gəlir. Yeyir, içir, şənlənirlər. Kimi xonça gətirir, kimi də nəmər atır. Yemək verilməzdən əvvəl oğlan evindən bir nəfər kişi gəlir, yemək qazananın üstünə pul atır. Buna "qazanaçdı" deyirlər.

Toyda kəndin cavanları güclərini sınayır, güləşirlər. Kim ki, qalib gəldi, gedib kimin qolundan tutsa onunla oynamalıdır.



Burada boyun qaçırmaq, etiraz etmək olmaz. Gərək oynayasan. Qalibə hörmət, xalqımızın ulu adətidir.

Oğlan evi qızı oynadır. Sonra isə təxminən saat dörddə-beşdə geri qayıdırlar. Oğlan evi getdikdən sonra yenə də yeyib-içirlər, oynayırlar. Saat altını yarısı olanda qız evində cavanlar yığışır "qız şaxına" getməyə.

### *Gəlin aparma*

Azərbaycan xalqının ən qədim havası olan "Vağzalı"nın sədaları altında oğlan evi qız evinə gəlir. Onlar oynaya-oynaya, oxuya-oxuya deyirlər:

***Al almağa gəlmişik,***
***Şal almağa gəlmişik.***
***Oğlanın adamıyıq,***
***Aparmağa gəlmişik.***

Gəlin olan otağın qapısı bağlı olar. Bəy atası xələt verməyincə qız evi gəlini otaqdan çıxmağa qoymazlar. Gəlin evdən çıxmamış ata-ana xeyir-dua verər. Gəlinin belini qırmızı yaylıqla qaynı bağlayar. Gəlinin başına duvaq atarlar. Həyətdə iri tonqal qalayıb ətrafında gəlini üç dəfə fırladırlar ki, getdiyi evi işıqlı, ocağı isti olsun. Gəlinin dalınca daş atarlar ki, getdiyi yer möhkəm olsun. Gəlinin dalınca su atırlar ki, aydınlıq olsun. Gəlin oğlan evinə çatan kimi ayağının altına qab qoyurlar ki, sındırıb keçsin. Gəlini qapıda əyləşdirib qucağına oğlan uşağı verirlər ki, ilki oğlan olsun.

Gəlin ayağı altında qoyun qurban kəsilir. Qoyunun qanından gəlinin alnına, bir də paltarına sürtürlər ki, istiqanlı olsun, tez qaynayıb-qarışsın oğlan evinə.

Gəlinin qaynanası başına sığal çəkər ki, mehribançılıq olsun.

Gəlinin başına xırda pul, şirniyyat, düyü, buğda səpərlər ki, bolluq olsun.

Gəlinin qarşısında qırmızı lentlə bağlanmış güzgü aparırlar. Güzgü yengənin əlində olur. Sağdişlə, soldişin əlindəki stəkanın içində düyü, şam olur. Düyü bolluq rəmzidir.

Gəlin bəzədilmiş otağa aparılır. Hamı birağızdan "xoşbəxt olsun", "oğullu-uşaqlı olsunlar" deyir.

Toydan üç gün sonra qız anası və qızın ən yaxın qohumları qızı görməyə gəlir.

### *Oğlan toyu*

Qız toyunun səhərisi oğlan evində toy başlanır. Səhər tezdən mağarı qurub, bəzəyəndən sonra hazırlaşırlar gedib gəlini gətirsinlər. əvvəlcə bütün minikləri bəzəyirlər. Onlara qırmızı lent, kəlağayı bağlayırlar. Saat on birdə, on ikinin yarısı yığışırlar getməyə. Gəlin gətirməyə bəyin anası getmir.

Qız evinin qapısında hamı miniklərdən düşür, təkcə bəydən başqa. Qardaşlıq gəlir qız anasının yanına ki, xala, get bəyi düşür. Qaynana gəlir sürücüyə xələt, bəyə də nəmər verib düşürür.

Həyətdə çalıb-oynayırlar. Qız-gəlinlər yığışır gəlinin başına. Burada oğlan yengəsi qız yengəsinə "başbəzəyi"nin haqqını, xələt verir.

Qızın qaynı gəlinin belinə qırmızı lent bağlayır. Bunu edərkən 2 dəfə bağlayıb açır, 3-cü dəfə bağlayırlar.

Qardaşı qıza deyir: "Get qədəmin uğurlu olsun. Evimizə qonaq çağıranda sənə hədiyyə alacağam". Sonra gəlinin əlinə pul qoyub bağlayırlar. Bütün yaxın və uzaq qohumlar qızla öpüşüb görüşürlər. Nəhayət qızın atasına yol verirlər. Ata bir neçə kəlmə ilə qızına nəsihət verir və xoşbəxtlik arzulayır. Sonra onun alnından öpür. Gəlinə ana da xeyir-dua verir.



Oğlanın bacısı ucadan səsləyir: "Gəlin, gəlinimizi aparaq". Bu vaxt qız evindən kiçik uşaq qaçıb, qapını bağlayır. Buna "qapıbasma" deyirlər. Bəy və "qardaşlıq" ona nəmər verir və qapını açırlar.

Gəlini otaqdan bəy və "qardaşlıq" çıxarır. Həyətdə oğlan evi o ki var çalıb oynayırlar.

Gəlini miniyə əyləşdirirlər. Sonra qardaşlıq və başqa bir cavan gəlib, "qız şaxını" götürülər. Hamı əlində şam və lampa yandırır. Qızın qabağında güzgü tuturlar.

Nəhayət hamı yola düzəlir. Fişəng atırlar, lopa yandırırlar və s. Yolda miniklər ötüşür. Təkcə gəlin miniyini heç kim ötmür.

Yolda miniklər dayanır. Biri gəlinin ayaqqabısının bir tayını götürüb, düşür qabağa, hamıdan tez çatıb, ayaqqabını qayınanaya, qayınataya göstərib deyir: "Muştuluğumu verin, gəlininiz gəlir". Qaynana ona xələt verir.

Hamı gəlib çatır, minikdən düşürlər. Qaynana sürücüyə xələt verib gəlini düşürür. Bəyin qardaşı oynaya-oynaya gəlib gəlinin ayağı altında qoç qurban kəsir. Qaynana qoçun qanından götürüb bəylə-gəlinin alnına sürtür. Sonra hər iksi qoçun üstündən keçirlər.

Bişirilən ilk fətiri ovurlar. İçinə xırda pul, düyü, qənd, konfet qoyub verirlər bəyə. O da tökür gəlinin başına.

Sonra gəlini aparırlar otağa. Gəlin oturmur. Qaynana gəlib ona xələt verir və ya nə isə alacağına boyun olur. Sonra gəlib gəlinlə görüşür və ona xələt verirlər. Buna "boygördüsü" də deyirlər. Bundan sonra hamı əyləşir. Həyətdə də toy başlayır.

Axşamüstü saat altıda, altının yarısında qız evindən oğlan toyuna qohumlar gəlir. Qızın ata və anasından başqa kim istəsə gələ bilər. Bir-iki saat oturub gedirlər. Onlar gedəndən sonra "bəyin" dostları yığışırlar, "oğlan şaxına" getməyə. Cavanlar gəlir "qardaşlıq"gilə. "Oğlan şaxı"nda ancaq oğlanlar iştirak edirlər. Qızlar arada qulluq edirlər. "Bəylər" doyunca çalıb-

oynayırlar. Nəhayət, "oğlan şax"ını götürüb, qayıdırlar bəyin evinə. Aşığın maraqlı rəvayətlərinə qulaq asırlar. Şaxların hər iksini bəylə gəlin dərir. Onun üstündəkilər də bəylə gəlinə çatır. Konfetləri və meyvələri isə qonum-qonşuya paylayırlar.

### *Üzəçıxdı*

Təzə gəlin qayınatasından yaşınır və onun gözünə görünmür. Toydan 10-15 gün sonra qaynana süfrə hazırlayır. Ailənin bütün üzvlərini çağırır. Hamı gəlib oturur, gəlindən başqa. Belə olanda qayınata gəlini səsləyir və özü onu gedib gətirir. Sonra gəlinə qiymətli bir hədiyyə verib ona, bu ailənin ən əziz üzvü olduğunu deyir. Bundan sonra gəlin heç kimdən yaşınıb çəkinmir.

### *Gəlingördü*

Toydan iki-üç ay sonra qız evi oğlan evinə xəbər göndərir ki, "filan gün gəlirik gəlini görməyə". Oğlan evi hazırlıq görür. Yaxın qonum-qonşudan üç-dördünü dəvət edir.

Qızın anası da yaxın adamlarını da götürüb gəlir qudasıgilə. Yeyib içib şənlənirlər. Axırda qızın anası gəlinə və bəyə gətirdiyi hədiyyələri verib qayıdırlar.

### *Ayaqaçdı*

Gəlingördükdən sonra gəlinin anası qızını və kürəkənini evinə qonaq çağırır. Buna "ayaqaçdı" deyirlər. Bir nəfərlə xəbər göndərirlər ki, yığışıb bizə gəlin. Ayaqaçdıda kişilər də gəlir. Böyük məclis qururlar. Yeyib-içirlər, çalıb-oynayırlar.

Qızın anası oğlana və qıza aldığı hədiyyəni verir. Həmin gün qızı evdə qonaq saxlayırlar. Bir-iki gündən sonra əri gəlib



aparır. "Ayaqaçdı"dan sonra bəylə-gəlin istədikləri vaxt ora gedib-gəlirlər.

### *Qonaqçağırma*

Ayaqaçdıdan sonra həm oğlan, həm də qız tərəfdən ən yaxın qohumlar "bəylə-gəlini" qonaq çağırırlar. Bu da bir növ "ayaqaçdı"ya bənzəyir. Qonaq çağırdıqdan sonra bəylə-gəlin onların evinə gedib-gəlirlər. Qonaq çağırarkən onlara hədiyyə verirlər. Ümumiyyətlə, "bəylə-gəlin" kimi evinə ilk dəfə qədəm qoysa o zaman onlara hədiyyə verirlər.

### *Nəvəgörmə*

8618

Gənc ailənin üçüncü üzvünün dünyaya gəlməsi, toy-bayrama çevrilir. İlk nəvənin yorğan-döşəyini qız anası salar. Elə ki, nəvə dünyaya gəldi, nənə düşür əl-ayağa. Ən gözəl ipəkdən ona yorğan-döşək salır, beşik alır. Nəvəni görməyə "qırx" çıxdıqdan sonra gedirlər. Gəlinin ata-anası, bacısı-qardaşı, gəlinləri yığılıb gəlirlər. Körpəyə paltar alırlar. Bu şeylərin hamısının qırmızı lentlə bağlayırlar. Körpəni görəndə isə hamı qundağına nəmər qoyur.

*(Qaynaq: www.qeribler.com)*

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Şakir ALBALIYEV

## AZƏRBAYCANDA TOY MƏRASİMLƏRİ

Ailə-məişət mərasimləri içərisində toy mərasimlərinin keçirilməsi özünün zənginliyi, əlvanlığı və xüsusi təmtəraqlığı ilə fərqlənir. Toy mərasimləri praktiki olaraq bir neçə mərhələdə həyata keçirilir və bu barədə ayrı-ayrı nəzəri ədəbiyyatlarda müxtəlif mülahizələr söylənmiş, etnoqrafik mahiyyətli folklor mətnləri toplanılıb nəşr edilmişdir. Biz də mövcud nəzəri materiallara, toplanmış folklor nümunələrinə əsasən Azərbaycanda keçirilən toy mərasimləri, onların poetik mətnləri ilə bağlı öz sözümüzü deməyə, eyni zamanda toy mərasimləri zamanı özünü göstərən folklor-etnoqrafik xarakterli rəmzlərə öz münasibətimizi bildirməyə çalışacağıq. Toy mərasimləri ilə bağlı mövcud poetik mətnlərdən də bəhrələnməklə bu mərasimin ritual-mifoloji semantikasının özəl qatlarına dair fikirlərimizi bölüşəcəyik.

Məlumdur ki, toy özlüyündə şənliyi ifadə edir. Lakin toy mərasimləri, daha doğrusu, toy mərasimlərinin aparılmasında başlıca yeri tutan çalğı alətləri vasitəsilə ifadə olunan musiqi səsləri həmişə şadlığı ifadə etdirmişdirmi? Əlbəttə ki, bəzən yox! Bu məsələlərə yeri gəldikdə münasibət bildirəcəyik.

Toy mərasimləri məişətimizin, adət-ənənələrimizin çox böyük bir hissəsini öz içərisinə aldığından, bu, xalqımızın özünü dünya xalqları içərisində tanıtdırmasında xüsusi mövqeyə malikdir. Bu anlamda Azərbaycan mədəniyyətinin tərkib hissəsi kimi Azərbaycan toyları, Azərbaycan musiqisi dünyanın bir çox xalqlarına, xüsusən də Qafqaz xalqlarına təsirsiz ötüşməmişdir. Fikrimizi təsdiq üçün təxminən 80-100 il bundan əvvəl Cəlil bəy Bağdadbəyov tərəfindən qələmə alınmış "Azərbaycan musiqisinin təsiri" adlı yazıya diqqət yetirək: "Azərbaycan musiqisi qonşularımız olan gürcü və xüsusilə ermənilərə təsir et-



mişdir. Mən bu məsələdə bir para dəlillər gətirməyib yalnız bunu qeyd edirəm ki, ömrümdə gördüyüm erməni xanəndələrindən, məsələn, Tiflisdə 1910-cu illərdə vəfat etmiş xanəndə İonesyan 80 yaşında, Bakıda Mixan 60 yaşında, 1915-ci ildə əsgərlikdə vəfat etmiş Davud Ağayarov Azərbaycan muğamatını oxumaqla bərabər, hətta qəzəlləri və el mahnılarını da Azərbaycan dilində yaxşı oxuyurdular. Halbuki erməni millətinin də ədəbiyyatı vardır... Azərbaycanda 1920-ci ilə qədər tar çalanlar, kamança, balaban çalanlar arasında ermənilərdən olub və onlara Azərbaycan çalğıçıları təsir etmişlər... Azərbaycan musiqisi qonşumuz ləzgilərə də təsir etmişdir. Belə ki, hərgah Azərbaycan musiqisi ləzgilərdən bir "Ləzginka" almışdırsa, əvəzində bütün rəqslərini onlara vermişdir". *(Bax: Cəlil bəy Bağdadbəyov. "Xatirələr və etnoqrafik qeydlər", "Qapp-Poliqraf", Bakı. 2002. səh. 63-64).*

Göründüyü kimi, Azərbaycan mədəniyyətinin tərkib hissəsi olan musiqi sənətimizdən digər xalqlar da yetərincə bəhrələnmişdir. Hətta mənfur qonşularımız olan ermənilər nəinki bəhrələnmiş, bu mənəvi incilərimizi özününküləşdirməyə çalışmışlar. Demək, təkcə torpaqlarımızı yox, milli-mənəvi dəyərlərimizi və o cümlədən, musiqimizi də işğal etmək, zəbt etmək niyyəti mənfur qonşularımızda çoxdan başlayıbmış!..

Toy mərasiminin keçirilməsi özlüyündə qaynar həyatı işarələyir. Harda toy varsa, orda gümrahlıq var, həyata inam, yaşamağa həvəs var. Əbəs deyil ki, toy sözü xalqımızın dilində, "toy-bayram" ifadəsi şəklində işlənir ki, bu da toyun bir bayram, şənlik məclisi olduğunu birbaşa ifadə edir. Yaxud da toy məclisi "toy şənliyi" şəklində işlənir ki, bu deyim özü də biranlamlı şəkildə toyun bilavasitə şənlikdən ibarət olduğunu bildirir.

Toy mərasimi çalğının, musiqinin müşayiətilə icra olunur ki, (düzdür, çalğısız-musiqisiz, meysiz-məzəsiz keçirilən peyğəmbəri toy - "sofuyana toy" da mövcuddu) burda da müəyyən

üstüörtülü məqamlar gizlənib. Toy şənlikləri haylı-küylü şəkildə, şən səs-küy içərisində keçirilir. Bu, mərasimin tələbidir, özü də ilk baxışda zahiri tələbidir. Bu, düzdür. Amma toyların səs-küylü bir şəraitdə keçirilməsinin bir daxili səbəbi də var, bu, toy sahibini toy vaxtı düşdüyü ağır xərcə-xəsarətə görə, çəkdiyi ağır toy xərcinə görə sıxıntı-üzüntü çəkməkdən ("ay, bu qədər xərcə düşdüm, ay bu qədər malım-pulum getdi", - deyə deyinməkdən) xilas etməyə yönəldilən ritualdır.

Axı diqqətlə düşünsək, görərik ki, "toya toy deyiblər ki, toy yiyəsinin bağrı çatlamasın" kimi məlum el deyimimiz də var və bu kəlam özü elə birbaşa yuxarıda dediyimiz cəhətə ünvanlanıb: yəni toy adlanan mərasimə "toy" - şənlik, bayram ona görə deyirlər ki, toyun sahibi düşdüyü xərcə-toy borcuna görə xiffət çəkməsin. Axı insanlar bayramlarda da (məsələn, Novruzda, Yeni ildə və s.) çoxlu bayram tədarükü görürlər, bayramı nikbin ovqat üstündə qarşılayırlar. Eləcə də insan oğlu öz övladına toy şənliyi keçirərkən, bayramqabağı olduğu kimi, analoci xərcə düşür, malını-dövlətini toyu keçirməyə myüzillikəf edir. Bəli, yuxarıdakı məsəl də, toyun səs-küylü-təntənəli halda qeyd olunması da onu vurğulayır ki, toya çəkilən xərc sahibini ağır xərcə salsa da, toy özü böyük şənlik-sevinc, bayram deməkdir. Yəni toy həm şənlik deməkdir, həm də digər tərəfdən də toy sahibini (elə toya təşrif buyuranları da) müəyyən anlamda xərcə salmaq deməkdir!.. Amma bir inkarolunmaz və dəyərli həqiqət də var ki, insan qazancını öz övladının - gələcəyi olan vərəsəsinin yolunda çəkməli və bunu özünə insanlıq borcu, ən ali şərəf bilməlidir. Axı bir bayatımızda əbəs yerə deyilmir ki:

***Əzizim, qazançanı,***
***Tutmusan qazançanı.***
***Baş götürüb gedirsən,***
***Əlində qazanc hanı?***



Bir ağbirçəyin dilindən eşitdiyim bu el bayatısında (həm də müəyyən məqamda ağıda) nələrə işarət edilmir?! Yəni insanın mənəvi qazancı bu dünyada özündən sonra qoyub getdiyi yaxşı əməllərinin timsalında yaxşı adı, maddi-fiziki qazancı isə onun ləyaqətli övladları, nəvə-nəticələri və s.-dir ki, biz də məhz həmin övladlarımızın toyunu eləməyi - oğul evləndirməyi, qız köçürməyi özümüzə müqəddəs insani borc sanmalıyıq!

Bir sözlə, toy mərasimlərinin təmtəraqlı şəkildə, toy-düyünlə, çalğı-musiqi ilə keçirilməsinin mayasında həm də rəmzi çalarlar-mifik əlamətlər gizlənib: birincisi, musiqinin dili ilə bəd qüvvələr-şər ruhlar ram edilir.

İkincisi, toya gələnlərin diqqətini (bəd nəzərlərini-bədnəzərliyi, yamangözlüyü) toyun yaraşıqları - əsas simaları olan bəylə gəlinin üstündən yayındırmaq, uzaqlaşdırmaq missiyası ixtiyarsız olaraq həyata keçirilir. Beləliklə ailə həyatı quran gəncləri pis gözdən, bəz nəfsdən qorumaq (gizlətmək) niyyəti baş tutur. Həm də "toya toy deyirlər ki, toy sahibinin bağrı çatlamasın" fikri onu ifadə edir ki, toy yiyəsi vardan-yoxdan çıxır, çox xərcə düşürsə də, əvəzində toydan "salamat" - bədnəzərlərdən qorunmuş halda qurtarır - bu da ki, əlbəttə, toyun çalğı-şənlik içərisində keçməsində və nəticədə bu toy-düyünün bəd nəzərdən hifz olunmasında reallaşır.

Göründüyü kimi, mərhələli şəkildə həyata keçirilib gerçəkləşdirilən toy mərasimləri zamanı ifa olunan ayinlər, musiqi səsləri təkcə toyun zahiri cəhətinə görə səsli-küylü keçirilməsini - sadəcə dəbdəbəni, təmtərağı, şənlik əhval-ruhiyyəsini işarələndirmir, həm də üstüörtülü mifik cizgiləri özlüyündə şərtləndirir - bəd ruhlardan və yaman gözlərdən toy sahibini xilas etməyə xidmət edir!

Xalqımızın bir müdrik deyimi var: "Uşağım əzizdir, tərbiyəsi ondan da əzizdir". Bu kəlam praktik olaraq həyata keçirilmiş, nəsillərdən-nəsillərə ərməğan olaraq ötürülmüş bir ənənədir. Övladın tərbiyəsinin qayğısına qalmaq ənənəsi! Valideyn

öz vəlǝdini tərbiyəli böyütməklə ilk növbədə onu öz nəslinin-tayfasının adını ucaldacaq bir varis kimi görmək, ikincisi camaat içinə-cəmiyyətə bir ləyaqətli vətəndaş kimi təqdim etmək istəyir. Nəslin adını batıracaq övladı nəinki valideyn özü üçün, həm də ulu keçmişi - dədə-babaları, cəddi-əbaları üçün təhqir, başıaşağılıq saydığından, övladın tərbiyəsini önə çəkmişdir. Buna görə də "anası gəzən ağacı balası budaq-budaq gəzər" deyib-düşünən xalqımız öz övladı üçün qız seçib-bəyənəndə evinə gəlin gətirəcəyi adamın əslini-kökünü axtarıb-arayırdı, "ot kökü üstə bitər" deyə əsilli-köklü bir yerdən oğul evləndirməyə səy göstərərdilər. Belə düşünülərdi ki, övladın tərbiyəsi dünyaya gəlməmişdən çox qabaq başlamalıdır. Çünki övlada ana tərbiyə verər, bəs uşağın anası hansı əqidənin yiyəsidir, hansı kökdən-ocaqdandır məsələsi irəlicədən düşünülürdü.

Bax, bu kimi məsələlər irəlicədən düşünüldüyündən, yüz ölçülüb-bir biçilmiş ailə qurmaq, evlənmək məsələsinin mərasimi aktı olan toy şənlikləri bu cür yüksək səviyyədə - 3 gün-3 gecə, 7 gün-7 gecə (40 gün-40 gecə) şadyanalıqla keçirilərdi. Özü də hər kəsin ömründə bir dəfə olacaq möhtəşəm hadisə kimi! Azərbaycan xalqı-türk xalqları bəşər mədəniyyətinin lap ilkin çağlarından, dinlərdən öncəki çağlardan da monoqam ailə tipini özünə həyat-tale devizi seçmişdir. Bax bu səbəbdəndir ki, bu günün özündə təsadüfən olan, təsadüfən rast gəlinən ikiarvadlı (çoxarvadlı) kişilərə gülünc, istehza obyekti kimi yanaşırdıq. Bu, qan yaddaşından doğan keyfiyyətimizdir - təkarvadlı ailə prinsipimizi əzəldən-axıradək yaşatmaq amalımızdır.

Qeyd etmək vacibdir ki, nikah formalarından monoqamiya tipi türk xalqları və o cümlədən, Azərbaycan xalqı üçün ta yaranış çağlarından xarakterikdir. Yəni biranlamlı şəkildə deyim ki, türk xalqlarında ancaq monoqam ailə forması mövcud olmuşdur. Türk (Azərbaycan) ailəsi təkarvadlıq prinsipi üzərində qurulub-formalaşmışdır.



Bəs bu özünü nə ilə doğruldur? Bu barədə söz açmamışdan öncə, yadımdan çıxmamışkən onu da deyim ki, "qızların qaçırılması" məsələsi Azərbaycan xalqına məxsus sırf milli-mənəvi keyfiyyətdir. Özü də müsbət cəhətləri ilə! "Qızqaçırmaq» sözünü rusca, ya başqa dilə tərcümədə "qız oğurlama" kimi göstərirlər. Bu "oğurluq" ifadəsi özünü yalnız hərfi tərcümə kimi göstərdiyindən - sətri anlamda anlaşıldığından, cinayət kimi səslənir. Yəni adi soyğunçuluq, qarət, oğurluq anlamsında düşünüldüyündən, konstitusiyada bu məsələ cinayət xarakterli məcəllə kimi əksini tapıb. Amma bir incə məsələni burda unutmaq-diqqətdən qaçırmaqla haqsızlıq-əslinə qalsa, qanunaziddlik məsələsinə yol verilmişdir. Nədir bu incəlik? Bu, sırf milli-mental təfəkkür tərzindən, etnik psixologiyadan doğan incə bir çalardır.

Bəc "qız qaçırma" adəti özündə nə ilə əlamətdardır? XIX yüzillik Azərbaycan ədəbiyyatında maarifçi-realizmin məşhur nümayəndəsi İsmayıl bəy Qutqaşınlı ölkəmizdən xaricdə təhsil almasına, bir sıra xarici dilləri öyrənməsinə baxmayaraq, xalqımızın mental keyfiyyətlərini xalqın övladı kimi çox gözəl bilirdi və hətta Polşada olarkən fransız dilində yazdığı "Rəşid bəy və Səadət xanım" hekayəsinin ruhunda tipik azərbaycanlı məişətini təsvir etmişdi. Təkcə bu əsərdən çıxış etməklə biz qızqaçırma səhnəsinin necə olduğunu dünya ictimaiyyətinə təhrifsiz-filansız nümayiş etdirə bilərik. Özü də o dövrün xarici mütəxəssisləri "Rəşid bəy və Səadət xanım" əsərinin Şərq ruhunun oricinal daşıyıcısı olduğunu və Şərq sevgisinin Avropadan çox-çox fərqli şəkildə qat-qat ülvi dəyər daşıdığını etiraf etmişdilər. İsmayıl bəyin dilindən "Ah, Səadət! Səadət! Bilsən ki, bu adı gündə min dəfə də olsa təkrar etmək mənə nə dərəcədə xoşdur!" kimi kəlamlar Şərqin sevgi-eşq fəlsəfəsinin ruhunu ifadə etmirmi? Yaxud: "Bülbül güldən uzaq olduqca bütün təbiətə zövq verir. Elə ki bülbül gülün yanına gəlir, susub lal olur. Mən də beləyəm!" kəlmələri Şərq-Azərbaycanlı aşiqin müqəddəs

ürək çırpıntılarını ifadə etmirmi? Məgər bu müqəddəs duyğular üstündə sevgilisi Səadəti at belinə alıb göz önündən itirməsi - qız qaçırma səhnəsi adi oğurluqla eyniləşə bilərmi və üstəlik bu "qızqaçırma"nın üstünə cinayətkarlıq damğası basıb ona hərfi anlamda "qız oğurlama" cəzası tətbiq etmək ədalətli qərar ola bilərmi?! Əlbəttə, yox!

Sırf milli-psixoloji məsələ olan qızqaçırma adət-ənənəsi elat türk tayfasının özünəməxsus mənəvi keyfiyyətlərindəndir. Qızqaçırmanın, hüquqi dillə desək, "qızoğurlama"nın özündə bir mərdlik-kişilik keyfiyyəti gizlənib və sevdiyi qızın yolunda döşünü qabağa verən bir Azərbaycan cəngavərinin - aşiqin fədakarlığı görünür. Aşiq - sevə bilən ürək sahibi müqəddəs bir dünyanın adamıdır və aşiqə cəza hökmü oxumaq özü təkcə qanun - məhkəmə qarşısında yox, uca Tanrı qarşısında da böyük günaha batmaq-haqsızlıq eləmək və əslində hüquq pozuntusuna yol vermək deməkdir! Eşq duyğusu müqəddəs anlayışdır, həqiqi sevgidə - böyük eşqdə əxlaqa zidd, naqabil, çirkin, murdar heç nə ola bilməz. Həqiqi eşq ilə sevən aşiq sevdiyi qızı "oğurlayırsa" - qaçırırsa, onu pis niyyət üçün - əxlaqsızlıq əməli kimi etmir, əksinə, onunla müqəddəs izdivac xatirinə - xoşbəxt ailə qurmaq naminə bu canfəşanlığı edir. Bir sözlə, ta qədimdən gəlmə qızqaçırma adəti bu gün də öz ülviliyini qoruyub saxlamaq şərtilə yaşamalı, ailə qurmaq yolunun bir forması kimi xalqımız tərəfindən normal hal kimi qarşılanmalıdır. Qızqaçırma adətinin kökündə də monoqam ailə qurmaq tipi dayanır: sadəcə olaraq, ailə qurmaq yolunda görülən toyaqədərki dəm-dəstgah (toy tədarükləri) ixtisara salınmış olur. Yəni nəticəsi onsuz da qaçırılan qızın bir müddət keçəndən sonra el ağsaqqalları və ağbirçəklərinin başçılığı və məsləhəti - xeyir-duaları əsasında barışıq sülhü ilə başa çatır. Bu, bizəqədərki nəsillərdən-nəsillərə ötürülən bir müqəddəs yoldur və biz də bu yolu olduğu kimi müqəddəs şəkildə yaşatmalı və gələcək nəsillərə də mübarək şəkildə estafet olaraq təhvil verməliyik! Məhz qızqaçırılma adəti evlənmənin bir qaydası kimi, toy mərasimlərimizin həyata keçirilməsində özünəməxsus təzahür forması kimi dəyərləndirilməli, ən azı istisna hal kimi də olsa, müəyyən hallarda yaşamalıdır da!..

Bəs qızqaçırma ənənəsi nədən doğmuşdur? Ömrü-günü at belində keçən tərəkəmə azərbaycanlılar başqa tayfadan olan qızlara gözü düşdükdə və qızla-oğlanın könül sevdası baş tutduqda, lakin bu işə böyüklərin - ata-ananın, nənə-babanın razı olmadıqlarını gördükdə, sevdiklərini "vurma-çalma eləyib" götürüb aradan çıxmışlar, bir müddət gözə görünməmişlər. Ta ki, bu işə narazı olan tayfa başçılarının narazılıqlarından doğan hirsi-hikkəsi başlarından çıxanacan, qəzəbləri soyuyanacan gözə görünməmişlər. Axırda arada barışıq yarada bilən el ağsaqqallarının vasitəçiliyi ilə qaçırılan qız oğlanla üzə çıxmış, toy mərasimi (hər hansı şəkildə!) təşkil olunmuş və nəticədə bu yolla müqəddəs bir ailənin bünövrəsi qoyulmuş olur. Göründüyü kimi, qızqaçırma adəti yekunda müqəddəs monoqam ailə tipi qurmaqdan başqa bir şey deyildir. Sadəcə olaraq, bu zaman böyük toy məclisinə (rəsmi toy mərasiminə) qədərki əhvalatlar-elçilik, nişan-mişan məsələləri arada təxirə salınmış olur. Bəlkə də, əslinə qalsa, indiki iqtisadi durumun dünya miqyasında götürdükdə belə, yaxşı olmadığı bir şəraitdə-dövrdə belə bir adətin yenidən dirçəldilməsinə böyük ehtiyac var! Çünki ailə qurmaq istəyənlərimiz çox vaxt düşünür, toy xərcini götür-qoy edir, toyaqədərki elçilik, nişan və s. mərasimlərinə xərclənəcək vəsaitlərinin olmayacağına görə toy eləmək kimi vacib həyat məsələsini yubadırlar. Nəticədə isə cəmiyyətdə mənəvi pozulmalar baş alıb gedir. Gənclərimiz ailə həyatı qurmada çox gecikir, subay qızlarımız da ata evlərində qarıyıb-qalırlar. Demək, qədimdən gəlmə qızqaçırma ənənəsi həm toy eləmə - evlənmə aktının bir növü, forması olmaqla, həm də insanları əlavə boş yerə vaxtlarını və mallarını-pullarını itirməkdən xilas etməyə xidmət edən toy mərasiminin bir formasıdı.

Təkarvadlılıq prinsipi həm də qadına-arvada və ümumiyyətlə, anaya qoyulan böyük hörmətin təzahürüdür. Yəni islamdakı siğə prinsipi ilə yanaşılan çoxarvadlılıq amili 1300 ildə qəbul etdiyimiz dinin təbliğatı ilə olsa belə Azərbaycan cəmiyyətinə təsir etməmiş, sakral azərbaycanlı ailəsi öz möhkəmliyini qoruyub saxlamış, monoqam ailə tipinin kristal təbiətini heç bir qüvvə sındıra bilməmişdir. Kişilər arvadlarına sonsuz sevgi bəsləməklə onları başqalarına qısqandığı kimi, qarşılıqlı olaraq həm də qadınlarımız ərlərini yad qadınlara qısqanmışlar. Qısqanclıq duyğusu isə möhkəm sevgidən doğur, böyük sevgi olan yerdə isə sarsılmaz ailə mövcuddur.



Şakir ALBALIYEV

## AZƏRBAYCAN GƏLİNİ XOŞBƏXTLİK RƏMZİDİR

Toy məsələsi həyati əhəmiyyət kəsb edən mərasim olduğundan, toyun başlanğıcından sonuna qədərki görülən tədbirləri bütöv kompleks halında götürsək, orada canlı bir həyatın təntənəsini - başqa sözlə desək, dünya obrazının dramatik təcəssümünü görərik. Hər kəs üçün dünyanın fiziki haldakı mövcudluq faktı elə həmin şəxsin ömrünün başlanıb qurtarmaq sərhədləri çərçivəsində müəyyənləşir, insan ömründən kənarda dünyanın fiziki ölçüsü yoxdur. Hər kəs dünyanı - həyatı hansı donda, formada görə bilirsə, bax elə dünyanın fiziki şəkli-quruluşu həmin kəs üçün elə o qədərdir. Dünyanın mənəvi formadakı təsviri-quruluşu isə daha geniş, daha doğrusu, intəhasız, sonsuz bir fəzanı əhatə edir. Elə çox vaxt dünya deyiləndə bu hüdudsuzluğu təsəvvürə gətiririk. Amma bu hüdudsuz mənəvi dünyaya daxil ola bilmək - əbədi yaşamaq pasportu almaq üçün insan hökmən gərək öz fiziki dünyası sayılan ömür yolunda - həyatdakı şəxsi fəaliyyətində hansısa bir böyük mənəvi iz qoymağı bacarsın. Fiziki dünyasından - ömür yolundan şərəflə, başıuca keçməyi bacarmayanda mənəvi aləmin qapıları əbədilik bağlıdır. Məhz hər insan mənəvi dünyanın bağlı qapısının tilsimini sındırmaq - mənəvi yaşarlıq haqqı qazanmaq üçün, ömür adlı fiziki dünyasından mənəvi dünyaya daxil ola bilmək üçün yorulmaz fəaliyyət göstərir, özünün əməlisaleh işləri ilə məhəbbət qazanmağa, könüllərə gömməyə səy edir.

Məhz toy mərasimi də insanın canlı həyat fəaliyyətinin əsas orqanizmini təşkil edir, - desək yanılmarıq. Y.V.Çəmənzəminlinin "Qızlar bulağı" romanında işlətdiyi aşağıdakı kəlam da elə dediyimizin digər formadakı təsdiqidir: "Evlənmək məhək daşı imiş. İnsanın nə (kim) olduğu evlənmək istəyəndə bilinər". Bə-

li, hər kəsin evlilik həyatına daxil olma anı və ümumilikdə isə evlilik həyatı onun həyatının - ömür yolunun cövhərini, mayasını təşkil edir. Ailə həyatı qurmaq həyat yoldaşının və övladlarının timsalında həm də kiçik cəmiyyət qurub formalaşdırmaq deməkdir. Bu cəmiyyəti (ailəni) necə dolandıracaqsan, necə rəhbərlik edəcəksən və cəmiyyətə necə insanlar (uşaqlar) bəxş edəcəksən, bununla da cəmiyyət və dünya üçün hansı mövqeyə-mərtəbəyə ucalacaqsan? - Bütün bu sualların cavabı məhz evlilik həyatı ilə bağlı olduğundan, xalqımız bu məsələyə böyük önəm vermiş və bunun əyani forması evlilik həyatının rəsmi akta minməsi mərasimi olan toy məclislərinin xüsusi şəkildə təmtəraqla və geniş ölçülərdə (mərhələvari şəkildə) keçirilməsində inikas olunmuşdur. Folklorşünas-alim Bəhlul Abdullayev də məhz bu prinsipləri nəzərdə tutaraq "Azərbaycan mərasim folkloru" kitabında bu haqda belə deyir: "Bəlli həqiqətdir ki, iki cavanın vüsal, bir ailədə birləşməsi aktı olan toy elə birdən-birə başlanmır. Bunun üçün müəyyən başlanğıc, hazırlıq mərhələləri qədimdə də olmuşdur, bəzi dəyişilmə, təkmilləşmə ilə indi də vardır. Ailə qurmaq vaxtı çatmış cavanlar, xüsusilə qızlar qarşıdakı ildə ərə gedib-getməyəcəklərini qabaqcadan öyrənməkdən ötəri yeni il axşamında bir sıra ayinlər icra edirlər. Niyyət tutub qulaq falına çıxırlar. Bunun üçün güzgü, açar götürüb qonşu qapısına gəlir və eşitdikləri ilk sözü tutduqları niyyətlə əlaqədar yozurlar. Əgər eşidilən söz mətləbə uyğundursa, onda ərə gedəcəklərini zənn edirlər.

Burada istifadə olunan güzgü, açar xüsusi rəmzi anlam daşıyır... Açar eşidiləcək sözlə birlikdə tutulmuş niyyətin açılması vasitəsi sayılmışdır" (s.120-121).

Göründüyü kimi, evlilik məsələsi o qədər vacib sayılmışdır ki, ən qədim mifik inam və təsəvvürlərdən üzü bu yana xalqın adət-ənənələrində özünə möhkəm yer almış, Yeni il, Novruz adət-ənənələri, mərasimləri ilə bir sırada toy mərasiminə daxil olan mühüm məsələlər də həmişə diqqət mərkəzində olmuşdur.



Başqa sözlə, mövsüm mərasimləri vasitəsilə də toy mərasiminin vacib keyfiyyətləri müşayiət olunmuş, sınaqdan, niyyətdən keçirilmişdir. Bütün mərasimlərdə, eləcə də bayramlarda və el şənliklərində həmişə toyla bağlı məsələlər düşündürücü xarakter almış və xalqın fikrində - zehnində oğul evləndirmək, qız köçürmək amili həmişə istisnasız olaraq baş planda özünə yer etmişdir.

"Azərbaycan folkloru antologiyası" seriyasında Folklor İnstitutunun buraxdığı Şəki folkloruna dair XVIII nəşrdə Şəkidə qız və oğlan toylarının ayrı-ayrılıqda keçirilməsindən bəhs edilib yazılır:

"Qız toyu – keçmişdə qız toylarında kişilər iştirak etməzdilər. Təsadüfi hallarda qız sevən oğlan uzaqdan, qadınların görmədiyi yerdən toya baxardı. Qız toylarında kişilər deyil, qadınlar, ya da kor Ələkbər çalıb-oxuyardı. Kor Ələkbərin anası Zəhrəqudan arvad onu qavalda müşayiət edərdi. Ələkbərin hər iki gözü kor idi. O, bəzən tar, qarmon da çalardı. Qız toylarını Süsən adlı qadın aparardı. O, qarmonda oyun havası ifa edərdi. Toya yığılan arvadların hamısı əl çalardı. Olça (əl çalmaq) səsi çox hallarda musiqini itirib-batırardı. Ortaya düşüb əl-qol açanlar elə-belə olçaya oynayardılar.

Toy mərasimləri üç gün davam edirdi. Qadın toylarında oturacaq-filan olmazdı. Qız-gəlinlər ya otaqda dövrə vurub ayaq üstə dayanar, ya da bardaş qurub yerdə əyləşərdilər. Toylar çox şən keçərdi.

Oğlan toyu - Şəkidə oğlan toylarının əksəriyyəti tar, kamança dəsgahıyla keçirdi. Oğlan toyunda qadınlar olmazdı. Qadınlar kənar bir yerdən tamaşa edərdilər. Burada çalıb-oynamaqdan başqa muğamat oxunmasına da çox həvəs göstərilərdi.

Oğlan toylarında güləşmək də dəb idi. Çox vaxt axırı davadalaşla qurtardığından, sonralar ləğv edilmişdi". *(Bax: AFA, XVIII kitab, Şəki Folkloru, III cild, "Nurlan", 2009, səh. 405).*

Mətn özlüyündə bu informasiyanı da təqdim edir ki, qız və oğlan toylarının ayrı-ayrılıqda keçirilməsi ilə yanaşı, keçmişdə qız toyunda kişilər, oğlan toyunda isə qadınlar olmurdular.

Yeri gəlmişkən bir haşiyə çıxım. Bizim Cəbrayıl rayonunun da əksər kəndlərində toy mağarlarında qadınlar da, kişilər də qarşılıqlı halda iştirak edir, birgə oynayırlar. Amma bəzi Arazboyu kəndlərdə 1990-cı illərədək qız toyunda ancaq qadınlar iştirak edərdi. Məsafə baxımından uzaq olduğundan, bizim Dağtumas, Sofulu və başqa dağətəyi kəndlərimizin əhalisi Arazboyu aran kəndlərimizin, o cümlədən Soltanlı kəndinin xeyir işlərində gedib iştirak edə bilmirdi. Bir dəfə Soltanlı kəndindən gəlib bizim Dağtumas kəndində sahə müvəkkili işləyən Rəfayıl Abbasov bizi bacısının toyuna dəvət eləmişdi. Rəhmətlik atam Əlif Aydınoğlu, kirvəmiz rəhmətlik Bayraməli Həzrətqulu oğlu və bir dəstə adam həmin toya getmişdi. Heç yadımdan çıxmaz. Atam toydan qayıdandan sonra təəccüblə öz toy təəssüratını danışıb, dedi ki, Soltanlıda qəribə adət var imiş. Qız toylarındakı çalğı məclisinə kişilər buraxılmazmış. Düzdür, bizi qonaq kimi ağırladılar, əziz tutub toy mağarına apardılar, ən hörmətli yerdə oturtdular. Toya tamaşa etdik. Bizi oynatdılar da. Amma kəndin cavan-cuvanları, kişiləri məclisdə yox idilər...

Əlavə edim ki, biz 1993-cü ilin avqustunda torpaqlarımız zəbt olunduqdan sonra məcburi köçkün kimi Saatlı rayonunun Azadkənd kəndində yaşamağa başladıq. Kəndin xeyrində-şərində iştirak edərkən Soltanlı kəndində keçirilən qız toylarının analoji şəkildə burda da keçirildiyinin şahidi olduq. Bu gün (XXI yüzillikdə) də Muğan bölgəsindəki qız toylarında – kənd toylarında qurulan toy mağarlarında ancaq qız-gəlinlər iştirak edir, çalıb-oynayırlar. Oraya yad kişi, ümumiyyətlə oğlanlar buraxılmır.

Toy məclislərinin keçirilməsində görünən adət-ənənə fərqləri özü də mərasimin çoxçeşidli formada keçirilməsindən



xəbər verir. Bizim dağ kəndlərindəki toylarımız da özünəməxsus şuxluqda keçərdi. Toy mağarını idarə etmək üçün bir nəfəri – hazırcavab, şəntəbiətli, qıza-gəlinə xoş nəzərlə - ana, bacı gözü ilə baxan tərbiyəli-qanacaqlı bir şəxsi "toybaşı" seçərdilər. Həmin adamın qoluna qırmızı lent, ya qırmızı qumaş parça, yaylıq bağlanar (qırmızı toyun nişanəsi olmaqla şadlığı bildirərdi), əlində uzun nazik çubuq olardı. Bizim yaşadığımız Dağtumas kəndi ilə qonşuluqda yerləşən Sofulu kəndində keçirilən toy məclislərinin ağsaqqalı - çal-çağır məclisini aparan toybaşı çox vaxt atam olardı. Atam Əlif Aydınoğlunun toybaşı olduğu məclislər öz şuxluğu – məzəliliyi ilə camaatı özünə daha çox çəkərdi. Bu səbəbdən də atamın toybaşı olmasını kənd camaatı daha çox bəyənər-alqışlayardı. Mən uşaq olanda atam öz şin təkərli "T-40" markalı traktoru ilə, ya da "MT-10" markalı motosikleti ilə məni də öz yanına alar, götürüb qonşu Sofulu kəndində toybaşı olacağı toy məclislərinə aparardı. Mən isə zurna-balamanla (gecələr isə saz aşıqlarının da iştirakı ilə) - milli musiqi alətlərimizlə ifa olunan çalğı məclislərindən həddən çox feyzyab olardım, musiqinin ruhoxşayan sehrindən şənlənərdim. Bu cür toy məclislərindəki anlarımı, günlərimi ruhumun ən nəşəli çağları kimi xatırlayıram.

Bəs toybaşı hansı funksiyaları yerinə yetirirdi sualına isə atamın məclisi necə yola verdiyini söyləməklə cavab verirəm. Toybaşılar məclisdə əyləşənlərin müəyyən "toy zakazını" – mahnı sifarişlərini qəbul edər, ardıcıllıqla nizam-intizamlı gözləməklə onları növbə ilə oyuna dəvət edərdi. Musiqi sifarişi üçün o vaxtlar hərə bir manat verərdi. Bundan başqa, toyda oynayanların başına əzizləmə-əziz tutma kimi pul şabaşı atardılar, adət 1 manatlıq, 3-5 manatlıq, bəzən 10 manatlıqlar da olardı. Bu pulları da yerdən ya toybaşı, ya da toybaşının müşayiətilə uşaqlar yığışdırar, aparıb aşığın stolunun üstünə (pul çamadanına) qoyardılar. Bundan başqa, musiqi çalınarkən oynayan adamları əziz tutmaq məqsədilə toya kənardan ayaqüstə tamaşa

edənlərdən, ya oturanlardan kimsə toybaşıya işarə edər, əlində tutduğu manatlığı (ya 3-5 manatlığı) toybaşıya verib oynayanlara alqış söylədərdi. Atam da özünəməxsus şuxluqla kənardakıların da, rəqs edənlərin də diqqətini cəlb etmək üçün həmin pul verən şəxsə yanaşar, pulu ondan alıb oynayanların yanına qayıdar, xüsusi oyun nümayiş etdirə-etdirə verilən pulu əlində yellədər-göstərər: "Sağ olsun oynayanlar, havadarı "filankəs", – deyə uca səslə pulu ona verənin adını çəkərdi. Axırda da pulu aparıb aşığa çatan pul çamadanına atardı. Bununla da təkcə toyda rəqs edənlər yox, toyun şux-şən keçməsi üçün kənardan tamaşa edənlər də toya pul xərcləyərdilər. (Onu da unutmayaq ki, bu pulların toyun adlı siyahısına – toya salınan nəmərə aidiyyəti yox idi).

Toy mağarından cəm olunan pulların hamısı aşığa çatardı. Toybaşıya da bu yığılan pulun müqabilində 5-10 faiz pul (danışıqdan asılı idi, amma çox yox, uzaqbaşı 100 manata 10 manat ala bilərdi) çatırdı. Daha məclis sahibi toybaşıya əlavə xərc – pul vermirdi. Bir məsələni də elə burdaca yaddan çıxmamış etiraf edim ki, mənim atam heç vaxt, heç bir dəfə də olsun toybaşılıqdan pul götürməzdi, olduqca nəfsi tox adam idi. Bu faktı kənd əhlinin hamısı - hansından soruşsaq, təsdiq edə bilər.

Bundan başqa, toybaşı çox ayıq – gözüaçıq adam olmalı idi. Belə ki, toy məclisinə təzə gələnlər hələ toy mağarına gəlib çatar-çatmaz, onları qarşılayıb, mağardan azacıq bayıra tərəf yeriyər, qabaqlarına çıxar:

"Sağ olsun toya gələnlər", - deməklə onlardan toy mağarına təşrif buyurmaqları münasibətilə mübarəkdarlıq etmək məqsədilə xərclik alardı. Toya gələnlər isə ya dəstənin başında gələn bir nüfuzlu adamı qabağa verər, ya da hər kəs fərdi qaydada cibinə əlini salıb manatlığı, ya üçmanatı toybaşıya uzadardı. Toybaşı da yenidən mağara qayıdıb rəqs edənlərin yanında dövrə vurmaqla toya gələnin şəninə alqış yağdırar: "sağ olsun toya gələnlər, filankəs başının dəstəsiynən", – deyərdi.



Burda bir incə məqamı da unutmaq olmaz. Əgər toya-toy mağarına yaxınlaşanlar həmin vaxt musiqiçilər çalğıya ara veriblərsə, ciblərindən pul çıxartmaz, heç toybaşı da musiqinin müşayiəti olmadan toya gələnlərin qabağına yeriməzdi. Bu, normadankənar hal kimi qarşılanar, toybaşı qınaq obyektinə çevrilərdi ki, sən necə toybaşısan ki, fəaliyyətsizsən, mağarda oynayan yoxdu, aşığı da tənbəl-tənbəl oturdubsan məclisdə. Bir məqamın da üstündən sükutla keçmək olmaz ki, toya təzə gələnlərin, yəni toy mağarına yaxınlaşmaqda olanların çalğı səsi ilə - musiqi ilə qarşılanmaması özü də toya gələn adama qarşı hörmətsizlik kimi sayılırdı. Toya gələn – mağara yaxınlaşan adam musiqi ilə qarşılanmalı idi. Odur ki, toybaşı toy boyu olduqca canfəşanlıq göstərməliydi; çalğı səsinin fasilə verməməsinə, oynayanların ardı-arasının kəsilməməsinə çalışardı. Yaxud da toybaşının çox iti müşahidəsi olmalı idi ki, əgər məclisdə təsadüfən çalğı dayanıbsa, toya təzə gələnləri aralıdan qırğı kimi iti gözləri ilə sezməli idi, onlar mağara çatanacan aşıqları hava çalmağa - musiqi səsləndirməyə təhrik etməli idi ki, həm toya təşrif buyuranları toyun adına uyğun olaraq həm hörmət əlaməti olaraq musiqi ilə qarşılasın, həm də elə onlardan toy şirinliyi kimi aşıqlara çatası pulu ala bilsin. Bu hal həm də toyun gedişini mazata mindirir, toy məclisinin daha da şux keçirilməsini ahəngdar tərzdə tamamlayırdı.

Mən atamın toybaşılığında bu cəhətləri müşahidə edirdim...

Bundan başqa, toy məclisindəkilərdən kimsə oynamayıbsa, toybaşı həmən adamdan mahnısını çaldırmasını ərkyana tələb edir. Bu cəhət də toybaşıdan diqqətcil olmağı, heç kəsi yaddan çıxarmamağı tələb edən cəhətdir. Bir də ki, əgər cavan-coluqlardan şitin-şorbasını çıxardıb, oynamaqdan qırağa çıxmaq istəməyənləri olduqda, toybaşı bu zaman əlindəki çubuğu yuxarı qaldırıb, bir neçə dəfə toy mağarının çadır tavanına döyəcləməklə, "daha bəsdir" işarəsini verməli olur. Toybaşının bu hərəkəti özlərinə - hisslərinə qapılmış dəliqanlıların toydan, daha

doğrusu, oyundan qırağa çıxması üçün bir him-işarə olur. Əlbəttə ki, burda heç bir inciklikdən-küsməkdən söhbət gedə bilməz, çünki bu, toy məclisinin normal ahəngdar qanunudur.

Mən əvvəl-əvvəl toybaşının əlindəki çubuğu çadıra – tavana döyəcləməsinin sirrini başa düşmürdüm, sonra atamdan bu işarənin sirrini soruşduqda, cavab verdi ki, bəs bu hərəkəti edirəm ki, oyunçular oyunu dayandırmağın vaxtı çatdığını başa düşüb rəqsi bitirsinlər. Axı oynamaq növbəsi gözləyənlər var, hamı oynamaq istəyir, hamını oynatmalıyam.

Bu deyilənlərdən bir daha aydın olur ki, toybaşı toy məclisini nizama salmaq, məclisdə qayda-qanun yaratmaq vəzifəsini icra edirmiş.

Göründüyü kimi, toy mərasimləri özünün rəngarəngliyi ilə, təmtəraqlı şəkildə keçirilməsi ilə əlamətdardır.

Toyaqədərki dövr mərhələsindən bəhs edən filologiya elmləri doktoru Bəhlul Abdulla yazır:

"Hər iki evdə (oğlan və qız evində - *Ş.A.)* toya hazırlığın yekunu qız evində "paltarkəsmə", yaxud "şirniiçmə" mərasimi ilə tamamlanır. Oğlan adamları gəlin üçün alınmış parça, paltar, bəzək avadanlığı və s. xonçalarda qız evinə gətirirlər. Burada parça, paltar kimi iynə, sap, oymaq, qayçı və s. tikiş ləvazimatı da təzə, işlənməmiş olmalıdır. Çünki etiqada görə yeni qurulacaq ailə üçün köhnə vasitələrdən istifadə edilərsə, onda həmin ailədə tez-tez dava-dalaş, söz-söhbət olar.

Gəlinin paltarlığını da dərziliyi bacaran, həm də kələntər, oğul-uşaq böyütmüş ağbirçək arvad biçməlidir. O, qayçını əlinə alıb adətən:

***Qayçını atdım taxçaya,***
***Cingildəsin, yar hey.***
***Çağırın oğlan bacısın,***
***Dingildəsin, yar hey. -***



deyə oxuyur. Sonra qayçını parçanın üstündə gəzdirə-gəzdirə məclisə müraciətlə:

- Ay adamlar, qayçı kütdür, parçanı kəsmir, - deyir. Oğlan adamları əlbəəl mətləbdən hali olurlar. Odur ki: - Qayçını işlətmək asandır, - deyib həmin qadına xələt verirlər. Buna Azərbaycanın bəzi yerlərində "qayçıkəsməz xələti" də deyilir. Xələt alandan sonra o, gəlin üçün paltar kəsib-biçir və şənlik keçirilir. Burada bir məsələ barədə məlumatı da vacib bilirik. Biçilib-tikilən paltarlar sırasında gəlinin ər evinə yola salınacaq vaxtda geyəcəyi köynəyin yaxası açılmamış qalır. Bu, ona görə belə edilir ki, guya hazır paltarları gecələr cin və başqa şər qüvvələr geyib ziyafət keçirirlər. Əgər qızın "bəxt köynəyi" sayılan bu paltardan da şər qüvvələr istifadə edərsə, onda gəlin çilləyə düşə bilər. Odur ki, həmin köynəyin yaxası gəlin yola düşmək üçün geyindirilən zaman açılır".

Göründüyü üzrə, həyatın başlıca amili olan toy mərasiminin təşkil olunması üçün görülən toyaqədərki mərhələ özü də ciddi hadisə sayılmış, yeni tikiləcək evin (ailənin) bünövrəsi kimi qədim inanc və görüşlər burda da müqəddəsliyi ilə gözlənilmişdir. Yuxarıdakı "paltarbiçmə" mərasiminin təsviri məsələlərində biz bu deyilənlərin şahidi oluruq.

Toy mərasimlərində rəngarəngliklər, çoxçeşidli ritual və ayinlər olduğu kimi, tarixən bir çox dünya xalqlarında nigahın müxtəlif formaları da olmuşdur. Yuxarıda bir yerdə bu barədə bəhs açmışdıq. Arif Məmmədovun "Arxeologiya və etnoqrafiya» adlı ali məktəb dərsliyində ("Müəllim", 2008) oxuyuruq:

"Geniş yayılan istilahlardan biri də ailə formasıdır. Ailə forması – nikah cütlərinin birləşməsinin spesifik reqlamentasiyasıdır. İkili ailə nikah cütlərinin qeyri-sabit şəkildə birləşməsidir. Burada qrup nikahı qalıqları daha çoxdur. Fərdi ailə ata nəsli şəraitində cütlərin uzun müddət üçün bir yerdə yaşamasıdır. Ana nəslindən ata nəslinə keçid dövrünün ziddiyyətlərini əks etdirən bir çox etnoqrafik anlayışlar diqqəti cəlb edir. Belə

adətlərdən biri kuvada adətidir (fransızca "kuveyd" – qırt oturmaq). Bu adət kişilərin öz atalıq hüququnu təsdiq etdiyi mərasimdir" (s.168-169).

Qeyd etmək lazımdır ki, nikah tiplərindən ortakuzen və kroskuzen nikahlar Azərbaycanda da geniş yayılmışdır. Lakin istər nikahın ortakuzen (əmiuşaqları arasında olan nikah), istərsə də kroskuzen (dayısıoğlu ilə bibiqızı arasındakı evlilik) formalarından doğulan uşaqlarda ya anormallıq halları, fiziki fəsadlar, ya da bu tipli nikahlarda sonsuzluq halları baş verir. Bu da onlardakı DNT xromosomlarının eyniliyi nəticəsində yaranan problemdir. İstər tibbi nöqteyi-baxımından, istərsə də dini tərəfdən bu cür nikahlara yol vermək düzgün deyildir. Təsadüfi deyil ki, ruslarda bu cür qohumlara "qardaş", "bacı" (dvoyurodnoy brat, dvoyrodnaya sestra) kəlmələri ilə istinad edirlər və ruslar (hətta ermənilər də) əmiuşaqları, dayı və bibiuşaqları arasında olan nikaha mənfi hal kimi baxırlar.

İslam dininin fanatikləri, daha doğrusu, islamı bilməyən dırnaqarası "mollalar" səhvən "əmioğlu ilə əmiqızının kəbinləri göydə kəsilib", - deyə əhali arasında yanlış təbliğat aparıblar. Halbuki islam aləmində yeddi cür qohumluq qardaş-bacıya bərabər tutulub və onlar arasında nikahın yasaq olduğu buyurulub. Bunlara: 1) əmioğlu ilə əmiqızı; 2) xalaoğlu ilə xalaqızı; 3) dayıoğlu ilə bibiqızı; 4) bibioğlu ilə dayıqızı; 5) ata bir ana ayrı qardaş-bacılar; 6) anadan bir atadan ayrı qardaş-bacılar və 7) nəhayət, süd qardaş-bacıları daxildir.

Deməк, istər dini baxışla, istərsə də tibbi-bioloji yöndən yanaşmaqla yuxarıdakı qohumluq əlaqələrində olanların evlənməsi düzgün qəbul olunmur. Yuxarıdakılardan 1) ana bir ata ayrı qardaş-bacı, 2) ata bir ana ayrı qardaş-bacı və 3) süd qardaş-bacıları arasında baş verəcək nikah hallarına Azərbaycan xalqında, ümumiyyətlə, Azərbaycan ərazisində təsadüf olunmayıb. Bu cür nikahlara xalq tərəfindən tabu-yasaq, qadağa qoyulub. Yaxşı olardı ki, yerdə qalan digər dörd cür qohumluq



arasında evlənməyə də (əmioğlu-əmiqızı, xalaoğlu-xalaqızı, dayıoğlu-bibi qızı və bibioğlu-dayıqızı arasındakı nikahlara) qadağa qoyulaydı.

İnsanlar da evlənirlər - ailə qururlar ki, xoşbəxtliyə qovuşsunlar. Xoşbəxtliyin əsasında isə ailədə doğulan körpə - uşaq dayanır. Əgər ailədə dünyaya gələn körpə şikəst doğulursa, ya sonsuzluq halı baş verirsə, burda xoşbəxtlik ola bilərmi? Əlbəttə, yox. Demək, özümüz bilə-bilə niyə özümüzü bədbəxtliyə doğru aparırıq. Yaxın qohumlar-doğma nəsillər, tayfalar arasında baş verən evlənmə-nikah hallarına niyə göz yumuruq? Niyə bu cür nikahdan dünyaya gələcək uşaqların taleyinə biganəlik göstəririk? Onlara hansı "xoşbəxtliyi" arzulayırıq? Bu barədə tutarlı söz demək missiyası hamıdan qabaq ziyalının üstünə düşür. Gəlin hamılıqla ortakuzen, kroskuzen tipli nikahlara girməyə yol verməyək! Bununla həm də milləti, etnosu məhv olmaq-şikəstlik təhlükəsindən qorumuş olarıq. Habelə fiziki cəhətdən sağlam, gümrah nəslin dünyaya gəlişinə təminat yaratmış olarıq.

Ailə qurmaq - evlənmək toy mərasiminin keçirilməsində rəsmiləşir. "Evlənmək" sözü ev (binə)lənmək deməkdir, Yəni ayrıca ev (ailə) sahibi olub atadan-anadan, bacıdan-qardaşdan ayrılmaqdır. Ona görə də xalqımız belə bir məsəl yaratmışdır: "Ayrı qardaş, yad qonşu", yəni ayrı qardaş yad qonşu kimidir, yaxud ayrı qardaş yad qonşudur. Bu məsəldə ayrı qardaşla yad qonşu ifadələri (söz birləşməsi tərkibləri) arasında mahiyyətcə paralellik işarəsi qoyulmuşdur. Bu, o deməkdir ki, qardaş ki, ailə qurduqdan sonra ayrıldı, çağdaş terminlə ifadə etsək, ayrı ev - ayrı təsərrüfat oldu, artıq o səninlə yad qonşu statusuna keçid alır. Əlbəttə, burda "yad qonşu" ifadəsindəki "yad" sözü qohumluq (qardaşlıq) tellərinin üstünə kölgə salmır, yəni "yad" sözü burda doğmalıq-ögeylik qarşıdurmasını ifadə etmir. Bir qarından çıxan qardaş (qarındaş) necə ögey (yad) ola bilər axı? Yox, burdakı "yad" sözü "özgə" sözünü işarələyir – yəni artıq

qardaş ki, ayrıldı, paradiqmatik şəkildə özgə qonşu statusu qazanır. Bəs bu, nə deməkdir? Bu, o deməkdir ki, ayrı binə (ev), təsərrüfat olan qardaş ailəsinin artıq öz ailə problemləri var. Özünün ailə yükü, ailə-arvad-uşaq qayğılarını həll etmək üçün başı öz evinə qarışacaq, daha ondan subaylığındakı kimi qardaşlıq qayğısı - köməyi ummaq olmaz. Artıq bundan sonra hər bir ailə (yad qonşu kimi) öz adı-sanı ilə el arasında tanınıb-hallandırılır. Bax bu anlamda xalq məsəlində "ayrı qardaş-yad qonşu" deyilir, yəni qardaş ki, evlənib ayrıldı, ayrı ev (özgə təsərrüfat) oldu, artıq bundan sonra hər bir ailə (ev) öz adı-sanı ilə camaat arasında tanınmağa başlayır.

Elə məhz evlilik həyatına qədəm qoyduqdan bir müddət sonra ata-ananın evdə-külfət içində ayrılıq aşı bişirib, oğlunu öz evindən ayırması, ayrıca ev-eşik sahibi etməsi məsələsi də həyatın qanunauyğun tələbidir və məhz bu tələbə-prinsipə görə də "Kitabi-Dədə Qorqud" abidəsində Dədə Qorqudun dilindən söylənilir ki, "Gəlinə ayran demədim mən Dədə Qorqud".

Yəni evə gəlin gəlir, sevilə-sevilə, oxşanıb əzizlənə-əzizlənə, şadyanalıqla böyük dəm-dəsgah açılır, şölən qurulur, çal-çağırla, bəh-bəhlə böyük toy məclisi keçirilir. Fikir verirsinizmi, adına "toy mərasimi", özü də böyük toy mərasimi (məclisi) deyilən, toy-bayramla, musiqi, çal-çağırla, deyə-gülə oynayıb-şənlənməklə, "evimizə gəlin gəlir" mahnısını oxumaqla evimizə mübarək qədəmlərini basan bəylə gəlin axırda valideyn yanında qalmayıb, ayrılıq binasını qoyurlar. Yəni ən böyük şadlıq məclisinin - toy mərasiminin nüvəsində dayanan bəylə gəlin də bir müddət sonra atadan-anadan ayrılırlar. Deməк, ayrılıqda bir həzinlik-nisgillik duyğusu var, demək, toy mərasiminin də son nəticədə daxili qatında bir həzin yaşantı - ayrılıq nişanəsi gizlənib. Özü də bu ayrılığa bais olan gəlindir. Amma bu ayrılığın özündə də bir nikbinlik - xoşbəxtlik mahiyyəti dayanır. Əgər insanlar özlərilə müsbət yüklü ionları - xeyirxahlıq yüklərini daşısalar, onda bu ayrılıq da xeyrə-xoşbəxtliyə aparar. Azər-



baycan gəlini mübarək qədəmlərində müsbət yüklü xoşbəxtlik ionları daşıyır...

Ayaqlarında müsbət yüklü xoşbəxtlik ionlarını daşıyan Azərbaycan qadını hansı evə gəlinlik donunda ayaq bassa, o evə-ocağa uğur, şadlıq, sevinc gətirər. Azərbaycan gəlininin gətirdiyi ayrılıq da kədər yox, şadlıq bəxş edir. Ayrılıq harada olsa, orda fəlakət, ev yıxmaq olar, amma Azərbaycan gəlininin nurlu qədəmlərindən başlanacaq ayrılıq yolunda ev yıxmaq yox, ev tikmək var, balanı-oğulu atadan-anadan, qardaş-bacıdan ayırıb, ayrı-seçkilik yaratmağın özündə belə ayrı-seçkiliyin şadlıq çaları görsənməkdədir, bu ayrılıqda müstəqil həyata qədəm qoyma - bütövləşmə, insanın özünü həyatda təsdiq etmə nişanı var. Bax elə ona görə də özü ilə evə - ailəyə ayrılıq gətirən gəlinə Dədəmiz Qorqud "ayıran" (ayran) adını qoymadı ki, bu xına o xınadan deyil, bu ayrılıq digər ayrılıqlardan deyil. Bu ayrılıq həyatın təkamülünü-sıçrayışlı inkişafı təmin edən ayrılıqdır-xoşbəxtlik sindromu gətirən ayrılıqdır. Ona görə də gəlinə "gəlin" - gəlsin dedi Dədə Qorqud ki, hər evə gəlişilə şadlıq gətirsin, xoşbəxtlik sindromu daşıyan ayrılıq gətirsin. Biz də Dədə Qorqudumuzun yanılmadığını təsdiq edərək deyirik ki, gəl ey gəlin, hər evə-ailəyə nurlu qədəmlərinə gəl, ayrılığın kədər əlaməti daşıyan çalarının əksinə olan ayrılıq xoşbəxtliyini hamıya nuş etdir.

Toydan sonrakı mərhələni professor Bəhlul Abdullayev belə səciyyələndirir:

"Toydan sonra üçüncü gün gəlinin duvağı onun başından götürülür və buna el arasında "Duvaqqapma" deyilir. Bəzi yerlərdə bu, gəlinin ər evinə çatanda icra edilir. Ayinin icrasında adətə görə nəlbəkidə şam yanır, üzü üstü çevrilmiş teştin üstünə xalça, döşək salınıb yastıq qoyur və taxt qurulur. Gəlini burada oturdurlar, başına şirni səpirlər. Sonra ata-analı bir oğlan uşağı əlindəki oxlovla onun duvağını götürüb bir barlı ağacın budağından asır. İlk baxışda adi görünən bu adətin rəmzi

anlamsını Y.V.Çəmənzəminli açmışdır. Burada xalı, döşək, taxt gəlinin yaşayış evi, şirni isə dadlı və xoşbəxt həyat rəmzidir. Şamı Zərdüşt işığı ilə əlaqələndirən ədib-alim bakirəlik simvolu olan duvağın barlı ağacın budağına atılması faktını isə gəlinin övlad sahibi olması arzusunu ifadə etdiyini söyləyir və bu adətin "Avesta"dan bəhrələnməsini də qeyd edir.

Duvaqqapma mərasimində oğlanın ata-anası gəlinə mütləq dəyərli bir hədiyyə bağışlayır. Kənd yerlərində isə gəlinə, adətən inək bağışlayırlar. Yalnız bundan sonra gəlin ərinin yaxın qohumlarının hüzuruna çıxa bilər. "El gördü", "Üzəçıxma" da adlanan bu mərasimdən bir neçə gün sonra gəlinin ata-anası kürəkəngili evlərinə qonaq çağırır. Nə qədər qonaq çağırılmayıblar, kürəkən də, hətta öz qızları da onlara gedə bilməz. Bu mərhələ el arasında "ayaqaçma" adlanır. Bununla da iki cavanı bir ailədə birləşdirən toy sona çatır".

Bəli, evlənmək yeni həyata qədəm qoymaq deməkdir, iki gəncin könül birliyi onları bir yerə cəmləşdirir. Cəmləşən gənclər cəmləşmənin - cəmiyyətin ən kiçik strukturunu yaratmaqla cəmiyyəti təmsil edirlər, cəmiyyətin ən kiçik qurumu olan evi-ailəni qurub-yaradır, evlilik həyatı başlayırlar. Bu isə ictimai hadisə olaraq böyük toy mərasimində özünü reallaşdırır.





## AZƏRBAYCAN TOYLARININ BƏZƏYİ

Bayrağımızın bu sırada yeri hələ də boşdur. Xalqımızın gözəl toy adətləri var və zaman keçdikcə bu adətlərin yerini çağdaş adlandırılan, əslində isə keçmişdən yaxşı heç nəyilə fərqlənməyən adətlər tutsa belə, toy hər bir azərbaycanlının həyatındakı önəmini yüzilliklərdir qoruyub saxlayır.

Toy adətlərinin dəyişərək indiki hala gəlməsinə etiraz edənlər çoxdur, ancaq bu etiraz doğuran səbəblər toylara ulduz axınından tutmuş gəlinlik paltarlarına qədər ən müxtəlif məsələləri əhatə etsə də, mənim nəzərimdə bütün bunlardan daha vacib olanı unudulur.

Ailə kiçik bir dövlətdir, bu dövlətin də öz qayda-qanunları var, onlardan biri pozulduğu təqdirdə dövlətin bütövlüyünə də xələl gələ bilər. Ancaq nədənsə bizlər bu kiçik dövlətimizi qurarkən süfrənin üzərindəki yeməklərin çeşidindən diskotekaya qədər ən kiçik ayrıntıları belə diqqətdə saxladığımız halda başımızın üzərində dalğalanan, indi müstəqil yaşamamız üçün canlarından keçən şəhidlərimizin al qırmızı qanına boyanmış ay-ulduzlu bayrağımızı ən xoşbəxt günümüzüdə də başımızın üstündən asmağı unuduruq. Azərbaycan bayrağının ən uca yerdən asıldığı, iki gəncin bu bayraq altında şad gündə də, bəd gündə də bir yerdə olacağına dair and içdiyini söyləmək olarmı?

Bu yaxınlarda bir-birinin ardınca 3 güneyli soydaşımızın toyunda iştirak etdim. Bir-birini bəlkə də, heç tanımayan bu azərbaycanlılardan biri İsveç, digəri Almaniya vətəndaşı idi, həyatlarını quzeyli xanımla birləşdirməklə özləri demiş, Bütöv Azərbaycanın daşının üstünə daha bir daş qoyurdular. Üçüncüsünün heç vətəndaşlığı da yoxdu, Azərbaycanda qaçqın statusu ilə yaşayırdı. Amma hər üçünü əqidələri və bir də

toylarında başlarının üstündən, ən uca yerdən asdıqları Azərbaycan bayrağına olan sevgiləri birləşdirirdi. Toyu da məhz "Azərbaycan" mahnısının sədaları altında bayrağımızı məclis boyu başlarının üzərindən əldən-ələ ötürməklə başladılar. Deməli, həm də vətən sevgilərini, bayrağımıza olan hörmət və məhəbbətlərini bildirmiş oldular. Yaşadılması vacib olan ənənədir, deyilmi? Azərbaycan bayrağı altında qurulan bir ailə bu bayrağın yüksəlib bir daha enməməsi üçün canlarından keçən şəhidlərin ruhunu da şad etmiş olardılar.

Toy məclislərindən dövlət bayrağının asılması kimi bir ənənə Türkiyədə illərdir ki, yaşayır. Ən kiçik, gözdən-könüldən uzaq bir kənddə belə beş-üç nəfərin iştirakı ilə keçirilən toy mərasimində çalğı olmaya da bilər, amma bayraqsız toy mümkün deyil. Bunu hər kəs belə bilir və yaşadılan ənənəyə hörmət, həm də bayraqlarına olan sevgi bu adəti illərdir ki, yaşadır. Biz uzaq kəndlərimizdə dövlət bayrağımızın olub-olmadığı mövzusunu açmaq istəmirik, olsaydı belə, bu bayrağı toy mağarının başından asmağı ağlına gətirən oldumu görəsən? Düşündürən əsas məsələ budur, əgər vətən uğrunda canını verən şəhidlərimizin, vətənin müdafiəsində əlində silah gözünü qırpmadan bütün çətinliklərə sinə gərən oğulların sarılmaq üçün bir bayrağı varsa, niyə görə hər yeni qurulan ailənin, deməli, həm də dünyaya daha bir Azərbaycan türkü gətirəcək ailənin ən şad günündə bayrağımız dalğalanmasın?

Toylarımızda hansı "ulduz"un neçə dəqiqə oxuyacağı, qəlyanaltının çeşidi, gəlinliyin qiyməti, qız və ya oğlan tərəfindən çağrılacaq qonaqlardan kimin hansı masada əyləşdiriləcəyi, toya çəkiləcək xərcin çıxarılıb-çıxarılmayacağı, şadlıq evinə borclu qalacaqları təqdirdə vəziyyətdən çıxış yolu axtarmaq və s. bu kimi məsələlər başımızı o qədər qatır ki, bu sırada Azərbaycan bayrağının yerinin illərdir ki, boş olduğunun fərqinə belə varmamışıq. Bəlkə bayrağımız altında qurulacaq



ailənin bu bayrağın üzərindəki şəhid qanına layiq ola bilməyəcəyi bizi qorxudur?

Telekanallarda şadlıq evlərinin reklamları baş alıb gedir. Hər biri yeməklərinin çeşidi, keyfiyyəti, Avropa və milli mətbəx, gəlin maşınının toy zalına girməsi, bəylə-gəlinə veriləcək hədiyyələr, daha nələrlə rəqabətə girən, reklamına bir ətək pul xərcləyən bu şadlıq evlərinin bir Azərbaycan bayrağı alıb toy zalında asmaq kimi kiçik bir xərci belə özünə çox görür. Həm də təkcə xərci üçün yox. Bunu eləmək üçün milli hiss olmalıdır ki, başı pul qazanmağa qarışanların demək olar ki, heç biri bunu düşünmür. İştirakçısı olduğum toylardan birində bayrağımızın asılmasına təəccüblənənlər arasında şadlıq evinin müdiri də vardı və o, "toy xaricilərindir" deyib qapıdan girən hər kəsə Azərbaycan bayrağının toyda asılmasının "anlamsını" anladırdı. Azərbaycanın bütövlüyü uğrunda mübarizədə hər şeyindən keçən, toy məclisinin başında ata-anasının, heç bir yaxınının oturmaq imkanında olmadığı soydaşımızı "xarici" adlandırandan bundan artıq nə gözləmək olar ki?

Bayrağımız hər şeyimizdir, hər bir azərbaycanlı dünyanın harasında yaşamasından, hansı ölkənin vətəndaşı olmasından asılı olmayaraq ay-ulduzlu, üçrəngli bayrağımızın kölgəsi altında olmağı özünə şərəf bilməlidir. Bayrağımıza həqarət edən əcnəbiləri müdafiə etmək üçün çeşidli bəhanələr tapıldığı bir zamanda toy məclisində bu bayrağın asılmasını ənənəyə çevirmək bəlkə qəflət yuxusunda olanları ayıldıb bayrağımıza hörmət etməyi öyrənməyi, başlarından da bu hörməti tələb etməyə haqqımız olduğunu dərk etməyimizə yardımçı olar. Milli oyanış hələ başa çatmayıb, buna hələ çoxlarımızın ehtiyacı var, kütlədən millətə çevrilməmizdə yolumuzu aydınladan bayrağımızın hər evdə olması üçün öncə bayrağımızı sevməli, ona layiq olduğu dəyəri verməliyik. Ailənin ən şad günündə başımızın üstündə Azərbaycan bayrağının dalğalanması da bu sevginin və dəyərin ifadəsi olar.

Arzu ŞİRİNOVA

## ÖZÜMÜZƏ QAYITMALIYIQ

Doğrudan da bir xalq olaraq bizim hər iki mərasimlərimizdə o qədər nöqsanlı cəhətlər var ki, bunun da təbii ki, özümüz zaman-zaman bu səviyyəyə gəlib çıxmasına rəvac vermişik. Birinci başlayaq, toy mərasimlərimizdən. İki gənc bir-birini sevir və ailə qurmağa hazırlaşırlar. Əgər hər ikisi kasıb ailənin övladlarıdırsa, vay həmin ailələrin gününə. Bütün yaşıdları kimi bu gənclər də istəyəcək ki, onlar üçün təmtəraqlı nişan məclisi qurulsun, toyun vaxtı uzadılırsa o zaman bütün bayramlarda gəlini təbrik etmək üçün xüsusi bazarlıq olunsun. Bu zaman gəlinə bahalı hədiyyə ilə yanaşı, şirniyyat şeyləri və mer-meyvə də aparılsın. Bir il ərzində bütün bayramlarda eyni prosesi təkrarlayıb kifayət qədər xərcə düşən oğlan evi ilə yanaşı, qız evi də əziyyətə qatlaşmalı olur. Yəni hər dəfə oğlan evi gələndə süfrə açılmalı və süfrəyə müxtəlif cür nemətlər düzülməlidir. İndiki bahaçılıq dövründə bunun nə demək olduğu və 10-12 nəfər üçün orta səviyyəli süfrə açılmasının hansı xərclər bahasına başa gəldiyi kimsəyə sirr deyil. Bəli, bütün bu xərcləri çəkmək zorunda qalan ( bu zaman "qonşudan geri qalma" anlamsız yanaşma əsas götürülür-A.Ş.) hər iki ailə toy tədarükünə hazırlaşır. Başlayaq qız evindən. Birinci növbədə verəcəkləri cehiz qız ata-anasını düşünməyə vadar edir. Qaşığından tutmuş, mebelinə qədər vermək məcburiyyətində qalan valideynlər bütün ləvazimatlara görə ən azı 8-9 min manat civarında pul xərcləməlidirlər. Hələ üstəlik bəyi başdan ayağa geyindirmək və ona nişan üzüyünü də alsan, bu rəqəm bir qədər də qalxacaq. Oğlan evinin də xərcləyəcəyi məbləğ heç də qız evindən geri qalmır. Qız üçün toy münasibətilə olunan bazarlıq və üstəlik alınan ziynət



əşyalarını, eləcə də gəlinin bər-bəzək məsələlərini də qeyd etsək, o zaman məbləğin kifayət qədər yüksək olduğunu görərik. Toy mərasiminə gəldikdə isə, bu zaman çəkilən xərclərə diqqət yetirdikdə anormal bir mənzərənin şahidi olursan. Yenə də "qonşudan geri qalmamaq" prinsipini önə çəkən toy sahibləri süfrənin üzərinə o qədər təamlar düzülməsi üçün xərc çəkir ki, adam hərdən fikirləşir-bu insanlar, daha doğrusu qohum-əqraba və dost-tanış ailə həyatı quranların sevincinə şərik olub, onları təbrik etməyə, könül dolusu əylənməyə gəliblər, yoxsa, yeməyə? Bu bir həqiqətdir ki, toy mərasimində çəkilən xərcin tən yarısı hədər gedir. Yəni süfrəyə düzülən nemətlərin hamısını yemək qeyri-mümkündür. Beləcə, toyu başa vuran qudalar çəkdikləri xərcə görə bir müddət kimlərəsə borc qaytarmalı olurlar. Məgər xoşbəxtlik kimin çox pul xərcləməsindədirmi? Təbii ki, yox. Xoşbəxtlik elə bir nemətdir ki, onu milyonlar xərcləyib qazanmaq mümkün deyil. Ona görə də sevən gənclər bu cür qondarma adətlərə əməl etməkdənsə öz həyatlarını qurmalıdırlar.

***

Yas mərasimlərindən isə danışmağa dəyməz. Çünki əzizini itirən şəxs bilmir dərdi ilə baş-başa qalsın, yoxsa gələn qonaqları yedizdirib yola salmaqla məşğul olsun. Biz dünyasını dəyişənin dəfn mərasiminə çəkilən xərci bir kənara qoyub, digər bir məqama toxunmaq istəyirik. Belə ki, bir millət vəkilinin dediyi kimi, yas mərasimlərində süfrəyə təkcə çayla içmək üçün o qədər təamlar düzülür ki, mərasimə gələnlər bir anlığa özlərini yasda yox, hansısa bir şənlikdə hiss edirlər. Qeyd edək ki, yas mərasiminin yükü toy mərasiminin yükündən qat-qat çoxdur. Bu zaman təkcə maddi problem nəzərə alınmamalıdır. Həm də psixoloji bir durum var ki, həmin durumun yükünü əzizini itirən şəxs təkcə çəkməli olur. Nədir bu durum? Gələn qonaqların gedib sonradan "filankəsin

məclisi kasad idi" sözünü eşitməmək üçün yas sahibi çalışır ki, "qonşudan geri qalmamaq" prinsipinə əməl etsin. Bu prinsipə əməl edə bilməyən isə mənəvi cəhətdən sıxılır və sarsıntı keçirir.

Bir neçə gün əvvəl yas mərasimində gördüklərim bunlara bariz nümunədir. Dünyasını dəyişən ailə başçısının 80-ə yaxın yaşı vardı. Özü də, həyat yoldaşı da təqaüdlə dolanırdılar. Onlarla birgə isə ailə qurmamış qız və oğul övladları yaşayırdı. Düzdür, qızları ali təhsilli olsa da, aldığı məvacib güclə özünü təmin edirdi. Oğlanları isə maşın qəzası nəticəsində bir ayağını itirmiş və əlil olmuşdu. Ona da verilən təqaüd yalnız dava-dərmana xərclənirdi. Ailənin real durumu ortada olduğu halda ailə qurmuş digər övladlarının köməkliyi sayəsində çalışmışdılar ki, özlərinin dediyi kimi atalarının yasında "layiqli" süfrə açsınlar. Süfrənin üzərində meyvədən başqa yas üçün nəzərdə tutulan nə desən artıqlaması ilə vardı. Yanımda əyləşən bir xanım digərinə sual edərək "nə əcəb meyvə vermirlər?" soruşanda cavab belə oldu: "Eşitməmisən, deyirlər ki, Milli Məclisdə qanun qəbul edəcəklər. Həmin qanunla da yaslarda meyvə verilməsi yığışdırılacaq. Bunlar da yəqin, eşidiblər, ona görə də süfrəyə meyvə qoymayıblar. Bir də ki, kasıb adamlardı, haradandı onlarda o qədər pul?" Sual verən qadın sanki bu sözü gözləyirmiş kimi dilləndi: "Kasıb olanda nə olar? Birin demirəm, qalan iki oğlu gərək atalarının yasını elə verəydilər ki, heç bir kəm-kəsiri qalmazdı. El var, oba var". Bəli, bu acı reallıqdır ki, bununla hər gün hər birimiz rastlaşırıq. Ancaq nə yazıqlar ki, bunların qarşısını almaq mümkünsüzdür. Bizim subyektiv fikrimizcə, bu yöndə hər hansı bir qanunun qəbulu müsbət nəticə verməyəcək. Çünki bizim həm toy, həm də yas mərasimlərindəki adət-ənənələrimiz milli ənənələrlə daban-dabana ziddiyyət təşkil edir. Deyə bilərsiniz ki, bizlər yabançı nələrisə tez qəbul etsək də, bundan yaxa qurtarmağımız müşkülə çevrilir. Ancaq bu belə deyil. Heç bir müsəlman ölkəsində yas mərasimləri bizdəki kimi əndazəni aşmır. Yəni elə bil ki, yasa deyil, yeyib-içməyə gəlmisən. Və heç bir müsəlman ölkəsində yas mərasimində bizdəki kimi qadınlar ağlayıb, şax-sey-vaxsey getdikləri yerdə kişilərə yemək süfrəsi açılmır. İstər müsəlman, istərsə də Avropa və Qərb ölkələrində bizdəki kimi toy mərasimlərində israfçılığa yol verilmir. Deməli, biz birinci növbədə adət-ənənələrimizə vurduğumuz "yamaqları" söküb atmalıyıq və özümüzə qayıtmalıyıq.

Aydın XAN (ƏBİLLİ),
*Yeni Yazarlar və Sənətçilər Qurumunun sədri, yazıçı-kulturoloq*

## DOĞRU DÜŞÜNCƏ, DOĞRU SÖZ, DOĞRU ƏMƏL
## *YÜZİLLİKLƏRİN-NƏSİLLƏRİN BAYRAMI NOVRUZ: QLOBAL KULTUROLOJİ DƏYƏRİMİZ*

Azərbaycan dövlətinin səyi nəticəsində ötən il YUNESKO-nun xüsusi qərarına əsasən Novruz bayramı bəşəriyyətin qeyri-maddi sərvətlər siyahısına daxil edildi. Məhz qlobal miqyasda atılan bu ciddi addımdan sonra dünya tərəfindən milli sivilizasiyamızın bu ayrılmaz atributuna maraq get-gedə artır.

Bəs biz necə, qonşu xalqların da şərik çıxmaq istədiyi bu mükəmməl kulturoloji dəyərimizi kifayət qədər tanıyırıqmı, dünyada təbliğ edirikmi? İndiki yeni nəsil və gələcək övladlarımız milli-etnik mədəniyyət – sivilizasiya kodlarımızı özündə gizlədən bu mürəkkəb dəyərlər sisteminin mahiyyətini lazımınca anlaya, öyrənə bilərlərmi? Zənnimizcə, etnoqraflardan tutmuş, folklorşünas və kulturoloqlara qədər əksər yaradıcı-intellektual düşüncə adamları bu aktual məsələdə özünün bilgilərini ortaya qoymalıdırlar.

Bu baxımdan düşünürük ki, hazırladığımız material ictimai-mədəni maarifçilik anlamda da qəbul oluna bilər, əksinə, məsələ ilə bağlı yeni polemikalara geniş imkan yaradacaq.

### *Novruzun ulu tarixi*

Mart ayı girər-girməz Azərbaycanda və qonşu ölkələrin əksəriyyətində qədim Şərq bayramına - Novruz adlanan yeni ili qarşılama mərasiminə ciddi hazırlıqlar başlanır. Novruz xalqımızın ən qədim bayramlarından sayılır və bizim milli-etnik həyat tərzimiz, məişətimiz, adət-ənənələr və



inanclarımızın kökləri, ulu qaynaqları ilə bağlıdır. Doğrudur, bir sıra insanlar Novruz bayramının yaranmasını tarixi-dini proseslərin məntiqi ardıcıllığı ilə əlaqələndirməyə çalışırlar. Bu mövqedə olanların baxışları mübahisəli olsa da, hər halda, yanlış sayıla bilməz, elmi axtarışlar, polemik müqayisələr vasitəsilə dəqiqləşdirmələrə ehtiyacı var.

Novruz bayramının yaranması, ayrı-ayrı görüş və etiqadlarla əlaqəsi, onun Zərdüştlük - Avesta, yaxud İslam - müsəlman mədəniyyəti qaynaqları ilə bağlılığı yüzilliklər boyu tarixçi alimləri, etnoqrafları, folklorşünasları, hətta ədəbiyyatçıları, filoloqları düşündürmüş, indilərdə isə kulturoloqlar arasında böyük mübahisələrə səbəb olmuşdur. Fikrimizcə, Azərbaycan xalqının təşəkkül tapdığı vaxtlardan etibarən yaranmağa başlamış, özündə bu dövrə qədər və sonra formalaşmış əksər dünyagörüşləri birləşdirmiş, bu günə gəlib çatmış və millətimiz yaşadıqca böyük sevinclə qarşılanacaq Novruz bayramı Şərq əhəmiyyətli, lakin milli-etnik hadisə kimi qəbul olunmalıdır. Milli sivilizasiya və mədəniyyət tariximizin ayrılmaz hissəsi olaraq götürülməsi daha düzgün yanaşma sayılan bu bayram etnik-kulturoloji düşüncəmizdə, ictimai-mədəni həyatımızda, mədəniyyətimizdə, mənəviyyatımızda, fəlsəfi-estetik fikrimizdə, ən əsası isə toplumumuzun yaşam tərzində oturuşmuş dəyərlər toplusudur.

Sərhədləri, yüzillikləri, nəsilləri aşaraq millətlərin və xalqların dünyəvi bayramına çevirdikcə, əksər Şərq toplumlarının nümayəndələri Novruzu öz məişəti, mədəniyyəti, adət-ənənələri ilə bağlamağa çalışmışdır. Məhz buna görə də bu ümumi bayram barədə Şərq dünyasında müxtəlif mülahizələr, adət-ənənələr, mərasimlər, əfsanələr, rəvayətlər yaranmışdır. Türksoylu və farsdilli xalqlar Novruza özlərinin milli-bədii ornamentlərini qatmış, onu özünəməxsus ümumxalq şənliyinə çevirmişlər.

«Novruz» sözü qədim «Avesta» dilində «təzə gün», «yeni ruzi» deməkdir. Bu anlamda Novruz bayramının ruzi, məhsul, nemət ilə bağlılığına şübhə ola bilməz. Şərq xalqları, xüsusən də azərbaycanlılar Novruzu yeni ilin başlanğıcı hesab edərək, onu bolluq, bərəkət və firavanlığın əzəli kimi rəmzləşdiriblər.

İnsanlar hər il mart ayının ikinci yarısında bu gözəl bayramı baharın gəlişi kimi təmtəraqla qarşılayıblar və indi də bu ənənə davam etdirilir. Təbiətin oyanması, fəsillərin yerdəyişməsi, torpağın oyanması, insanların canlanması, günlərin bərabərləşməsi kimi bir çox planetar və kosmik hadisələrin obrazlı ifadəsi kimi də şənlik formasına salınan bu bayram insan cəmiyyətinin sivilləşməsinə sanki böyük bir işarədir. Yüzilliklər boyu nəsillər tərəfindən unudulmayan, heç vaxt köhnəlməyən, yaddaşlarda yaşaya-yaşaya, bu günümüzə qədər gələrək yetərincə cilalanmış və daha da gözəlləşmiş Novruz qədimlərdən üzübəri ulu əcdadlarımızın ən əsas əski bayramlarından sayılmış, insana həyat verən dörd ünsürün - Suyun, Odun, Yelin (Havanın), Torpağın isinməsi, «dirilməsi» istəyi ilə bağlıdır.

Xalqımızın ən əski inamlarına görə, elə-obaya fayda verməyən hər bir şey «ölü» hesab olunurdu. Qışda torpağın nemətlərdən məhrum olması - məhsul verməsini «dayandırması», onun «donması» insanın ən zəruri tələbatından əlindən çıxması kimi başa düşülürdü. Yay-payız mövsümündə əldə edilən azuqə ehtiyatı tükəndikcə, qədim insanda torpağı oyatmaq, əkib-becərmək istəyi artırdı. Ana torpaq «dirilmirdi», oyanmırdı. Tarlaların, bağ-bağçaların, yerin oyanmasından ötrü isə su, hərarət (istilik, od, Günəş) və yel (hava) gərək idi. Məhz bu arzu-istək ilə bağlı xalqımız lap qədimdən həmin dörd ünsürlə əlaqədar özünün zəngin adət-ənənə, etiqad və ayinlərini yaratmışdır. Təzə ilin başlanmasına dörd həftə qalmış ellikcə bu ayin və etiqadların icra olunmasına qol qoyulurdu...



### *İlaxır çərşənbələr*

Novruza qədərki hər bir çərşənbə təbiətin bir ünsürü ilə əlaqələndirilirdi. Əcdadlarımızın ilkin təsəvvürlərində ilaxır çərşənbələr və ya ilin axır çərşənbələri anlayışları yaranıb müqəddəsləşmişdir. Qədim inamlara görə, hər birində təbiətin dörd ünsüründən biri «dirilmiş» bu çərşənbələrlə bağlı xalq böyük el şənliyi və mərasimlər düzəldirdi. Günü bu gün də həmin təmtəraqlı mərasimlər ünumxalq şənliyi kimi qeyd olunur. Ayrı-ayrılıqda «Su çərşənbəsi», «Od çərşənbəsi», «Yel çərşənbəsi» və «Torpaq çərşənbəsi» adlandırılan «İlaxır çərşənbələr» insanları məhsul bolluğu yaratmağa, birlik və firavanlığa, halallığa, dostluğun, qardaşlığın sarsılmaz gücünün qüdrətinə inanmağa çağırırdı.

İlaxır çərşənbələrdə yüzilliklər ötdükcə insanın birgəyaşayışı və xoşbəxtliyi üçün xüsusi, son dərəcə əsas olan dünyagörüşlər yaradılırdı. Bu dünyagörüşlər isə adamları çox pis və zərərli niyyətlərdən, şər əməllərdən - oğurluqdan, riyakarlıqdan, əxlaqsızlıqdan, təkəbbürlülükdən, paxıllıqdan, başqasının var-dövlətinə göz dikməkdən çəkindirir, onları halal zəhmətə çağırır, insanlarda əməyə, torpağa dərin məhəbbət aşılayırdı. Novruz ayin və etiqadlarında ədalətə, mərhəmətə, rəhmə, sevgiyə böyük ehtiram var. İlaxır çərşənbələrin hər birində əzizlənən müqəddəs ünsürlərin il boyu insanın köməyinə gəldiyi barədə inam bu gün də qalır. Bu çərşənbələrin hər biri əcdadlarımızın əziz etiqadları, duyğuları ilə bağlıdır: onları öz dünənimiz, keçmişimiz kimi bilməyə, əməl etməyə hamımız borcluyuq.

Etnoqrafik qeydlərə nəzər salanda, ilaxır çərşənbələr barədə maraqlı məlumatlarla rastlaşırıq. Onların bəziləri ilə yaxından tanışlıq maraqlı nəticələr əldə etməyə imkan yaradır.

### *Su çərşənbəsi*

Boz ayın dörd müqəddəs çərşənbəsinin birincisi «Əzəl çərşənbə» kimi tanınırdı. Xalq arasında ona təzə «doğulan», yeni gələn, «Əvvəl çərşənbə», «Su çərşənbəsi», «Gül çərşənbəsi» də deyirlər. Qədim inamlara görə, əzəl çərşənbədə təzə ilin gəlişi münasibətilə ən əvvəl su təzələnir. Elə buna görə də bu çərşənbə su ilə, suyun təmizlənməsi ilə əlaqələndirilir. Əzəl çərşənbə suya tapınma inamı ilə başladığına görə, bütün insanlar hələ gün doğmamışdan çay, arx, bulaq, yaxud çeşmə üstünə getməli, axar suda əl-üzünü yumalı, bir-birinin üzünə su çiləməli, su üstündə atlanmalı, yaralıların, xəstələrin üstünə su səpməlidirlər ki, il boyu sağlam olsunlar. Çünki əzəl çərşənbənin sübh tezdən köpüklənən ağ suyu bütün dərdlərin dərmanı hesab olunur. Bu vaxt buğdadan səməni qoymaq da vacib sayılır.

Su falı: Su çərşənbəsində sübh tezdən gedib axar sudan - bulaqdan, çaydan, arxdan «lal su» gətirirlər: suyu evə gətirənə qədər heç kimlə bircə kəlmə də kəsmək olmaz. Onu bir neçə piyaləyə töküb saxlayırlar. Axşam qızlar yığışırlar, hərə öz bahtına üzüyünü saçına sürtüb həmin piyalədəki suya salırlar. Üzük piyalənin divarına toxunub cingildəyir. Üzük neçə dəfə cingildədisə, deməli, onun sahibi olan qız həmin sayda ildən sonra gəlin köçəcək…

### *Od çərşənbəsi*

İlaxır çərşənbələrdən ikincisi olan bu çərşənbəyə bəzən «Üsgü çərşənbə», «Üsgü axşamı», yaxud da əzizləmə anlamsında «Addı çərşənbə» də deyilir. Od çərşənbəsi əski inamlara bağlı olub günəşə, atəşə, odu qoruyub saxlamaq inamına tapınma ilə əlaqədar yaranıb. Zərdüştlükdən çox-çox



əvvəllər də insanlar inanırdılar ki, odu, günəşi əzizləsələr, oxşasalar, təbiət tez isinər, adamlara xoşbəxtlik gətirər.

Bu çərşənbədə oda sitayiş edilir, onun şərəfinə şənliklər təşkil olunurdu. Yazın istisini arzulayan ulu babalarımız od çərşənbəsində sübh tezdən Günəşə qurban aparardılar. Böyük bir tonqal qalayıb günəşin çıxmasını gözləyər, odun şərəfinə nəğmələr söyləyərdilər. Səhər gün doğanda qurbanın - kəhər atın başını kəsərdilər ki, adamlara, elə-obaya xoşbəxtlik, səadət gəlsin.

*İnanclardan nümunələr: Ocaq yananda səslənirsə, demək, kimsə sənin sözünü danışır...*

*Ocağa yanaşanda salam ver, baş əy...*

*Ocağın tüstüsü üstünə gəlsə sevgilin gözəl olar...*

*Gün doğanda anadan olan uşaq göyçək, ya da pəhləvan olar...*

*Çıraq yandıranın çırağı sönməz olar....*

### *Yel çərşənbəsi*

El içində Yel çərşənbəsini «küləyi oyadan», «yelli», «Heydər» çərşənbəsi də adlandırırlar. Etiqada görə, bu çərşənbədə oyanan yel və külək ərzi gəzir, oyanmış suyu, odu hərəkətə gətirir. Yel çərşənbəsində əsən isti və soyuq küləklər yazın gəlişindən xəbər verir. Gün ərzində bir neçə dəfə dəyişən külək yelin özünün təzələnməsi kimi qəbul edilir. O, lazım gələndə, insanları əzizləyir, onlara kömək edir, qəzəbləndə isə adamları cəzalandırır. Odur ki, külək və yelin şərəfinə üçüncü çərşənbədə böyük mərasim keçirirlər.

Şifahi xalq ədəbiyyatında bu ilaxır çərşənbəylə bağlı çoxsaylı poeziya nümunələrinə rast gəlirik. Məsələn:

*Yel əsər, toz qoparar,*
*Ağacdan qoz qoparar.*
*Yellə gələn bəlanı,*
*Yel özü də aparar...*

### *Torpaq çərşənbəsi*

Novruz bayramı ərəfəsindəki çərşənbələrin sonuncusu hesab olunur və xalq arasında «İlaxır çərşənbəsi», «Yer çərşənbəsi», «Torpaq çərşənbəsi», «Çərşənbə-suri» kimi də tanınır. Bu çərşənbədə yer oyanır, torpaqda su, istilik və hava normallaşır, beləliklə, yaz əkininə artıq başlamaq olar.

Axır çərşənbə ilaxır çərşənbələrin mərasim, ayin, etiqad, oyun və şənliklər ən zəngin olanıdır. Bu vaxt əvvəlki çərşənbələrdə icra olunan bütün ayin və mərasimlər daha şən, böyük xalq şənlikləri kimi təkrar qeyd edilirlər. Mərasim sübh tezdən suya tapınma ayini ilə başlayır. İnsanlar su kənarına gedir, su üstünə atlanır, dərdini, arzusunu axar suya deyir və ondan imdad diləyirlər. Bütün günü davam edən mərasim axşam şənlikləri ilə daha da gurlaşır. Bu axşam üzərlik yandırılır, tonqallar alovlanır, tonqallar üstündən tullanır, bacalardan torbalar sallanır, qurşaq atılır, qulaq falları qurulur. Subaylar qonşu evlərin qapısının arxasında gizlənərək ilk eşitdikləri sözlərə uyğun təzə ildə onları gözləyən hadisələri öncədən bilməyə çalışırlar.

Bəzi bölgələrdə axır çərşənbədə süfrəyə ət və toyuq əvəzinə ancaq balıq verirlər. Bütün ilaxır çərşənbələrdə əsasən yeniyetmə və gənclərdən ibarət xüsusi musiqiçilər dəstəsi axşam qaranlıq düşəndən sonra ev-ev, oba-oba gəzir, çalıb-oxuyurlar. Bir çox hallarda oğlan uşağına qadın paltarı geyindirir, keçəl və kosayla birgə evləri gəzərək çalıb-oynayır, insanların əhval-ruhiyyələrini yüksəldirdilər. Bəxşiş, hədiyyə yığmaq, qurşaq atmaq indi də dəbdən düşməyib...



Səməni halvası: Axır çərşənbədə birinci çərşənbədə qoyulan buğdadan göyərmiş səməni təknədə döyülür, suyu çıxarılır və ondan səməni həlimi ilə səməni halvası bişirilir. Bir çox yerlərdə səməni həlimi çərşənbə günü yeddi qapıya paylanılır. Səməni suyundan bişirilən bayram halvası isə çox dadlı və xeyirli hesab edilir. Bunların hər ikisi axır çərşənbənin ən ləziz təamları sayılır...

### *Əsas bayram mərasimi*

Şərq, yəni Hicri-Şəmsi təqvimində yeni ilin başlandığı gün yazda – gecə ilə gündüzün bərabər olduğu günə düşür. Bayram Hicri-Şəmsi təqvimi ilə fərvərdin ayının ilk gününə, indi ölkəmizdə qəbul edilən çağdaş təqvimə görə martın 20-22, nadir hallarda isə martın 23-ə təsadüf edir. İnsanlar bayrama çox ciddi şəkildə hazırlaşırlar. Yaşayış yerləri, həyət-baca, küçələr silinib-süpürülür, yeni geyim-paltar alınır, bayram şirniyyatı bişirilir, qovğa qovulur. Bayram günlərində dünyasını dəyişmiş qohum-əqrəbaların qəbirləri üstünə gedib ruhları yad edilir, məzarlarının başında "Yasin" oxutdurulur. Küsənlər barışır, qohum-qonşu bir-birilərinin evlərinə getməklə əlaqələrini daha da möhkəmləndirirlər. Xüsusilə xəstələr və qocalara diqqət, uşaqlara qayğı artırılır.

Bayram axşamı ailənin bütün üzvləri bir süfrə başına toplaşmalıdır. Süfrədəki insanların sayına görə şam yandırılır və bu zaman hər kəs ürəyində niyyət tutur. Şamı söndürmək günah hesab olunur. Ərinmiş şamın qalıqlarına əsasən niyyət yozulur. Bayramın səhəri sübh tezdən kişi ilə rastlaşmaq yaxşı əlamət sayılır. Əgər rastlaşdığın kişi «yüz il yaşa» desə, deməli, qarşıdakı ildə işlər lap yaxşı gedəcək.

Qohumluq əlaqələri təzəcə yaradılıbsa, oğlan tərəfi qız evinə Novruz xonçası və qurbanlıq qoç aparmalıdır. Bizim

günlərdə bayram adət-ənənələrinə bir qədər fərqli riayət olunsa da, əsasən dəyişməz qalıb. Bölgələrimizdə kiçik fərqləri çıxmaq şərtilə Novruz bayramına baxış demək olar ki, eynidir.

Bayramın əsas simvolları bunlardır: səməni, rəngə salınmış yumurta, müxtəlif şirniyyatlar, tonqallar, kosa və keçəl, qurşaq atmaq tonqal, meydan oyunları, qovğa və b. Bəzi illərdə Novruz günləri şiə müsəlmanlarının Məhərrəmlik ayındakı Aşura matəm mərasiminə təsadüf etdikdə, keçirilən bayram tədbirlərində müəyyən dəyişikliklər edilir.

Tonqal başında: Şər qarışanda hər həyətdə, yaxud məhəllədə tonqallar yandırılır və tonqal başına toplaşanların hamısı növbə ilə üç dəfə alovun üstündən tullanırlar. Bəzi bölgələrimizdə bayram tonqallarının sayı bir, bəzilərində üç, bir çoxlarında isə yeddiyə çatır. Böyüklər ailənin yaşca kiçik üzvlərini qucaqlarına alıb tonqalın üstündə tullanır, "Köhnə ildəki dərdim-azarım odda yansın!" – deyərək dua edirlər. Bu, bütün azar-bezardan, bədbəxtliklərdən, fəlakətlərdən xilas olmaq, özlərini və yaxın adamlarını ərzində yol verilmiş günahlardan qurtulmaq niyyəti ilə edilir...

### *Yekun mülahizələr*

YUNESKO-nun "Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında Konvensiya"nın tələblərinə uyğun olaraq, bəşəriyyətin xüsusi siyahısına salınmış, qorunan, daha çox elitar və peşəkar bir incəsənət sahəsi sayılan muğamlarımızdan savayı, Azərbaycan milli-mənəvi dəyərlər sistemində Aşıq sənəti, Novruz Bayramı, xalçaçılıq, milli mətbəx və b. yüksək mədəni irs texnologiyalarımız var ki, onları qloballaşma çağının beynəlxalq dəyərlərinə çevirməyin vaxtı yetişib. Bütün bu imkanlardan lazımınca yararlanaraq kulturoloji millitəsdiq vasitəsi kimi onları dünyada təbliğ etmək, tanıtmaq imkanımız



var. Artıq neçə ildir ki, dövlətimiz tərəfindən yüksək səviyyədə qeyd olunan Bahar bayramının – Novruzun beynəlxalq aləmdə böyük kulturoloji-turistik əks-sədası eşidilməkdədir. Statistik göstəricilərə görə, Novruz bayramı günləri ərəfəsində ölkəmizə əcnəbi turistlərin kütləvi gəlişi müşahidə olunur.

XXI yüzillikdə isə Novruzu qlobal dünya bayramına çevirməyin vaxtı çoxdan çatıb: nə qədər ki, qonşu dövlətlər onu "özəlləşdirməyib"lər, bu məsələdə Azərbaycandan qabağa düşməyiblər...

*dr.* İlhamə MƏMMƏDOVA

## AZƏRBAYCANDA BAYRAM MƏRASİMLƏRİ İLƏ BAĞLI QARŞILIQLI YARDIM FORMALARI

Azərbaycan xalqı özünün çoxyüzillik tarixi boyu yaratdığı, zaman-zaman inkişaf etdirərək təkmilləşdirdiyi və zəmanəmizədək gətirib çıxardığı zəngin milli-mənəvi, maddi irsə sahiblik etməkdədir. Azərbaycanlıların milli-mənəvi dəyərlər sisteminin tərkib hissəsi olan qarşılıqlı yardım formaları və ya el köməyi adətləri uzun bir tarixi təkamül yolu keçmiş, etnik-psixoloji, mənəvi-əxlaqi və tərbiyəvi xüsusiyyətləri özündə əks etdirmişdir. Qarşılıqlı yardım formaları istər maddi, istərsə də fiziki və mənəvi baxımdan ehtiyacı olan insanlara, ailələrə el-obanın birgə təmənnasız yardımının ifadəsi demək idi.

Azərbaycanlıların ailə məişətində qərar tutan qarşılıqlı yardım formaları istənilən hallarda – mövsüm və məişət mərasimlərində özünü büruzə verirdi. Mövsüm mərasimlərinə bahar bayramları, məhsul bayramı və s. daxildir. İnsanlar arasında ən çox sevilən, canlılıq, dirilik əlamətlərini əxz edən bahar fəslinin gəlişini xalqımız öz etnik xüsusiyyətlərinə münasib qeyd etmiş, müxtəlif mərasimlər düzənləmişdir.

Baharın gəlişi ilə əlaqədar mərasimlərdən biri Xıdır Nəbi və ya Xıdır İlyas bayramıdır. İslamdan öncəki dövrlərə aid olunan, baharın səslənməsini ifadə edən bu bayram qış fəslinin son ayına təsadüf edərək, kiçik çillə çıxdıqdan sonra fevral ayının 9-10-da keçirilirdi.

Xıdır Nəbi bayramına hər bir ailə hələ kiçik çillənin girdiyi gündən xüsusi olaraq hazırlaşırdı. Müqəddəs hadisəyə çevrilən mərasimdə hamı mütləq «Xıdır Nəbi süfrəsi»ni açmalı idi. Bu məqsədlə də imkanlı şəxslər yoxsul ailələrə əl tutur, maddi kömək göstərirdi. Əgər hər hansı bir kənddə, məhəllədə kimsə



bayrama hazır deyildisə, süfrə açmırdısa, həmin il o yer üçün uğursuz başlaya bilərdi. Xıdır Peyğəmbərin adı ilə bağlı olan bu bayramı yaxşı qarşılamamaq xalq arasında qəbul olunmur, «Xıdıra hörmətsizlik» sayılırdı. Sonuncu hal üçün deyilirdi: «Xıdır batar palçığa». Xıdır Nəbi mərasimi sərvət və mülkiyyətin bərabərliyini təqdir edirdi. Bu səbəbdən də bayramda çalışırdılar ki, varlı və kasıb süfrələri arasında fərq aradan qaldırılsın.

Bayrama tədarük məqsədilə evdə üyüdülmüş buğda saxlanılırdı. İnanca görə, əgər Xıdır Nəbi una əl basardısa, həmin şəxsin niyyəti qəbul olunacaqdı. Bayram günü un, süd və şəkərlə bişirilir, bəzi bölgələrdə isə xəşil hazırlanıb fəqir və yoxsullara, qohum-qonşuya verilirdi. Adətə görə, bayram günü yeddi növ taxıldan hədik bişirilərək kasalarda ən azı yeddi qapıya paylanmalı idi. Həmin gün müqəddəs yerlərdə qovut paylamaq da savab bilinirdi. Deyirdilər ki, kimin nəziri qəbul olunubsa, çərşənbə gecəsi Xıdır Nəbi gəlib o qovutdan bir az yeyər, ya da barmaqlarını üstünə basıb gedərmiş (1, 21).

Bayram günü qaş qaraldıqdan sonra bayram payı istəyənlər evlərin qapısını döyürdülər. Belə təsəvvür olunurdu ki, Xıdır Nəbi onların içərisindədir, onlardan biridir. Buna görə də, bayram payı səxavətlə verilirdi. Xıdır Nəbi insanların təxəyyülündə əlində çomaq qapı-qapı gəzərək ruzisi az olanlara kömək edən, bərəkət gətirən peygəmbər olaraq hifz olunmuşdur. «Kitabi-Dədə Qorqud» dastanında da Xıdır Nəbi insanlara yardım göstərən, yolçuların, dilənçilərin himayədarı kimi tərənnüm olunmuşdur (5, 137). Xalq məişətinin bütün sahələrini əks etdirən folklorumuzda əliaçıqlıq, səmimiyyət, həmçinin yaşıllıq rəmzinə çevrilən Xıdır Nəbi bayramına hyüzillik olunmuş nümunələrdə xeyirxah yardım keyfiyyətlərinin aşılanmasına geniş yer verilmişdir.

Baharın gəlişini əks etdirən mərasimlərdən biri də ölkəmizin bütün bölgələrində təmtəraqla keçirilən, milli

bayramımız olan Novruz şənliyidir. Novruz bayramını Şimal yarımkürəsinin bir çox xalqları, xüsusilə, mülayim iqlim qurşağında məskunlaşan, qədim sivilizasiyaya malik xalqlar qeyd edirlər. Natur fəlsəfəsinin tərənnümü olan Novruz bayramı ilə bağlı elementlərin xalqın psixologiyasında möhkəm yer almasını insanların bayram haqqında düşüncələrində, şifahi xalq ədəbiyyatında, eləcə də mərasimin teatral xarakterində görmək olar.

Novruz bayramına hazırlıq məqsədilə hər bir ailədə, ictimai həyatda canlanma müşahidə olunur, insanlar təmizlik işləri görür, od qalayır, səməni göyərdir, şirniyyatlarla dolu süfrə açırdılar. Xalqın düşüncəsində istənilən yeni bir işə başlamaq, elçilik, nişan, xeyriyyəçilik işləri, mənfi vərdişlərdən qurtulmaq və s. üçün Novruz günləri daha münasib bilinirdi. Yuxarıda sadalanan bütün bu hərəkətlər baharın səslənməsi arzusu ilə edilirdi. İstiliyi vacib həyat mənbələrindən sayan bəşər övladı məhz bu vaxtda təbii əvəzlənməni tezləşdirmək istəyir, qışla yazın mübarizəsində sonuncuya azarkeşlik nümayiş etdirirdi. Cansız, soyuq qışdan bezən, təsərrufat fəaliyyətinə tələsən insanlar sanki təbiətdən – günəş və oddan yardım istəyir. Xalq təfəkküründə təbiətin insanlara yardımının səviyyəsi ayrı-ayrı fərdlərin cəmiyyətə xeyiri, faydası ilə müqayisə olunurdu. Bir sözlə, belə düşünülürdü ki, əgər hər kimsə ətrafındakılara əl tutsa, köməklik göstərsə, bunun qarşılığı olaraq öz töhfəsini təbiətdən almış olar.

Novruz bayramı ərəfəsində baharın gəlişini qarşılamaq üçün quruculuq işlərinə başlanır, əkin sahələri şumlanır, ev-eşik, həyət-baca səliqə-sahmana salınırdı. Bu zaman fiziki imkanları məhdud olan, tənha yaşayan kəslər diqqət mərkəzində saxlanırdı. Ümumiyyətlə, bayrama hazırlıq işlərinin görülməsində hamı bir-birinə əl tuturdu. Novruz bayramının atributlarından olan növbənöv qənnadı məmulatlarının (şəkərbura, paxlava, şəkərçörəyi, şor qoğalı və s.) hazırlanması üçün



daha çox vaxt və zəhmət tələb olunur. Azərbaycanın Naxçıvan və Qərb bölgələrində «mədəd», digər regionlarda «növbələşmə», «iməcilik», «avaca» adlı qarşılıqlı yardım forması bayram günlərində, həmçinin qış tədarükünə hazırlaşmaq üçün qadınlar tərəfindən təşkil edilirdi. Bayram əhval-ruhiyyəsi ilə başlanan «mədəd» zamanı qohum, qonşu olan qadınlar hər gün birinin evinə toplaşır və hamının işi növbə ilə başa çatdırılırdı. Köməyə gələnlərə «mədədçi» deyilirdi.

Naxçıvanda bayram ərəfəsində qadınlar səməni halvasını bişirməkdən ötrü «mədəd» çağırırdılar. Mədədçilər qabaqcadan təyin etdikləri evə yığışır və şirniyyatın hazırlamasına lazım olan vəsaiti də (un, göyərdilmiş səməni və suyu, duz, odun və s.) özləri ilə gətirirdilər. Onlar çəkdikləri zəhmətin və ərzağın müqabilində hazırlanmış məhsuldan pay alırdılar. Səməni halvasının hazırlanmasının bir məqsədi də qonum-qonşuya, kasıblara paylamaq məqsədi daşıyırdı.

Yuxarıda qeyd edildiyi kimi, «mədəd» təkcə Novruz bayramı ərəfəsində deyil, istənilən məişət məsələlərinin həllində qadınlar tərəfindən keçirilirdi. Bəhs olunan qarşılıqlı yardım formasının yayıldığı bölgələr üçün sərt iqlim şəraiti səciyyəvi olduğundan qadınlar bir neçə aylığa çörək ehtiyatı görməyə məcbur idilər. Bunun üçün qonşu qadınlar növbə ilə bir-birinin evinə «mədəd»ə gedir, bəzən isə onlar ərzağı şərikli qoymaqla nəticədə hazırlanan çörəkləri paylaşdırırdılar. Mədədçilər çörəkbişirən alətlərini də özlərilə gətirirdilər. Onlardan biri xəmir yoğurur, bir qrupu kündə tutur, bir qrupu isə məmulatı təndirə yapmaq və ya sacda bişirməklə məşğul olurdu. «Mədəd»ə toplaşanlara ev sahibi südlü sıyıq və ya bal ilə qayğanaq verirdi. Qadınlar bu tədbiri səbirsizliklə gözləyirdilər, çünki bu iş həm də onlar üçün əyləncəvi xarakter daşıyırdı. Çörəkbişirmədə qarşılıqlı yardım adəti bütün Azərbaycanda geniş yayılmışdır.

Azərbaycanlıların mənəvi mədəniyyətinə daxil olan İslam dini ehkamları Novruz şənliyinə də təsirini göstərmiş və şiə təriqətli müsəlmanlar bu bayramı Həzrət Əlinin taxta çıxdığı gün (Qədirxum günü) kimi qeyd etmişlər(həmin günlə eyniləşdirmişlər). Siyasi tarixdən bəlli olduğu kimi ədalətli islahatlar keçirən xəlifə Əli yoxsullara, kimsəsizlərə dayaq durmuş, şəriət normalarına ciddi əməl edərək məzlumların haqqını qorumuşdur. Məhz onun adı ilə bağlı olan «Əli süfrəsi»ndən ehtiyacı olanları qidalandırmaq hər kəs üçün savab əməl sayılırdı. Bayram günü ailə üzvləri süfrə arxasında əyləşməmişdən öncə bişirilən yeməklərdən imkansızlara, eləcə də hörmət əlaməti olaraq qohum-qonşuya «bayram payı» göndərilirdi. Ənənəyə çevrilən bu hal atalar sözlərində də əksini tapmışdır: «Qonşuda bişər, bizə də düşər».

Novruz bayramı günlərində yoxsullara, kimsəsizlərə, xəstələrə qayğı və diqqət göstərilir, bu məqsədlə «Novruz xonçası» hazırlanır və həmin adamlar arasında paylanılırdı (2, 67). Xalq inanıb ki, bu axşamlarda kasıba, köməksizə verilən bir pay nə vaxtsa on qat artıb ocağına qayıdacaq. «Bayram payı» həmçinin verilən ocağa bərəkət arzulanmasını ifadə edirdi.

Məlumdur ki, Novruz bayramının vacib adətlərindən biri də, həmin günlərdə yeni libas geyinmək, yaxşı görünmək, xoş əhvallı olmaqdır. Güney Azərbaycanda yaşayan soydaşlarımız qarşılıqlı yardımın maraqlı bir formasını bugünədək yaşatmaqdadırlar. Hər ilin sonuncu cümə axşamı məhəllə və ya kənd sakinləri yığışıb yaxınlıqda yaşayan aztəminatlı ailələr üçün təzə paltar almaq məqsədilə pul yığırlar. "xeyirxah törən" adlanan adət həm bayramın yenilikçi mənəvi məzmunu ilə bağlılığı olan ənənənin saxlanmasına, həmçinin kasıbların maddi təminatına xidmət edir.

Novruz bayramı günlərində gənclər qohum-qonşu, dost-tanışlarının evinə görüşə gedir, ağsaqqallar, ağbirçəklər təbrik



olunurdular. Bayram görüşünə gələnlər bir-birinin evinə bəzəkli xonça gətirirdilər (3, 117). İnanca görə, bir il görüşməyənlər 7 il ayrı qala bilərdilər. Hamı bir-birinə pay verir, mehribanlıq, səmimiyyət yaranır, mənəvi birlik daha da möhkəmlənirdi. Novruz günlərində ənənəvi qaydada həyata keçirilən, bilavasitə ağsaqqallıq, ağbirçəklik institutunun təzahürü olan yaşlı nəsil və gənclərin bir-birinə qayğısı əksər Şərq xalqlarının mənəvi mədəniyyətinə hakim olmuşdur. Güney Azərbaycanda «eydi» və ya «eydanə» (farsca bayramlıq deməkdir) adlı adətə görə, Novruzda təbrikə gəlmiş cavanlara böyüklər pul verməli idilər. Hətta çalışırdılar ki, şirinlik məqsədilə verilən pul çox işlənmiş əskinaz olmasın.

Novruz bayramının qarşılıqlı yardım mahiyyəti, mənəvi birliyi təcəssüm etdirməsi hələ orta yüzilliklərdə vətənimizə təşrif buyuran səyyahların da nəzərini cəlb etmişdir: «...bayram başlanandan bəri bir-birinə boyanmış və qızıl suyuna çəkilmiş yumurtalar göndərirdilər. Elə yumurtalar olurdu ki, pula çevirəndə qiyməti üç qızıl dükata qədər olur...» (4, 48).

Novruz bayramında icra edilən xeyirxah əməllər bayramla bağlı keçirilən bir sıra oyun və əyləncələrdə də əksini tapmışdır. Üç gün davam edən «Şah oyunu» tamaşasında sırf qarşılıqlı yardım mahiyyətli davranışlar tərənnüm olunurdu. Bu oyunda hər bir kəndin və ya şəhərin böyük məhəllələrinin camaatı özünə şah, vəzir, vəkil, cəllad, fərraş və s. rolları ifa etmək üçün oyunçular seçirdilər. «Şah oyunu»nda şahın əmri ilə kasıb-kusuba əl tutulur, fağır-füqəraya yardım edilirdi. Kəhrizlər təmizlənir, bağlar sahmana salınırdı. Bu işi qazının hökmü, vəzirin nəzarəti ilə el-oba görür və sonra da gəlib şaha xəbər verirdilər. Şaha, vəzir-vəkilə, xeyirxah işləri görmüş, iməciliklər aparmış gənclərə müxtəlif evlərdən dadlı-tamlı yeməklər göndərirdilər.

Ümummilli sərvət olan Novruz bayramı xalqımızın əxlaqi-tərbiyəvi dəyərlərinin nümayişi olmuşdur. Eyni məqsədi aşılayan qarşılıqlı yardım formalarının bəhs olunan mərasimdə geniş yer alması təsadüfi deyildı.

Azərbaycan ərazisi VII yüzilliyin ortalarından ərəblər tərəfindən istila olunduğundan göstərilən dövrdən başlayaraq ölkəmizdə İslam qanunları, adət-ənənələri qüvvəyə minmiş, İslam məişətimizə daxil olmuşdur. Azərbaycan xalqının dinlə əlaqəli məişət mərasimlərindən biri də Orucluq bayramıdır. Qurani-Kərimdə müsəlmanlığın əməl olunmalı beş vacib şərti göstərilmişdir ki, bunlardan biri Ramazan ayında tutulan orucdur. Məhz bu ayda Allah-Təala tərəfindən mələk Cəbrayıl vasitəsilə göndərilən Qurani-Kərim Məhəmməd Peyğəmbərə (s.) çatmışdır. «Cənnət qapılarının açıldığı Ramazan ayı»nda insanlar daha səxavətli, əliaçıq olur, bir sözlə, özlərini Allahın dərgahına yaxın tuturlar. Ruh sınağı olan orucluqda otuz gün oruc tutan möminlər bu müddət ərzində varlı və kasıb təbəqələri arasındakı fərqləri aradan qaldırır, ayrı-seçkiliyə yol vermirdilər. Orucluq zamanı varlı da, yoxsul da müsavi, yəni bərabər olur. İmkanlı adamlar ac qalanların halını başa düşür, onlara kömək etməyi özlərinə borc bilir (2, 77). Ramazanda küsülülərin barışması, imkanlı adamların kasıblar üçün iftar süfrəsi açması zaman-zaman ənənəvi hala çevrilmişdir.

Ramazan ayının sonuncu günü bayram günü kimi qeyd edilirdi. Bütün bayramlarda olduğu kimi Orucluq bayramında da qarşılıqlı yardım, təmənnasız köməkliklər geniş meydan alırdı. Milli bayramlarda mövcud el köməklikləri xalqın minilliklər boyu formalaşmış adət-ənənələrindən irəli gəlirdi. Dini bayramlarda isə bəhs etdiyimiz adət İslam qanunları ilə qovuşaraq xalqın təfəkküründə daha mükəmməl şəkildə hifz olunmuşdur.

Orucluq bayramında camaat qəbiristanlığa gedib kasıblara halva-çörək, yemək aparırdılar. Həmin gün ailədəki üzvlərin



sayına müvafiq fitrə çıxarılırdı. Belə ki, fitrə hər adambaşına 10 girvənkə (1 girvənkə 400 qrama bərabərdir) taxıl həcmində idi. Fitrə din xadimlərinə, məscidlərə deyil, yalnız fəqir-füqəraya, şikəstlərə və yoxsullara verilirdi. Etnoqrafik sorğuya cəlb olunanlar vaxtı ilə fitrənin miqdarının bir adamı gün ərzində doydurmaq üçün bir abbası pula bərabər olduğunu söyləmişlər. Fitrə cana, mal-mülkə görə çıxarılır və ailənin hər bir üzvü bu məbləğə əl basaraq onu evin giriş qapısının üzərinə qoyurdular. Borcu olanlar üçün fitrə çıxarmaq məqbul sayılmırdı.

Ehtiyacı olanlar üçün ildə bir dəfə fitrə çıxarılmasına hər bir müsəlmanın yaradan qarşısında öz borcunun ödənilməsi kimi dəyər verilirdi. Toplum daxilində yardım etmək İslam hüququnun göstəricisi olan Qurani-Kərim və hədislərin əsas qayələrindən birini təşkil edir. Allahın min hikmətlə yaratdığı bəndəsinə büdrəyən zaman əl uzatmaq İslam hüququnda müstəhəb, yəni məsləhət görülən əməl sayılır və buna görə mükafat gözlənilirdi. Orucluq bayramında hər bir kəs fitrəni könüllü şəkildə edir və göstərilən dini qayda əslində, xalqın öz daxili mənəvi istəyindən irəli gəlirdi. Bu yanaşmaya fərz əməl sayılan «zəkat»ı da daxil etmək olar. Hər bir müsəlman illik gəlirinin 1/5-ni və ya 1/10-ni «zəkat» verməli idi. Bu vergi İslam dinində dövlət başçısına firavan həyat sürməsi və ya şan-şöhrət üçün verilmir, əsas diqqət maddi köməyə ehtiyacı olan şəxslərə yönəlir, cəmiyyətdə bu cür insanların yardım almaq hüquqları təmin olunur. İnsanlara xoş münasibət göstərmək, gülərüzlülük də zəkat hesab oluna bilər. Şəriətdə bu qəbildən olan əməllərdən biri də sədəqə verməkdir. Bu xüsusda Tövbə surəsində yazılır: «Sədəqə kasıblara, miskinlərə, ürəkləri islama bağlı olanlara, borc içərisində olanlara, Allah yolundakı işlərə və yolçulara Allah tərəfindən müəyyən edilmiş bir fərzdir» (6).

Orucluq bayramından 70 gün keçdikdən sonra (Zilhiccə ayının 10-da) müsəlmanlar Qurban bayramı keçirirlər. Bu bayramda hər bir müsəlman maddi durumu imkan verdiyi təqdirdə qurban kəsməli idi. İsmayıl qurbanının kəsilməsi İslam dininin vacib mərasimlərindən biri olaraq şəriətə görə mələklər tərəfindən hər bir kəsin çiyninə müsbət əməl kimi yazılır. Allah-Təala yolunda qurban verilməsi müsəlmanların axirətə gedən yoldakı sirat körpüsündən (qıl körpüsü) keçməsinə, cənnətə yönəlməsinə yol açır. Göstərilən dini ayinin həyata keçirilməsində qarşılıqlı yardım təzahürləri bəlli olmaqdadır.

Bayram günü camaat məsciddə iki rükət bayram namazı qıldıqdan sonra qurbanlarını kəsirdilər. Bakıda qurban bayramını təsvir edən H.Q.Sarabski yazır: «Bayram günü bəslənib yemlənmiş qoyunu həyətə çıxarıb, gözünə sürmə çəkib, sulayıb, ağzına bir parça qənd verərdilər. Qurban duasını oxuduqdan sonra qoyunu kəsərdilər...» (7, 64). Qəbul olunmuş qaydaya görə, qurbanlığa kəsilən yalnız dördayaqlı heyvan olmalı, at istisna sayılırdı. Qurbanlığa adətən qoç, öküz, dəvə münasib bilinirdi.

Qurban kəsilərkən heyvanın əti qohum-qonşuya, qurban kəsməyənlərə göndərilirdi. Xalq arasında belə bir fikir mövcud idi ki, qurban əti ən azı yeddi qapıya paylanarsa, qəbul oluna bilər. Bəzən qurban kəsməyə iqtisadi gücü çatmayan bir neçə ailə bu işi alışma yolu ilə həyata keçirirdilər.

Şəriət Allah-Təala yolunda qurban kəsilməsini ərz etsə də, əslində bu qayda kasıbların qida ehtiyaclarının təminatına xidmət edir. Qurban kəsmək ehsan vermək anlamına daxil idi. Məhəmməd Peyğəmbərin (s.) bir hədisində buyurulur: *«İldə bir neçə dəfə rahat yatıram. Onlardan biri də Qurban bayramı günüdür. Bilirəm ki, ümmətimdən elə bir adam tapılmaz ki, həmin gün qurbanlıq ətindən faydalanmasın» (2, 74).* Lütfkarlıq, təmənnasız yaxşılıq hər zaman insanlıq dünyasını gözəlləşdirən cəhətlərdən olmuşdur. Təsadüfi deyil ki, insana yüksək



dəyər verən İslam hüququnda qul haqqını tapdalamaq, yaradanın haqqının tapdanmasına bərabər tutularaq kəbir cinayət hesab edilmişdir.

Qurban bayramı və Həcc ziyarəti eyni dövrdə icra edilən və bir-birini tamamlayan ayin idi. İslam dinini qəbul etməyin vacib şərtlərindən biri də imkanı olan hər bir müsəlmanın ömründə heç olmasa bircə kərə Məkkə şəhərində Kəbəni ziyarət etməsi və orada qurban kəsməsidir. Bu minvalla zəvvarların Həcc ziyarətindən qayıdışına el-oba ictimai bir iş kimi baxmış, onların qarşılanmasını xüsusi qeyd etmişlər. Qohum-əqrəba, qonşular «gözaydınlığı»na gəlir, səs-sədalı, şadyanalı mərasim düzənləyir, ziyarətçiləri layiqincə qiymətləndirirdi. Zəvvar isə minnətdarlıq rəmzi kimi gətirdiyi kiçik hədiyyələri onlara təqdim edirdi. Sürətli nəqliyyat növlərindən az istifadə olunduğu vaxtlarda aylarla davam edən ziyarət hamının diqqətində idi. Bu, bir tərəfdən dinlə bağlı maraqdan yaransa da, digər tərəfdən hər bir nəsil qan qohumluğundan irəli gələn mənəvi borcunu yerinə yetirmiş olurdu. Bu hadisə ilə patronimik ailələr arasında mütərəqqi sosial institut olan qarşılıqlı yardım formalarının çoxşaxəli istiqamətlərindən biri də aydınlaşır.

### *Qaynaqlar*

*1. Abdulla Şaiq. Xatirələrim. Bakı: Uşaqgəncnəşr, 1961, 224 s.*
*2. Azərbaycan etnoqrafiyası: 3 cilddə, III cild, Bakı: Şərq-Qərb, 2007, 557 s.*
*3. Dadaşzadə M. Azərbaycan xalqının orta yüzillik mənəvi mədəniyyəti. Bakı: Elm, 1985, 212 s.*
*4. Jan Şardən. Səyahətnamə. Bakı: Elm, 1994, 93 s.*
*5. Kitabi Dədə Qorqud. Bakı: Yazıçı, 1988, 265 s.*
*6. Qurani Kərim, Tövbə surəsi (çevirəni Məmmədhəsən Qəni oğlu, Tariyel Bilal oğlu), Bakı: Göytürk, 2000, 714 s.*
*7. Sarabski H. Köhnə Bakı. Bakı: Minarə, 2000, 126 s.*

Güllü YOLOĞLU
*tarix elmləri doktoru*

## MİLLİ DƏYƏRLƏRİMİZİ ARAŞDIRARKƏN

Təbiətlə sıx bağlı, onun «şıltaqlıqlarından» asılı olan türklər təbiətin oyanmasını, canlanmasını xüsusi həyəcanla izləyirdilər. Müşahidəçi babalarımız səma cisimlərinin yerdəyişməsini, gecə ilə gündüzün vaxtının uzanıb qısalmasını, təbiətdə baş verən digər dəyişiklikləri illərlə, yüzilliklərlə sınaqdan çıxararaq xalq inamları, mərasimlər, ayinlər şəklində günümüzə miras qoyublar. Təbii ki, onlar sadəcə seyrci olmamış, bacardıqları qədər bu və ya digər təbiət hadisəsinə öz münasibətlərini bildirmiş, bir çox hallarda onlara təsir göstərməyə çalışmışlar. Bu təsir kəsilən qurbanlar, verilən paylar, bol süfrə, hay-küy, meydan tamaşaları... şəklində olmuş, yəni hər şeyin hami ruhu, yiyəsi olduğunu düşünən ulularımız yeri gələndə xarakterlərinə, çəkilərinə görə bu yiyələrin könlünü xoş etməyi, yeri gələndə hədə-qorxu gəlməyi, yeri gələndə kədərlənməyi, yeri gələndə kinayəylə, istehzayla yanaşmağı da bacarmışlar...

Araşdırmalar göstərir ki, dünyanın bütün xalqları kimi, türk xalqlarının da xalq yaradıcılığında Günəş, Gün önəmli yer tutur. Babalarımız gecələrin uzanaraq günlərin qısaldığı vaxtlarda Günün qaranlıqla savaşdan necə çıxacağını həyəcanla izləyirdilər. Bu savaşın ən yüksək anı 21 dekabr gecəsidir. 21 dekabr günü ilin ən qısa günü, 21 dekabrı 22 dekabrla bağlayan gecə isə ilin ən uzun, ən qaranlıq gecəsidir. İnsanlar həmin gücəni yatmayaraq dan atır, müxtəlif ayinlərlə Günəşə yardımçı olmağa çalışırlar. Beləcə, dünyanın bir çox xalqları 22 dekabrda gecə ilə gündüzün mübarizəsindən qalib çıxan Günün, Günəşin doğuşunun şahidi olur, həmin günü bayram



edirlər. Bir sıra türk illəri (xalqları) buna Nardoğan, yəni «Gündoğan» bayramı deyirlər.

### *Nardoğan – Gündoğan*

Narduqanı (Nardoğanı) bəzən İdel-Uralın yeni ili də adlandırırlar. İslamaqədərki bayramlar arasında özəl yeri olan Narduqan bölgənin bir çox xalqları tərəfindən keçirilir.

Bəzi tədqiqatçılara görə, Narduqan monqol dilindəki «nar» (Günəş), türk dilindəki «tuqan» (doğulan, doğan) sözlərindən meydana gəlmişdir. Tatarca bu bayrama «Koyaş Tua», yəni «Günəş Doğan» gün deyirlər (Günəş – tatarca Koyaş), başkortlar, udmurdlar, tatarların bəzi qrupları «Narduqan», «Marduqan», mişar tatarları «Raştua», çuvaşlar «Nartavan», ya da «Nartuken», zrzyalar «Nardava», mokşalar «Nardvan» deyirlər. Təbii şəraitdən asılı olaraq Nardoğan bayramının keçirilməsində az da olsa, zaman fərqinə rast gəlirik. Məsələn, maraqlıdır ki, yuxarıda adı çəkilən bu xalqların əksəriyyəti Narduqan bayramını yanvarın 18-də, kerəşennər 14 yanvarda keçirirlər. Altay türkləri Çağa (yeni doğulan Günəşə çağa deyilməsi də fikrimizcə təsadüf deyil) adlandırdıqları bu bayramı dekabrın 22-də qeyd edirlər. Kama və Uralətrafı çuvaşlarda Narduqan bayramı dekabrın 25-də başlayır. Çuvaşların bəzi qrupları bu bayrama surxuri və xör də deyirlər...

Hər bir bayramın keçirilməsində olduğu kimi, Gündoğan bayramı da mahnı, tamaşa, falabaxmalar kimi çeşidli adətlərlə zəngindir... Axşam düşən kimi gənc oğlanlar qoca qarı, qızlar isə qoca kişi paltarı geyinib hər kəsi Nartukana, Narduqana, Gündoğana dəvət edə-edə məhəllə-məhəllə gəzir, tamaşa göstərir, xoşbəxtlik, taxılın, çovdarın bol, inəklərin, qoyunların südlü, buzovların, quzuların çox olması ilə bağlı alqışlar

oxuyur, əvəzində isə müxtəlif bayram şirniyyatları, hədiyyələr alırlar.

Bayram tamaşalarının da mövsümlə bağlı öz əhəmiyyəti var. Belə ki, həyətə toplaşanlar qarı paltarı geyinmiş oğlanın cəhrə arxasına keçərək işlə, yəni yun əyirməklə məşğul olduğunu görürlər. Qoca kişi paltarı geyinmiş qız əlindəki süpürgəni havada yelləyə-yelləyə «qarıya» deyinir, hədə-qorxu gəlir. Birdən o, öncədən hazır duranlardan birinin əlindəki su dolu qabı qaparaq ətrafa toplaşanların ətəklərini su ilə isladır. Şən zarafatlarla müşayiət olunan bu tamaşa rəqslə, musiqi ilə başa çatır. Adətən, qarı paltarı geyinən oğlanlar ətrafa toplaşan əl-əlvan bayram libaslı gənc qızlara göz qoyur, onları rəqsə dəvət edirlər. Qızlar da qoca kişi paltarında xoşlarına gələn oğlanın həyətinə girməyə çəkinmirlər. Başqa vaxt onlar təbii ki, bu addımı atmazdılar. Bayram günləri görüşənlər bir-birinə alqış deyirlər:

***«Narduqanım nar bulsın,***
***Gündoğanım gün olsun,***
***Eçe tulı nur bulsın!***
***İçi dolu nur olsun!»***

Evlərdə bu günlərdə şirnili, şəkərli un məmulatları hazırlanır. On iki gün davam edən Narduqan bayramında fala baxmaq adət halını almışdır. Ümumiyyətlə, hər yeni il insanda gələcəyə ümid, maraq və bəzən də onu dəyişmək həvəsi, istəyi yaradır. Falabaxmalardan biri «Yezek salu» («üzük salmaq») adlanır. Gənc qızlar gecə qızlardan birinin bulaqdan arxasına baxmadan gətirib ortaya qoyduğu su dolu qabın başına toplaşır, suya üzük, bəzən də düymə atır, sonra da fal xarakterli bəndlər oxuyurlar. Ən gənc qızın sudan çıxartdığı əşya kimə məxsusdursa, mahnının sözləri də ona aid olur. Təbii ki, azərbaycanlı oxucularımız ilin, ayın Axır çərşənbəsindəki, İl başındakı falabaxmalarımızı xatırladılar…



Qədimdə Günəşin zəfərini bütün işlərində təbiətlə hesablaşan türklər ağ küknar ağacının altında qarşılayır, onun budaqlarından müxtəlif yeyəcəklər asır, al-əlvan iplər bağlayaraq dilək diləyirdilər. Azərbaycanda həmin gün Böyük Çillənin gəlişi (Çillə gecəsi), İranda isə Yelda gecəsi kimi qeyd olunur...

## *Yelda gecəsi*

Yuxarıda qeyd etdiyimiz kimi, dünyanın bir çox yerlərində bir çox xalqlar Günəşin doğmasını bayram edirlər. Hərə həmin günə bir ad verir, süfrəsinə yaşadığı yerin özəlliklərinə xas nemətlər düzür.

Tanınmış folklorşünas alim Ə.Cəfərzadə özünün «Unudulmuş əziz günlərimiz» məqaləsində Yelda Gecəsinin şairlərimizin yaradıcılığında əksinə qısaca da olsa, toxunmuşdur…

Araşdırmalar göstərir ki, İranda mövsüm hesabından hələ də istifadə edilir. Burada artıq neçə yüzillikdir ki, 21 dekabrda yayın bitdiyinin xəbərçisi olan şəb-i yelda şənlikləri qeyd olunur. Kökü Günəş Tanrısı Mitranın doğumu ilə bağlı olan bu bayramın əvvəli 20, sonu 26 dekabra düşür. Şəb-i Yelda öncəsi İranda hər kəs bu uzun gecə üçün alış-veriş edir. Dey ayının birinci günü, yəni 21 dekabr axşamı başda qarpız olmaqla masaya nar, alma, portağal, naringi, halva, müxtəlif çərəzlər qoyurlar. İranda inanırlar ki, Yelda gecəsi nə qədər çox qarpız yesən, bir o qədər soyuqdan, xəstəlikdən uzaq olarsan.

Osmanlıda yelda gecəsi, yəni ən uzun, ən qapranlıq gecə ilə bağlı bir beyt dillər əzbəri idi:

***Şeb-i yeldayı müneccim ile muvakkit ne bilir***
***Müptela-yı gama sor kim geceler kaç saat.***

Məşhur Türkistan şairi İshakxan İbrət (1862-1937) yazırdı:

***Ahımın tüstüsündən həyatım***

*Yelda gecəsitək qara olubdur.*

Oğlaq bürcündə Günəş 0 dərəcəlik açılır. 0 dərəcə həyat enerjisinin başlanğıcı olaraq qəbul edilir. Əski xalq inancında 21 dekabra «ayna günü» də deyilir. Yeni ilin başlanğıcında Günəş tanrısının yenidən doğulmasına inanırdılar. Bu gecə köhnə Günəş öləcək, sabah isə yenidən doğulacaqdır. Xürrəmilər də Yelda Gecəsini Xorrəm-Ruz (Mübarək Gün) kimi qeyd edirdilər…

## *Böyük çillə*

Narduqan bayramının, Yelda gecəsinin bağlı olduğu təbiət hadisəsi Azərbaycanda Böyük Çillənin girişi, Çillə gecəsi ilə qeyd olunur. Bir çox xalqlarda həm yay, həm də qış çilləsi var. Belə ki, özbəklər arasında 22 iyundan üç gün sonra, yəni iyunun 25-dən avqustun əvvəlinə qədər 40-41 günlük dəhşətli istilər yay çilləsi, 22 dekabrdan üç gün sonra, yəni 25 dekabrdan başlayaraq fevralın 5-ə qədər davam edən soyuqlar isə qış çilləsi adlandırılır. Qaraçay-malkarlıla çilləyə həm «ipək», həm də «soyuq» anlamı verirlər. Onlarda da çillə həm yayda («cay çillə»), həm də qışda («kış çillə») olur… Türkmənlərdə Ulu Çillə (Böyük Çillə) dekabrın 22-dən yanvarın 30-a qədər davam edir…

El arasında «çillə çıxartmaq, çilləyə düşmək, çillə kəsmək» kimi ifadələr var. Hamilə qalan təzə gəlin üçün deyirlər ki, «çilləyə düşüb». Adətən, gəlin toydan 40 gün sonra, zağı qadınla körpəsi isə doğuşdan 40 gün sonra çilləli hesab olunur. Bu dövr təhlükəli sayılır. Xristian qaqauz türkləri belə qadınlar haqqında deyirlər ki, onun məzarı 40 gün açıq qalır, onu gözləyir, yəni 40 gün zağı qadın, körpə, təzə gəlin gözlənilməlidir. Bir çox türk xalqlarında olduğu kimi, Azərbaycanda da hamamda yuyunub paklandıqdan sonra çilləyə düşmüş gəlinin başına «Qırxaçar» camıyla qırx cam su



tökür və ya yeddi rəng əlvan sapla çillələnin əl-ayaq barmaqlarını çalkeçir bağlayıb qayçı ilə kəsirlər. Bu ayin icra olunarkən ağbirçək qadın bu sözləri deyir: «Mənim əlim olmasın, xanımlar xanımı cənab peyğəmbər qızı həzrəti Fatimənin əli olsun. Üçlər, yeddilər, qırxlar eşqinə kəsdim çilləni! Ərmiş ərənlər eşqinə kəsdim çilləni!..»

Y.V.Çəmənzəminli isə «çillə kəsilərkən» oxunan sözləri («Həzrət Süleyman eşqinə, cin qızı Mərcan hökmünə, bəni-adəmdən, bəni-heyvandan, cindən, şəyatindən, axar sudan, köklü ağacdan, dibli qayadan, yeddi yolun ayrıcından – hər kəsin çilləsinə düşmüsənsə, çilləni kəsdim») əsas götürərək yanlış olaraq çillənin «arilərə qarşı gələ bilən bəlaları dəf etmək üçün qurulmuş bir ayin» olduğunu, bəlanın isə samilərdən gəldiyini vurğulayır.

Maraqlıdır ki, Y.V.Çəmənzəminli axır ki, hər şeyin zərdüştiliklə bağlı olmadığını anlayır. Yuxarıdakı sözləri analiz etməyə cəhd göstərən tədqiqatçı çaşıb qalır: «Burada anlaşılmaz bir nöqtə var ki, o da axar su, köklü ağac, dibli qaya və yolayrıcının işə qarışdırılmasıdır», yəni niyə onlar «cinlər və şəyatinlər cərgəsinə qoşulmuşdur». Y.V.Çəmənzəminli bu adətin özü də bilmədiyi «bir çox təsirlərə düşüb pozulduğunu göstərir».

Əslində Y.V.Çəmənzəminlinin axar suyun, köklü ağacın, dibli qayanın, yolayrıcının şər qüvvələrin sırasında olmasına çaşmasının əsas səbəbi onun türklərdən, türk mifologiyasından, ən əsası isə türk şamanizmindən uzaq olmasıdır. Əgər bütün bunlarla maraqlansaydı, görərdi ki, su (çay) axarı, ağacın kökləri, qayanın (dağın ətəyi) dibi, yolayrıcı (gedər-gəlməz) şamanizmdə Erlikin (İrlikin, Yerlikin) yeraltı qaranlıq dünyasına aiddir. Dilimizdəki «səni görüm çay aşağı axasan» qarğışı da qarşı tərəfə ölüm arzulamaq, yəni onun Erlikin dünyasına getməsini istəməkdir.

Şamanizmdə ağacın zirvəsi Göyün, gövdəsi orta qat olan dünyamızın, kökləri isə Erlikin yeraltı aləminin rəmzidir.

Şamanizmdə dağın, qayanın zirvəsi Göyü, dibi, ətəyi isə yeraltı qaranlıq dünyanı əks etdirir.

Yolayrıcı nağıllarımızda da olduğu kimi, əsasən gedərgəlməzlə, yəni şər qüvvələrin yerləşdiyi Erlikin qaranlıq yeraltı dünyası ilə bağlıdır.

Beləliklə, Y.V.Çəmənzəminli hər nə qədər adət-ənənələrimizi, inamlarımızı, mərasimlərimizi kimlərəsə bağlamaq, türklüyümüzü inkar etməyə çalışsa da, onların hər birinin altından türklük vulkan kimi püskürərək üzə çıxır. Adətən, zəif adam haqqında deyirlər: «elə bil çilləyə düşüb», «elə bil çillədən çıxıb», «elə bil çillə çıxardıb».

Türkmənlər çillə kəsmək ayininə «kırk çillədən çıkarmak», uşağın qırx saçına isə «çillə saç», ya da «qalpak» deyirlər. Eyni inamın izlərinə qaqauz, kırımtatar, eləcə də başqa türk illərində rast gəlirik. Türkmənlər körpəni nəzərdən, gözdəymədən, pis niyyətli adamlardan qorumaq məqsədilə onun qoluna üzərində ağ xal olan qara və göy rəngli «qozmoncuk», ya «kəramətli ağac» hesab olunan «daqdan» (dağdağan – G.Y.) ağacının budağından hazırlanmış muncuq taxırlar.

Artıq qeyd etdiyimiz kimi, ilin ən uzun və qaranlıq gecəsi, Böyük Çillənin girdiyi gecə olan 21 dekabrdan 22 dekabra keçən gecəyə Azərbaycanda Çillə gecəsi də deyirlər. Bu gecədə insanlar yatmır, bir yerə yığışıb söhbətləşir, alqış («alqış» sözü türk xalqlarında həm də «dua», «xeyir-dua» anlamını verir – G.Y.) edirlər ki, qış qarlı olsun. Qarlı qış həm də bol taxıl, tərəvəz, mer-meyvə deməkdir. O vaxtlar nə radio vardı, nə televizor, nə də ki, indiki bilgisayar oyunları. Elə bu səbəbdən də gənclər müxtəlif əyləncələr təşkil edir, qızlar ayrıca bir otaqda mahnı oxuyur, rəqs edir, tapmaca, yanıltmac, deyişmə-bayatılar deyir, arabir də əllərini uzadıb qovurğa, qovut, yer-yemiş atırdılar ağızlarına. Çillə girən günə saxladıqları qarpızı



dilimləyib hər kəsə verirdilər. Bu yerdə Əzizə xanımın bir xatirəsi maraq doğurur: «Yadıma düşür ki, atam, xüsusi toxunma zənbilvari asqılarda Novruzqabağı ilaxır çərşənbə, bayram axşamı bişən toyuqplovun yanında yeyilməkçün mütləq süneyvaz, bilərcin yemişləri saxlar və süfrədə təntənəylə kəsərdi. Hərəyə bir dilim verərdi»:

***Qovub qışı, ayazı,***
***Kəsdik çillə qarpızı.***
***Allah yetirsin ruzı***
***El qalmasın tamarzı.***

Oğlan evi nişanlı qızlara «çilləlik» adlanan hədiyyə hazırlayır, xonçalara qıza, ata-anasına, bacı-qardaşlarına, yaxın qohum-əqrəbalarına alınmış hədiyyələr, qarpız, yer-yemiş, şirniyyat qoyurlar.

Beləcə, Böyük Çillə girir. Qarı çox olsa da, şaxtası, çovğunu o qədər də insanlara əziyyət vermir. Bir də ki, camaat qış tədarükünü görüb, hələ ki, taxçalar, boğçalar, çuvallar, sandıqlar, ambarlar, samanlıqlar doludur. Yeməyə ərzaqları, yandırmağa odunları var.

Böyük Çillənin girişi ilə xalqların bir çoxu YENİ İL bayramına hazırlaşır...

Qeyd etmək lazımdır ki, doğrudan da Günün doğuşu ilə bağlı olan bayramlardakı adətlər, ayinlər bir-birinə çox bənzəyir. Məsələn, əsasən İran ərazisində keçirilən «Şəbi Yelda» gecəsi qarpıza önəm verilir, insanlar bütün gecəni yatmırlar, evlərdən şən səs-küy, mahnı sədaları gəlir. Eyni adət Böyük Çillənin girişi münasibətilə Azərbaycan ailələrində də görmək olar. İnsanlar bir yerə toplaşıb çilləni qarşılayır, çillə qarpızı kəsib yeyir, çalır, oxuyur, sabahacan yatmır, «dan atırlar». Bəlkə də insanlar Günəş kimi yumru qarpızın ətrafa işıq saçan saçaqlarını xatırladan dilimlərini yeyərkən qarşıdakı soyuq,

qarlı qışda Günəşin bu bir parçasının ona yardımçı olacağını düşünürdülər. Bu da bu və ya digər ad altında keçirilən mərasimin mahiyyətinin, məqsədinin eyni olduğundan irəli gəlir. Günümüzdə əksər türk xalqlarının həyatında hələ də yaşayan «Nardoğan», yəni «Gündoğan» bayramı da eyni məqsədlə keçirilir, hər kəs həmin gecə Günəşlə həmrəy olduqlarını, onun tərəfini tutduqlarını bildirmək məqsədilə müxtəlif ayinlər keçirir, yatmır, əyləncələr təşkil edirlər. Ertəsi gün isə hər kəs Günəşin qələbəsini bayram edir.

Biz demirik ki, bu xalqların hansısa bu bayramın keçirilməsini o birindən götürüb. Çünki insanlar Günəşdə baş verən dəyişiklikləri görür, uzun qaranlıq gecələrin onların təsərrüfat həyatlarına mənfi təsir göstərdiyini dərk edir, bundan keçirdikləri narahatlıq hissi 21 dekabrdan 22 dekabra keçən gecə daha da artır. Ertəsi gün isə Azərbaycanda hər kəs Gündoğan bayramını qeyd edib, bir-birini görərkən «Üzünə Gün doğsun!», «Günün ağ olsun!», «Ağ Günə çıxasan!»... deyə alqış söyləyiblər. Beləcə, insanlar bu bayram sevincini tam 10-12 gün yaşayıblar, yəni yanvarın əvvəlinə kimi...

Fikrimizcə, 31 dekabrı da içinə alan Gündoğan bayramımızı bərpa etməyin vaxtıdır!..



*dr.* Bəhmən FAZİLOĞLU (ƏLİYEV)

## QONAQPƏRVƏRLİK MİLLİ "MƏN"İN ELEMENTİ KİMİ

Hər bir xalqın milli kimliyini formalaşdıran bir sıra amillər vardır. Özünüdərk, coğrafi, siyasi məsələlər (amillər), maddi və mənəvi mədəniyyətin vəhdəti milli «Mən»i formalaşdırır, nəticədə hər bir xalqın milli identifikasiyası ortaya çıxır. Müxtəlif xalqları bir-birindən ayıran və ya bir-birinə bənzədən milli kimlik elementləri arasında qonaqpərvərlik xüsusi yer tutur. İctimai həyatımızda daim qonaqpərvərliklə bağlı məsələləri bu və ya digər formada müzakirəyə çıxarırıq, münasibət bildiririk. Adətən azərbaycanlılar daim öz qonaqpərvərlikləriylə fəxr edirlər. Həm yazılı ədəbiyyatı, həm də şifahi ədəbiyyatımızı vərəqləyəndə qonaqpərvərliyin məhz milli identifikasiyamıza çevrildiyini aydın görürük.

Qonaqpərvərlik müxtəlif elmlərin, o cümlədən etnoqrafiya elminin tədqiqat obyektidir. Etnoqrafiya elmi bu milli identifikasiyanı tarixi, mənəvi, maddi baxımdan araşdırır. Bəlkə də məhz buna görə də sovet dönəmində mənəvi mədəniyyət məsələlərinin, eləcə də qonaqpərvərliyin tədqiqi kölgədə qalmışdır. Çünki milli "Mən"in elementlərinin tədqiqi hər bir xalqın özünü daha dərindən tanımasına, həqiqətlərin daha dərindən dərk olunmasına gətirib çıxarır.

Onu da qeyd edək ki, ümumiyyətlə Azərbaycan etnoqrafiya elmində mənəvi mədəniyyət təsərrüfat məişəti, maddi mədəniyyət, sənətkarlıq kimi sahələrə nisbətən az tədqiq edilmişdir. Mənəvi mədəniyyətin tədqiqinə xüsusi diqqət yetirilməməsi keçmiş sovet elminin, o cümlədən etnoqrafiya elminin problemlərindəndir. Səbəb isə uzun illər ərzində etnoqrafiya elminin, eləcə də başqa ictimai elmlərin dövlət maşınının ideoloji hücumuna uğramasıdır. Etnoqrafiyanın digər

sahələriylə müqayisədə mənəvi mədəniyyət məsələlərinin öyrənilməsi həm də daha çox ideoloji təzyiqlərə məruz qalmışdır. Belə yanaşmanın əsas səbəbi odur ki, mənəvi mədəniyyətin tədqiqi xalqın özünüdərki, milli varlığı, etnogenezi və s. haqqında tam təsəvvür yaratmaq iqtidarındadır, başqa sahələrdə aparılmış tədqiqatları ümumiləşdirərək milli «Mən»i ortaya çıxarır. Belə yanaşma isə «sovet xalqı» kimi qondarma ideyalarla «kommunizm» quran keçmiş sovet ideologiyasının maraqlarına zidd idi. Buna görə də Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonrakı bütün dövr ərzində mənəvi mədəniyyətin öyrənilməsi və ya qondarma şüarların əsas götürülməsi hakim ideologiyanın yanaşmasının əsasını təşkil etmişdir. Xüsusən, ötən yüzilliyin birinci yarısında hakim ideologiyanın siyasi tələbləri, ilk beşillik planlar, kolxoz quruculuğu və s. proseslər etnoqrafiya elminin qarşısında əksər hallarda təsərrüfat məşəti, maddi mədəniyyətlə bağlı məsələlərin öyrənilməsini bir vəzifə kimi qoyurdu. Nəticədə elmin tam şəkildə inkişafı ləngiyirdi. E.Kərimov XX yüzildə keçmiş sovet hakimiyyəti illərində Azərbaycan elminə, o cümlədən etnoqrafiya elminə rəsmi münasibəti aşağıdakı kimi göstərir: «Həmin illərdə dövrün yüksək vəzifəli şəxslərinin səriştəsizliyi üzündən Azərbaycan etnoqrafiyasına da zərbələr vuruldu. Müharibə və müharibədən sonrakı illərdə yazılmış bir sıra elmi əsərlərin nəşri qadağan edildi. Bu əlyazmaların bir hissəsi indiyədək arxivlərdə saxlanmaqdadır. Elə həmin məruzədə *(M.C.Bağırovun «Kitabi Dədə Qorqud»u «soyğunçu»ların və «quldur»ların dastanı adlandırdığı AK(b)P-nin XVIII qurultayındakı məruzəsi nəzərdə tutulur)* M.C.Bağırov etnoqraf R.Babayevanın «Abşeronda toy adətləri» adlı monoqrafiyasını istehza ilə «vacib və elmi əsər» adlandırmış, bu, qurultay nümayəndələrinin gülüşünə səbəb olmuşdur. Sov.İKP-nin milli məsələyə aid bütün qərarları başqa respublikalarda olduğu kimi, Azərbaycanda da mexaniki



olaraq əldə əsas tutulurdu. 1956-cı ildə Sov.İKP-nin XX qurultayı ilk dəfə olaraq geniş ictimaiyyətin diqqətini milli münasibətlər sahəsində yığılıb qalmış bir sıra problemlərə yönəltdi. Bu sahədə baş verən əyintiləri partiya şəxsiyyətə pərəstişdə, «Lenin milli siyasətinin və ümumiyyətlə sosializmin deformasiyasında görürdü. Bu «müddəa» SSRİ-nin dağılmasınadək milli münasibətlər sahəsində baş verən neqativ hadisələrin əsas səbəbi kimi qələmə verilirdi. 1961-ci ildə Sov. İKP-nin XXII Qurultayı ölkənin «kommunizm quruculuğu illərinə» qədəm qoyduğunu, «xalqların yeni tarixi birliyi-sovet xalqının» formalaşdığını elan etdi və millətlərarası münasibətlərin daha da «təkmilləşdirilməsi» zəruriliyini qeyd etdi. Durğunluq dövründə isə bu sahədə heç bir problem olmadığı bildirilirdi. Əslində isə xalqların milli anlamfeləri deqradasiyaya uğramaqda davam edirdi» (4, 199-200). Sov.İKP-nin XXII qurultayından keçən dövrdə xüsusən, 1965-ci ildən başlayaraq bütün keçmiş SSRİ-də, o cümlədən Azərbaycanda «yeni sovet adət və ənənələri», «sovet adətlərinin sovet insanının formalaşdırılmasında rolu», «Bayram və adətlərin yeni sovet məzmunu», «sovet adətləri və mənəvi mədəniyyət» və s. bu kimi mövzular işlənilmişdir. Belə məsələləri nəzərə alsaq, Azərbaycan etnoqrafiya elmində mənəvi mədəniyyət problemlərinin öyrənil-məsində siyasi konyukturadan irəli gələn çətinliklərin, məhdudiyyətlərin elmi tədqiqatların geniş xarakter almasına ciddi maneə olduğu aydınlaşar. Digər bir tərəfdən, XX yüzilliyin ikinci yarısında bir çox sahələrin, xüsusən, mənəvi mədəniyyətin tədqiqi prosesinin həm də etnoqrafiya elminin inkişafı nəticəsində genişləndiyini də nəzərə almaq lazımdır.

Azərbaycan etnoqrafiya elmində mənəvi mədəniyyətin bir çox sahələri kimi qonaqpərvərlik də yalnız XX yüzilliyin ikinci yarısından tədqiqat obyekti olmağa başlamışdır.

Müxtəlif şair və yazıçıların əsərlərini, atalar məsəllərini

araşdıran H.Quliyev qonaqpərvərliyin köklərinin ibtidai icma dövrünə gedib çıxdığını, Azərbaycan xalqının qədim zamanlardan maraqlı və ibrətamiz qonaqpərvərlik adətlərinin olduğunu bildirir. Etnoqraf dağlarda yolunu azan, gecəyə düşən yolçular üçün tikilmiş «aman evləri»n qədim dövrdən xalqımızın qonaqpərvərliyinin təzahürü sayıldığını, Azərbaycanda bir neçə qonaq qarşılamaq forması olduğunu, qonağa yemək verilərkən xüsusi qaydaların tətbiq edildiyini yazır. Azərbaycan qonaqpərvərliyini başqa xalqların qonaqpərvərliyi ilə müqayisə edən müəllif karvansaraların, mehmanxanaların meydana gəlməsi ilə bir çox xalqlarda qonaqpərvərliyin zəiflədiyini açıqlayır (7, 8).

Gəncə bölgəsinin xalq adətlərini təhlil edən Ş.Salehov qonaqpərvərliyə azərbaycanlıların etnik özünəməxsusluğu kimi baxır, bu haqda məşhur səyyahlar Aleksandr Düma, Antoni Cenkinsonun məlumat verdiyini bildirir. Ş.Salehov azərbaycanlılar arasında qonşuluq münasibətlərinin də mühüm olduğunu qeyd edir, «Qonşu qonşuya baxar, özünü oda yaxar», «Qonşu qonşuya köməyə gedər» kimi atalar sözlərini misal gətirərək, qonşulara köməyi mənəvi mədəniyyətin ayrılmaz hissəsi kimi araşdırır (9, 105-108).

Qonaqpərvərlik əslində ailə məişətinin ayrılmaz hissəsidir. Xalqımızın bu adətinə ailədən kənarda baxmaq xeyli çətindir. Azərbaycan etnoqrafiya elmində ailə məişətini öyrənən etnoqraflar qonaqpərvərlik adətini də araşdırmışlar. Bu adətin Azərbaycan ailəsində rolunu, funksiyasını üzə çıxarmışlar. Məsələn, N.Quliyeva əcnəbi səyyahların əsərlərinə əsaslanaraq, qonaqpərvərliyin Azərbaycan xalqının simasına çevrildiyini yazır (6, 170-183). Digər bir əsərində müəllif qonaqpərvərliyə Qafqaz xalqlarının ictimai həyatında və ənənəvi məişətində mühüm norma kimi baxır. Çoxsaylı faktlara əsaslanan etnoqraf belə bir nəticəyə gəlir ki, qonaqpərvərlik öz əhəmiyyətinə görə digər ictimai institutları geridə qoyur,



onun yerinə yetirilməsinin vacibliyi digər davranış qaydalarını ikinci plana keçirir. Kənd əhalisi arasında qonağın gəlməsinin xüsusi canlanma və maraq yaratdığını, kəndlilərin eyni zamanda onu qoruduğunu, himayəyə götürdüyünü vurğulayan etnoqraf qonaq üçün xüsusi otaq ayrıldığını, buraya xeyli adamın yığıldığını, ona suallar verdiklərini də qeyd edir. N.Quliyeva qonaq üçün xüsusi süfrə açıldığını, musiqiçilər çağırıldığını bildirir, xalq məişətində özünə möhkəm kök salan qonaqpərvərliyin asudə vaxt keçirməsinin bir forması olduğunu göstərir: «Keçmişdə olduğu kimi Azərbaycanda indi də qonağın qohumlar və qonşular tərəfindən çağırılması adəti var. Keçmişdə əgər müəyyən səbəbdən ev sahibi yoxdursa, qonağı onun həyat yoldaşı və ya evdəki böyük qarşılayardı. Axşamlar qonağın ətrafına ev sahibinin qohumları, qonşuları, həmkəndliləri yığışardı, onlar üç-dörd saat söhbət edərdilər» (5, 89).

Azərbaycanlıların dünyagörüşündə, məsəllərində, maddi mədəniyyətində özünə yer tapan qonaqpərvərliyi milli kimliyin sübutu sayan T.Babayev «Qonaq Tanrı amanında», «Qonaqsız evin bərəkəti olmaz», «Qonaq sevənin süfrəsi boş olmaz», «Qonaqlı evin çörəyi tükənməz, həmişə bol olar», «Çörəkli evin qapısı açar görməz» zərbi–məsəllərin mahiyyətini açır, qonaqpərvərliyi xalqımızın özünənməxsusluğu kimi təqdim edir: «Dədə-babadan xalqımız qonaq otaqlarının yar-yaraşığına, səliqə səhmanına xüsusi diqqət yetirib. Qız-gəlinlərimiz xalça-palaz toxuyanda, nənələrimiz-analarımız yorğan döşək sırıyanda, yastıq düzəldəndə ilk növbədə qonaq otaqlarını nəzərlərində canlandırıblar» (2, 55). Daha çox etnoqrafik etüd janrında yazılan bu yazı uzun illər aparılan etnoqrafik tədqiqatların, etnoqrafik, arxeoloji ekspedisiyaların bədii dillə verilən ümumiləşdirilmiş nəticəsidir. T.Babayev qonaqpərvərliklə bağlı inanclara diqqəti çəkərək qonaqpərvərliyin xalqımızın məişətində xüsusi yer tutduğunu, əsl insani keyfiyyət

olduğunu qeyd edir.

Gürcüstanda tarixi torpaqlarında yaşayan Azərbaycanlıların mənəvi mədəniyyətini tədqiq edən Ə.Əliyev qonaqpərvərlik adətlərinin bütün insani keyfiyyətləri özündə cəmləşdirərək ləyaqət, hörmət, ehtiram nuru kimi xalqımızın iliyinə, qanına hopduğunu, əxlaqi dəyərlərimizə bir daha şəffaflıq gətirdiyini göstərir (8, 22).

M.Allahmanov Azərbaycanın qərb bölgəsinin mənəvi mədəniyyətini tədqiq edərkən qonaqpərvərliklə bağlı məsələlərə xüsusi diqqət yetirir. Etnoqraf vurğulayır ki, xalqımızın qonaqpərvərlik ənənəsi haqqında torpağımıza qədəm qoyan bütün Avropa və rus səyyahları, alim və yazıçıları yazıblar, onlara göstərilən qayğı və hörmətdən danışıblar: «El-obanın adətinə görə qonaq istənilən vaxt qəbul edilər, ona xüsusi hörmət göstərilərdi. Hətta qonaq özünün xəbəri olmadan ayaq basdığı kasıb evin son tikəsini yeyə bilər. Ev sahibi bunu bildirməz. Ev yiyəsi öz qonağını ləyaqətlə qarşılayıb yola salmaq üçün borca düşməyə belə hazır idi. Çünki qonağın yaxşı qarşılanması təkcə ev yiyəsinin deyil, həm də el-obanın adına hörmət gətirərdi» (1, 21). Etnoqraf qonaqpərvərliyə təkcə bir ailənin deyil, bütövlükdə bir kəndin, elin simasını müəyyənləşdirən amil kimi baxıldığını göstərir. M.Allahmanovun araşdırmasına görə, qonaq ev yiyəsinin düşməni də olsa belə, hətta qan düşmənçiliyi olsa adətə görə ev yiyəsi ona hörmət etməli, düşmənlərdən qorunmaq üçün ona pənah gətirən qonağına sığınacaq verməli, onu qorumalı, müdafiə etməli idi. Yeri gəlmişkən qeyd edək ki, bir sıra əsərlərdə, tarixi faktlarda azərbaycanlının məhz qonaq olduğuna görə öz düşmənini öldürməməsi, hətta sığınacaq verməsi, onu qoruması kimi məlumatlar əksini tapmışdır.

Azərbaycan etnoqrafiya elmində qonaqpər-vərliklə bağlı ən geniş tədqiqat Ş.Bünyadovaya məxsusdur. Müəllif qədim və orta yüzillik mənbələri, ədəbi nümunələr və etnoqrafik



materiallar əsasında bu adəti geniş tədqiq etmişdir. Azərbaycan mədəniyyətinin öyrənilməsinin bilikləri dərinləşdirdiyini, xalqımızın bəşər sivilizasiyası tarixində tutduğu əvəzsiz yeri müəyyənləşdirdiyini bildirən etnoqraf monoqrafiyasında xalqın mədəniyyətinin formalaşmasına onun həyat tərzinin həlledici təsir göstərdiyini, məişətdə isə müxtəlif adət və ənənələrin formalaşaraq inkişaf etdiyini göstərir. Ş.Bünyadova ədəb xəzinəsi kimi qiymətləndirdiyi qonaqpərvərlikdə milli xarakter, özünüdərk və digər milli dəyərlərin məcmusunun əks olunduğunu bildirir: «Xalq öz həyatının canlı lövhələrini, məişət tərzini qonaqpərvərlikdə yaşatmış və onu daim davam etdirməyə çalışmışdır. Qonaqpərvərliyin mahiyyətində dostluq, səmimiyyət, şəfqət, mehribançılıq, ehtiyacı olana əl tutmaq, yardım etmək kimi yüksək insani keyfiyyətlər durur. Bu kimi keyfiyyətlər müəyyən adət və ənənələrin icrasında və davranış qaydalarında öz əksini tapır. Bu isə ev sahibinin mənəvi-əxlaqi keyfiyyətlərinin aynasıdır. Azərbaycanda qonaqpərvərlik adəti hər zaman ən mükəmməl şəkildə yerinə yetirilmişdir» (3, 11). Etnoqrafiya elmində mənəvi mədəniyyətin mühüm elementi olan qonaqpərvərliyin öyrənilməsi baxımından ilk təşəbbüs olan monoqrafiyada qonaqpərvərliyin mahiyyəti, qonağın qəbul edilməsi, saxlanılması, yola salınması və s. mərasimlər geniş şərh edilir, yazılı mənbələrdəki, orta yüzillik müəlliflərinin əsərlərindəki qonaqpərvərliklə bağlı məsələlərə xüsusi diqqət yetirilir. Bu yanaşma Azərbaycanda qonaqpərvərliyin təşəkkülü, tarixi inkişaf mər-hələlərini izləməyə imkan verir. Ş.Bünyadova qonaqpərvərliyə Azərbaycan xalqının mənəvi mədəniyyətinin, özünüdərkinin qırılmaz həlqəsi kimi baxır, ailə tərbiyəsi, toy mərasimi, bayramlar, musiqi, əyləncə və s. məsələləri qonaqpərvərliklə qarşılıqlı əlaqədə, kompleks şəkildə təqdim edir. Qonaqpərvərliyin genezisini faktlarla izah etməyə çalışan etnoqraf bu mənəvi

mədəniyyət institutuna həm də mənəvi mədəniyyətlə maddi mədəniyyətin tamlığını yaradan amil kimi yanaşır, Azərbaycan mənəvi mədəniyyətində qonaqpərvərliyin tarixən müəyyən dəyişikliyə uğrasa da, öz mahiyyəti və ənənəvi cəhətlərinin qoruyub saxladığını üzə çıxarır. Şairlər və yazıçıların, orta yüzillik səyyahlarının əsərlərində, şifahi xalq yaradıcılığı nümunələrində qonaqpərvərliyin izlərini axtaran Ş.Bünyadovanın monoqrafiyasını XXI yüzillikdə Azərbaycan etnoqrafiya elmində mənəvi mədəniyyət problemlərinin öyrənilməsi baxımından mühüm bir istiqamət kimi qiymətləndirmək olar. Qeyd etmək lazımdır ki, qonaqpərvərlik adət-ənə-nəsinin etnoqrafik baxımdan öyrənilməsi onun sosioloji, psixoloji tərəfdən tədqiqi zamanı mühüm əhəmiyyət daşıyır. XX yüzilliyin ikinci yarısında Azərbaycan etnoqrafiya elmində qonaqpərvərliyin öyrənilməsi gələcəkdə bu adətin sosoloji-psixoloji aspektlərinin tam aydınlaşdırılması, xalqımızın milli özünüdərkinin xüsusiyyətlərinin geniş tədqiqi üçün vacibdir.

Qonaqpərvərliyin Azərbaycan xalqının milli-mənəvi aləmində müsbət tərəfləriylə yanaşı, mənfi rolunun öyrənilməsinə də ehtiyac duyulur. Akademik T.Bünyadov bildirir ki, qonaqpərvərlik Azərbaycan xalqının ən müsbət keyfiyyəti olmaqla yanaşı, bu adət-ənənə xalqımıza xeyli ziyan vurmuşdur, başqa xalqlara qarşı hədsiz qonaqpərvərlik hissləri bəzi hallarda mənfi proseslərin baş verməsinə gətirib çıxarmışdır. Azərbaycan xalqının qonaqpərvərlik adət-ənənəsindən yararlanan bəzi xalqlar bizə qarşı bəd niyyətlərini həyata keçirmiş, torpaqlarımızı işğal etmiş, tariximizi, maddi və mənəvi mədəniyyətimizi mənimsəmişlər. Məsələn, 1988-ci ildə Dağlıq Qarabağda müxtəlif şüarlarla separatizmə, Azərbaycan torpaqlarının işğalına başlayan ermənilər öncə 1978-ci ildə Martuni (Xocavənd) ucaltdıqları abidəni dağıtdılar. Halbuki həmin abidə ermənilərin Dağlıq Qarabağa 150 il əvvəl köçməsi münasibətilə qoyulmuşdu. XIX yüzilliyin



birinci yarısında, 1828-ci ildə Rusiya ilə İran arasında imzalanmış, Azərbaycanın parçalanmasıyla nəticələnmiş "Türkmənçay" müqavi-ləsindən sonra ermənilər müxtəlif yerlərdən Dağlıq Qarabağa köçürülmüşlər. Cəmi 150 il əvvəl Azərbaycan torpaqlarında sığınacaq tapmış, azərbaycanlıların qonaqpərvərliyindən sui-istifadə edən ermənilərin zaman-zaman işğala əl atması, millətimizə qarşı soyqırımlar törətməsi, son 20 ildə bir milyon soydaşımızı qaçqın-köçkün vəziyyətinə salması, 20 faiz torpaqlarımızı işğal etməsi və s. bir faktdır. Etnoqrafik tədqiqatlarda, xüsusən, Dağlıq Qarabağda usta və ya fəhlə ermənilərin gördükləri iş müqabilində əmək haqqı əvəzinə kiçik bir torpaq sahəsi alması və s. kimi məsələlər də əksini tapmışdır. XIX yüzillik və XX yüzillik boyu Azərbaycan xalqının üzləşdiyi müharibələr, işğallar, soyqırımlar zamanı başqa xalqların nümayəndələrinin ona göstərdiyimiz qonaqpərvərliyin əvəzini nankorluqla, xəyanətlə ödəməsi haqqında yüzlərlə məlumat, mənbə vardır. Belə faktlar dolayısıyla, azərbaycanlıların müsbət keyfiyyəti sayılan və başqa xalqlara qarşı hədsiz qonaqpərvərliyinin, eyni zamanda başqa xalqların etnik özünəməxsusluğunun, mənəvi mədəniyyətini ətraflı şəkildə öyrənməməyimizin, buna laqeyd yanaşma-ğımızın, bir sözlə, yüzilliklər boyu buraxılmış səhvlərin acı nəticəsidir. Gələcəkdə yeni problemlərlə üzləşməmək üçün milli kimliyimizin vacib elementi olan qonaqpərvərliyin mənəvi, psixoloji, etnoqrafik baxımından hərtərəfli öyrənilməsi, onun mənfi tərəflərinin hardan qaynaqlandığı, tarix boyu bizə gətirdiyi faciələr də etnoqrafiyanın və s. elm sahələrinin tədqiqat obyekti olmalıdır.

### *Qaynaqlar*

*1. Allahmanov M.Q. XIX yüzillik-XX yüzilliyin əvvəllərində Azərbaycanın qərb bölgəsinin mənəvi mədəniyyəti (tarixi- etnoqrafik tədqiqat), tar.elm.nam.diss. avtoreferatı, Bakı: 1998, 26 s.*

2. Babayev T.A. Ömrünüzə nur calansın, Bakı: Azərnəşr, 2000, 62 s.

3. Bünyadova Ş.T. Azərbaycan qonaqpərvərliyi. Bakı: Elm, 2005, 151 s,

4. Kərimov E. Ə. Azərbaycanda çağdaş etnik durum. 1940-1990-cı illər // Tarix və onun problemləri, 1998, №1, səh.197-208

5. Кулиева Н.М. Современная сельская семья азербайджанцев (По материалам западной зоны Азербайджанской Республики), Баку:Элм,1992, 115 с.

6. Quliyeva N.M. Azərbaycanda çağdaş kənd ailəsi və ailə məişəti. Bakı: Elm 1997, 205 s.

7. Quliyev H.Ə. Qonaq və qonaqpərvərlik //Elm və həyat, 1971, № 4, s.8-10

8. Əliyev Ə. (Təhləli) Haqqın gözü tərəzidir (etnoqrafik düşüncələr), Bakı: Azərnəşr, 2006, 60 s.

9. Salehov Ş.M. Gəncə zonasında yaşayan əhalinin bəzi xalq adətlərinə dair / Resp. arxeoloq və etnoqraflarının I elmi konfransının materialları, Bakı: Elm, 1992, s.105-108



*dr.* Vüqar ZİFƏROĞLU

## MİLLİ MƏNƏVİ DƏYƏRLƏR VƏ MEDİA

Yaşadığımız XXI yüzillik kəskin ziddiyyətləri ilə zəngin olan qarışıq, «mədəni dünya»nı özündə təcəssüm etdirməkdədir. Zahirən bəzəkli görünən bu dünya, öz acımasız qanunları ilə maraqlar və iddialar üzərində qurulmaqla yanaşı mənəvi dəyərlərin deqradasiyasına da səhnə olmaqdadır. Mənəvi-mədəni irsə etinasız münasibət təəssüf doğuracaq haldır və bu etinasızlıq xalqı öz tarixi yaddaşını itirməyə sürükləyə bilər.

Nə yazıq ki, bu deqradasiyasının katalizatoru gündəlik həyatımızı bir anlıq olsun belə onsuz təsəvvür etmədiyimiz media – mətbuat, televiziya, radio və internetdir. İnsanın öz dəyərlərini itirərək, gözünü maddiyyata və ambisiyalarına çevirməsində, onun öz daxili aləmini çirkləndirməsində medianın rolu böyükdür.

Kütləvi informasiya vasitələrinin necə böyük bir gücə malik olması barədə söhbət açmaq yersiz olardı. KİV bu gün bütünlüklə ayrı bir dünyadır və bu dünya öz sosial-psixoloji təsiri mahiyyəti ilə əvəzedilməz və müqayisəyəgəlməz dərəcədə böyük təsir gücünə malikdir. Bu gün kütləvi informasiya vasitələri bizim gündəlik həyatımızın tərkib hissəsinə çevrilib. Çünki onsuz həyatımızın hansı istiqamətdə axın edəcəyini düşünmək qeyri-mümkündür. Bu, günümüzün reallığıdır. Lakin gəlin bir anlıq təsəvvür edək: nəinki gündəlik iş rejimimizə, hətta şüurlarımıza və bilavasitə şəxsiyyət kimi inkişafımıza birbaşa təsir etmək gücünə malik KİV düzgünlük, vətənpərvərlik, demokratiya və insan hüquqlarına hörmət etmək əvəzinə, zorakılığı, milli diskriminasiyanı, cəmiyyətin bir çox eybəcərliklərini qabardır və bir növ bu eybəcərliklərin təb-

liğatçısına çevrilir. O zaman istər cəmiyyətin, istərsə də ayrı-ayrı fərdlərin müsbət yöndə inkişafından danışmağa dəyərmi?

Çağdaş jurnalistikanın dinamik inkişafı və informasiya məkanının qloballaşması dünyanın istənilən nöqtəsinə öz təsirini göstərib. Mətbuat, televiziya və radio, multimedia və internet şəbəkələri milyonlarla insanın evinə girməkdədir. İnformasiya axını ictimai proseslərin idarə edilməsində əhəmiyyətli rıçaqlardan birinə çevrilib. Və bütün bunlarla yanaşı qeyd edilməlidir ki, güclülər informasiyanın toplanması, saxlanması, işlənməsi, yayılması və istehsalı proseslərində də öz qayda və qanunlarını diqtə edirlər. Lord Biverbrukun bir zamanlar dediyi kimi, «Mən qəzeti təbliğat aparmaq üçün nəşr edirəm, başqa məqsədlər üçün yox» (Royal commission on the press: Memoranda of evidence 4. London, 1962. s. 78). Dünya informasiya bazarında cəmi 9 şirkətin söz sahibi olmasının özü bunu əyani olaraq sübut etməkdədir. Birbaşa diqtə və senzura çağdaş dünyamızda tarixdə qalmış bir nəsnədir, lakin indi iqtisadi gücə malik korporasiyalar (və şübhəsiz ki, onların arxasında duran güclər) beynəlxalq rəyi nəzarətdə saxlamaq məqsədi ilə ustalıqla media gücündən istifadə edirlər. Məşhur Rusiya jurnalist nəzəriyyəçisi S. Mixaylovun da yazdığı kimi, həmin korporasiyalarla əlbir şəkildə «dövlət orqanları da aktiv olaraq xəbərlərin manipulyasiyası prosesində iştirak edirlər, məsələn bunu biz, Amerika Birləşmiş Ştatlarının timsalında görə bilərik». Bu zaman isə artıq kütləvi informasiya vasitələri ilə yad mədəniyyətlərin ekspansiyası prosesi ilə qarşı-qarşıya gəlmək təhlükəsi ilə üz-üzə qalırıq.

Bu gün ölkə mediasındakı vəziyyəti nəzərdən keçirərkən heç də ürəkaçan mənzərə ilə qarşılaşmırıq.

Kütləvi informasiya vasitələrində gedən materiallarda xalqımızın əxlaq normaları gözlənilməli, bayağı xarakter daşımamalıdır. Biz elə bir zamanda yaşayırıq ki, gənclərimizin mənəvi – əxlaqi zəmində yazılmış məqalələrə böyük ehtiyacı



var. Bu gün kütləvi informasiya vasitələri gənclərimizin milli dəyərlər zəminində tərbiyə olunmasında güclü vasitədir. Xüsusilə, gənc, yeniyetmə qızlarımızın ağır, mürəkkəb zaman kəsiyində düzgün tərbiyə olunmasında KİV böyük qüvvəyə malikdir. Lakin təəssüf ki, elə mətbuat nümunələri var ki, ucuz sensasiya xatirinə, çox vaxt isə milli mentalitetimizə uyğun olmayan yazılarla çıxış edir, gəncliyin mənəviyyatına açıq-aşkar böyük zərbələr vurur. Bazar iqtisadiyyatı dövründə əvəzsiz məfkurə sahəsi olan medianın başlıca məqsədi gəncliyin mənəvi yetkinliyi uğrunda xidmət göstərmək olmalıdır. Təsirli, cəlbedici, məntiqi, reallığa söykənən ibrətli yazılarla mətbuat bu günün problemlərindən söz açmalı, cəmiyyəti maraqlandıran hadisələr barədə tərəfsiz, dəqiq və qərəzsiz informasiya ötürücüsünə çevrilməlidir. Çünki yaradıcılıq üçün ən zəngin mənbə həyatdır, yaşayıb yaradan insanların fəaliyyətidir.

Bu gün igid oğullarını itirmiş anaların, tənha qocaların, həyat yoldaşları qürbətə qazanc dalınca getmiş cavan gəlinlərin, qaçqın şəhərciklərində əlləri qoynunda qalmış qadınların dərd-sərindən yazmaq, işıqlandırmaq bir nömrəli məqsəd olmalıdır. Bu gün inkişaf edən Azərbaycanda avropalaşmanın üstünlükləri olsa da, bunun mənfi tərəfləri də var. TV-də efirə gedən xarici kinofilmlərin, musiqinin təsiri altında formalaşan gənc nəsil ənənəvi mədəni-mənəvi və bədii oriyentirlərdən sürətlə uzaqlaşır. Milli şüura və mentalitetə yad olan və ekrandan təbliğ edilən bu amillər gənc nəsil arasında önəmli yer tutmağa başlayır. Bütün bunlar isə öz növbəsində gənc və daha yaşlı nəsil arasında hətta bəzən keçirməsi mümkün olmayan böyük sədd yaradır, onların biri-birini anlamasını çətinləşdirir.

Söhbətlərində, geyim-geçimlərində, xalqının milli-mənəvi dəyərlərinə, tarixinə, adət-ənənələrinə laqeyd qalan gənclərin taleyi, cəmiyyətdə «avropalaşmaq» adı ilə özünə yer tapmağa

başlayan mənəvi deqradasiya mediada həyəcan təbili çala bilmir. Əvəzində isə, sensasiya doğuran, qeybət xarakterli bəsit xəbərlər, milli psixologiyamıza qətiyyən uyuşmayan, yüz ildə bir dəfə təsadüfən baş vermiş bayağı nəsnələr, incəsənət ulduzlarının şəxsi həyatında baş vermiş anlamsız, cəmiyyət üçün heç bir əhəmiyyəti olmayan hadisələr, abırsız şəkillər, kollajlar mediada istənilən qədərdir. Bəzi mətbuat orqanları tarixi ənənələrimizdən uzaq düşür, öz kökümüzə balta vurur, satira əvəzinə söyüş, tənqid əvəzinə təhqir yazırlar.

Böyük və ciddi məsələlərdən biri də ölkədə sektant qrupların, missionerlərin, özünü əsl müsəlman kimi qələmə verən qeyri-ənənəvi təriqətlərin surətlə artmasıdır. Bütün bunlar gənclərə böyük təsir göstərir, onları milli-etnik kökdən ayırıb, özgə dünyagörüşünün, yad mənəviyyatın və dinin quluna çevirir.

Bu cür fəaliyyət təkcə jurnalistikanın praktikasına deyil, milli-mənəvi dəyərlərimizə, əxlaq və etik normalara da ziddir.

Qloballaşma, dünya mədəniyyətinə inteqrasiya, dinlər və mədəniyyətlərarası dialoq prosesinə cəmiyyətimizin sosial-mədəni reaksiyası, mənəvi-əxlaqi dəyərlərimizin dirçəldilməsi və ən azından, KİV ilə təbliğinə qanunauyğun bir meyl doğurur. Və bu cür təbliğat da islamın zahiri görünən və qəbul edilən atributları ilə paralel olaraq, onun həqiqi mədəni-mənəvi normaları sistemi kimi mahiyyətinin dərk edilməsi, dinimizin yüzilliklərin (və ölkələrin!) sərhədlərini hansı dəyərlərin əzəməti ilə aşa bilməyə qadir olması haqda aydın təsəvvürlər yaradılmasını aktual məsələyə çevirir.

Ümumbəşəri qlobal dəyərlərin və prinsiplərin reallaşdırılmasında «İslam faktorunun» Qərbdə formalaşmış yanlış stereotip kimi deyil, dioloq, əməkdaşlıq, kompromis kimi əməl müddəaları anlamsında başa düşülməsi qlobal ünsiyyətin potensial mexanizmi kimi qiymətləndirilməsinin vaxtı gəlib çatmışdır. Qərb üçün təhlükə kimi qələmə verilən «İslam



intibahının», islamın təsir ·gücünün, nədən ibarət olmasını aydınlaşdırmağa bu gün çox səy göstərirlər. Və təbii ki, bu məsələni də KİV- siz, xüsusən də radio və TV-siz həyata keçirmək, həll etmək mümkün deyildir.

***P.S.** Sonralar ABŞ-da böyük media korporasiyanın əsasını qoymuş və XIX yüzilliyin sonlarında XX yüzilliyin əvvəllərində yaşamış Vilyam Rendolf Herstin Kuba adasındakı müxbirinə məşhur məktubu var. Herst həmin məktubda öz müxbirinə yazır: «Sən Kubada qalmaqda və mənə orada baş verənlərlə bağlı məlumatları və şəkilləri göndərməkdə davam et. Müharibəni başlamaq isə mənim boynuma». Həqiqətən də Herstin nəzarəti altında olan qəzetlərdə aparılan iyrənc təbliğat tez bir zamanda Kuba üstündə ABŞ-la İspaniya arasında müharibənin başlamasına səbəb olur.*

Elcan SALMANQIZI

## MEDİA QLOBALLAŞMA DÖVRÜNDƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİ QORUYA BİLƏRMİ?

Azərbaycanın ictimai-siyasi leksikonuna ötən yüzilliyin sonlarında "demokratiya", "açıq cəmiyyət", "insan hüquqları" və sair kimi terminlərlə yanaşı daxil olan "qloballaşma" terminini ilk dəfə 1983-cü ildə Ronald Robetson işlətsə də, onun nəzərindəki "qloballaşma" prosesi bugünkü anlamdan çox-çox fərqli idi. O, qloballaşmanı ilk növbədə mədəniyyət və insan şüuru sahəsinə aid edirdi. Təbii ki, Robetsonun diqqət yetirdiyi bu məsələ bəşəri təkamülün bütün tarixi boyunca aktual olan, amma həllini tapmayan bir məsələ idi. Sadəcə, Robetson bu ifadəni elə bir zamanda dövriyyəyə buraxmışdı ki, o zaman dünya ağalığı uğrunda çarpışan iki qütbün, ABŞ və SSRİ siyasi liderlərinin ümumi dil tapa bilməmələri üçüncü minillik ərəfəsində ümumən planeti labüd məhvolma təhlükəsi ilə üz-üzə qoymuşdu. Planeti kosmik müharibələr faciəsinə sürükləyən siyasiləri qarşılıqlı güzəştli dialoqa məcbur etməyin yeganə yolu məhz bəşəri tərəqqipərvər düşüncənin birləşmiş gücü ola bilərdi. Məhz bu reallıq "qloballaşma" terminini fəlsəfi düşüncənin prioritetləri sırasına çıxardı.

XX yüzilliyin 80-ci illərinin ortalarında qloballaşma artıq "humanist düşüncənin önə çıxmasını zəruriləşdirən beynəlxalq sosial sifariş" kimi təsniflənməyə başladı. XX yüzilliyin 90-cı illərində SSRİ imperiyasının çöküşü ilə yaranmış yeni geosiyasi reallıq müəyyən dairələri birqütblü dünyanın şəriksiz və nativsiz güc mərkəzi sevdasına saldı. Məhz bu andan etibarən, daha dəqiq desək, birqütblü dünyada yalnız bir tərəfin istəyi ilə uzlaşan həyat tərzi formalaşdırmaq, hər şeyi bir tərəfin diqtəsinə tabe etdirmək niyyətinin qabarmasından sonra "qloballaşma" termininin anlam tutumunda da, onun



mahiyyətinə baxışlarda da, ümumiyyətlə, qloballaşma prosesinin özünə münasibətdə də ciddi şaxələnmələr, fikir ayrılıqları başladı. Və az qala 20 il öncə yaranmış bu amorf vəziyyət dəyişməz olaraq qalır. Bu günümüzün özündə belə qloballaşma prosesinin mahiyyəti və perspektivlərinə müxtəlif baxışlar mövcuddur. Bir çoxları qloballaşmaya məhsuldar qüvvələrin təkmilləşdirilməsi amili kimi baxır, ona cəmiyyətin inkişafında aparıcı qüvvə kimi yanaşır. Digər mütəxəssislər isə qloballaşmaya cəmiyyətin normal inkişafındakı ahəngi pozan, cəmiyyətdəki sosial-siyasi və iqtisadi qeyri-bərabərliyi daha da dərinləşdirən, bəşəriyyətin tarixi inkişafını çıxılmaz böhran şəraitinə çatdıran təhlükəli bir proses kimi baxırlar. Məhz bu cür ikili yanaşmanın nəticəsində "qloballaşma"nın əsl mahiyyəti bəşər sakini üçün müəmma olaraq qalır və planet sakinlərinin mütləq əksəriyyətinin dünyada gedən siyasi və iqtisadi proseslərin "gizli" tərəflərini yetərincə qiymətləndirməsinə mane olur. Bu cür qeyri-müəyyənlik isə bəzi hallarda "qloballaşma"nın digər proseslərlə, məsələn, "beynəlmiləlçilik", "inteqrasiya", "regionlaşma", "tran-smilli iqtisadiyyat" və sair anlayışlarla qarışdırılmasına səbəb olur ki, bunun da məntiqi yekunu bu və ya digər cəmiyyətə paradoksal situasiyalar şəklində proyeksiya olunur: milli müstəqilliyi və ya milli özünəməxsusluğu, hətta milli eqosentrizmi dəstəkləyən siyasilər də "qloballaşma" tərəfdarı kimi çıxış edirlər. Təbii ki, bu baxımdan Azərbaycan cəmiyyəti də istisna deyil və ümumiyyətlə, bu gün Azərbaycan cəmiyyətinin istənilən ictimai-siyasi hadisəsinə "qloballaşma"nın müəyyən təsirinin proyeksiyası kimi baxmaq olar. Odur ki, qloballaşma prosesi ilə bağlı geniş diskussiyaların aparılmasına, Azərbaycanın bu prosesdə yerinin müəyyən edilməsinə ciddi ehtiyac var. Və şübhəsiz ki, bu diskussiyaların predmeti dəqiq müəyyənləşdirilməli, bir sıra konkret suallara cavab tapılmalıdır: *1. Azərbaycan xalqı bu prosesdə özünəməxsusluğunu saxlaya*

*biləcəkmi? 2. Qloballaşma müstəqilliyimizə, milli kimliyimizə və milli-mənəvi dəyərlərimizə zidd proses deyil ki? 3. Bu proses millətçilik sindromu ilə soyuq müharibə aparmır ki? 4. Qloballaşmanın nəticəsi manqurtlaşma deyil ki? 5. Qloballaşma onun tərəfdarlarının anlamında sivilizasiyalararası "gizli müharibə" mahiyyəti daşımır ki?*

Məsələnin ən primitiv dəyərləndirməsi belədir: qloballaşma "lokallaşma"ya əks prosesdir. Qloballaşmanı xarakterizə edən başqa bir xüsusiyyət isə onun həmişə əks prosesə, yəni "lokallaşma" meyllərinə təkan verməsidir. Bu sırf özünümüdafiə instinktindən qaynaqlanan psixoloji bir məsələ olsa da, hər halda diqqətdən qaçırılması mümkünsüzdür. Qloballaşmaya müqavimət göstərənlər, bir qayda olaraq, öz mövqelərini milli-mənəvi və tarixi dəyərlərin qorunmasının vacibliyi amili ilə əsaslandırmağa çalışırlar ki, bu faktorun da kütlə şüuruna çevik əks-təsirini, müqavimət hissi doğurması gerçəkliyini danmaq olmaz. Bu, bəşər tarixinin əvvəlki dövrlərində təzahür etmiş qloballaşma prosesləri üçün də, çağdaş qloballaşma meyli üçün də eyni dərəcədə xarakterik olan cəhətdir. Çünki çağdaş qloballaşma özündən əvvəlki analoji proseslərdən çox da fərqlənməyərək, mahiyyətcə iqtisadi və siyasi, formaca ideoloji və mənəvi xarakter daşıyır. Çağdaş qloballaşmanın, əsasən ABŞ-ın nəzarətində olan və onun marağına xidmət edən amerikasayağı düşüncənin şərtləndirdiyi həyat tərzinin dünyanın hər yerində dominanta çevrilməsini nəzərdə tutduğu heç kimə sirr deyil. Əsl niyyətlər isə heç vaxt heç bir şəkildə açıqlanmır; hər şey planet sakinlərinin azad yaşamaq, azad yer dəyişmək, azad ticarət etmək istəyinin məntiqi yekunu olan təbii proses kimi qələmə verilir, ən azı beynəlxalq ictimai rəyin məhz bu kontekstə köklənməsi yönündə ciddi cəhdlər edilir.

Ölkəmizin ərazisində min illər boyu bir çox mədəniyyət sistemləri təbii proseslər axarında inteqrasiya olunmuşdur. Faktiki olaraq Azərbaycanda mədəniyyət sistemlərinin çulğalaşması nəticəsində yeni təbii modellər sistemi yaranmışdır. Bəşəriyyətin inkişaf strategiyalarının seçilməsində Azərbaycan mühitində formalaşan təbii modellərdən faydalanmaq zəruri və effektlidir. Bu təbii modellər araşdırılıb ortaya bir sərvət, bir ideya kimi qoyulmalı və müştərək istifadə olunmalıdır. Belə modellərin tətbiqi bəşəriyyət üçün ölkəmizin enerji resurslarından bəhrələnməkdən daha üstündür. Azərbaycan mədəniyyət sistemlərində həm Şərq, həm də Qərb mədəniyyətinin bir çox gözəl cəhətləri artıq çoxdan çulğalaşmışdır. Bu mədəniyyət sistemində "kosmo" amil güclüdür, qəlb dünyası olduqca genişdir. Muğamlarımız, xalılarımız, həqiqi poeziyamız, Bakının siması, şəhər memarlığındakı Qərb üsulu Şərqin aurasında cilalanmış, rövnəqlənmişdir. Ailə münasibətləri, nəsillər arasındakı münasibətlər, davranış normaları və bir çox başqa sahədə formalaşan modellər bütün bəşəriyyət üçün önəmli anlam kəsb edir. Onların dünya miqyasında öyrənilməsi və tətbiq edilməsinin bizdən daha çox dünya üçün vacibliyi həqiqətini bəşəri düşüncəyə aşılamaq məsələsi isə ən problemli məsələdir. Biz bunu bacarırıqmı? Çiynimizə düşən məsuliyyətli vəzifəni layiqincə yerinə yetirə bilirikmi? Eləcə də bir millət olaraq milliliyimizi və özünəməxsusluğumuzu xarakterizə edən digər milli-mənəvi dəyərlərimizin, tariximizin təbliği və bu yöndə maarifləndirmə işi yüksək səviyyədə aparılırmı? Haqqında danışmaq istədiyimiz dəyərlər aid olduğu ölkənin ictimai formasiyasından, siyasi quruluşundan, geostrateji mövqeyindən asılı olmayaraq formalaşır. Bu tip məxəzlər tarixi və milli etnik zənginliklə bağlıdır. Ona görə də zaman və məkan dəyişsə də, milli-mənəvi dəyərlər dəyişmir, yəni dəyişməməlidir. Dəyərlərin deformasiyaya uğraması ya birbaşa yad ornamentlərin və ünsürlərin sərhədsiz inteqrasiyası ilə, ya da get-gedə formalaşmağa çalışarkən milli mənsubiyyətini unudub nüvədən ayrılan və nəticədə düşüncə istiqamətini və tərzini itirən şüurlarla bağlıdır. Qloballaşma və

genişlənən beynəlxalq münasibətlər nəticəsində korlanan dəyərlərimizin isə hər bir tarixi abidə kimi yenidən qurma və bərpa işlərinə ehtiyacı var. Bəs, yenidənqurma necə həyata keçirilməlidir?

Cəmiyyətin inkişafının müxtəlif tarixi mərhələlərində özünəqayıdışa aparan və milliləşdirməyə yönələn ciddi təsir üsulları formalaşmışdır. Məsələn, Fransada və Türkiyədə ən güclü maarifləndirmə və təsir vasitəsi qəzetlər hesab olunur. Bu bir növ əhalinin seçimindən asılı olaraq müəyyənləşdirilir. Bəs, bizim üçün qloballaşma dövründə milli-mənəvi dəyərlərimizi məhv olmadan və yadlaşmadan qorumağın ən mükəmməl yolu nədir? Mənəvi təmizliyini, mədəni yaddaşını, milli mənsubiyyətini, sabahı göstərən tarixini, millət olmağa çalışarkən kütlə olmaqla məqsədini itirmiş bir xalqı özünə qaytarmaq təbii ki, çətindir. Ümumilikdə qiraəti özünə düşmən elan etmiş bir xalqı özünəqayıdışa səsləmək isə daha çətindir. Bunu həyata keçirməyin yollarını tapmaq və onlardan ən səmərəli şəkildə istifadə etmək ilk başda demək olar ki, imkansızdır. Çünki ən böyük bədbəxtlik ondadır ki, inkişafa aparan yoldayıq desək də, bizdə məhvə aparan "lokal düşünüb, qlobal yaşamaq" ideyası dəbdədir. Bu, əsla və əsla çıxış yolu deyil. Bu günün reallığı isə sübut edir ki, bunun üçün ən güclü vasitə KİV-dir. Oxumağı yadırğamış kütlə üçünsə ən təsirli vasitə təbii ki, telekanallardır. Son günlər milli-mənəvi dəyərlərimizə xidmət edən televiziya proqramlarının olmaması prioritet məsələlər sırasındadır. Bu, haqlı olaraq çox uzun müddət müzakirə obyekti olsa da, dəyişən və inkişafı xatırladan heç bir qeydədəyən iş yoxdur. Telekanallarımız hələ də "az maaşla keçinən" müğənnilərimizi yemək proqramlarında yarışdıraraq onlara pulla, qab-qacaqla maddi dəstək verir. Bu gün faktiki olaraq, ordumuza hyüzillik olunmuş üç-dörd proqram və informasiya proqramları xaricində insana Azərbaycanda olduğunu hiss etdirən heç nə yoxdur. Əslində isə



bizim müharibə vəziyyətində yaşayan bir xalq kimi sahib olduğumuz bütün dəyərlərimizi yaşatmağa və ayaqda tutmağa bu gün daha çox ehtiyacımız var. Bizim qlobal düşünən, lakin lokal yaşayan gənc nəslə ehtiyacımız var. Bu millətı "Cek-sonlaşma" sindromundan xilas etmək üçün insanı mərhəmətin və ilahi bir sevginin ağuşuna alıb ucaldan, saflaşdıran muğamlarımıza, bütün milliliyimizi hər notunda titrədən xalq mahnılarımıza, fərqliliyimizi ortaya qoyan tar-kamana, ud-saza qayıtmaq, bu ögey münasibətə, yad baxışlara son qoymaq lazımdır. Efirdəki musiqi vaxtını ən azı bir il bu mahnılarla zənginləşdirmək kifayətdir ki, soyuyan ruhu yenidən isidib, o doğmalığı, istiliyi bu xalqa geri qaytaraq. Telekanallarımıza hər gün eyni vaxtda işğal olunmuş ərazilərimiz haqqında ən geniş informasiyanı çatdıran, milli atributlarımızı özündə əks etdirən reklam çarxları lazımdır. Həm də eyni vaxtda olmalıdır ki, insanlar məcburən də olsa, baxsın. Efirə tarixi və mədəni məxəzlərimizi, milli və mənəvi dəyərlərimizi təbliğ etmək üçün həvəsli, vətənpərvər və peşəkar jurnalistlərin çıxarılması isə daha vacibdir. Çünki çox zaman sözün ifadəsindəki təsir gücü onun anlamsındakı təsir gücündən daha dərin olur. Bu işi istəyən və bacaran insanlara etibar etmək lazımdır. Bu gün Azərbaycan efir məkanının "Xonça", "Ovqat", "Can Azərbaycan", "Keçmişdən səslər", "Ana torpaq", "Xalq Ulduzu", "Dahilərin divanı" və sair kimi proqramlara ehtiyacı var. Efirin ən böyük problemi isə əksər proqramların formatının hansısa bir xarici telekanalın (bu, çox hallarda Türkiyə kanalları olur) proqram formatının plagiatı olmasıdır. Bu proqramlar hazırlanarkən hansı kriteriyalar əsas götürülüb, bizim efirə yaraşarmı, uyğunlaşarmı - bu suallar heç kimi maraqlandırmır. Lakin həmin proqramın orijinal variantına diqqət yetirən olsa, görər ki, burda ölkənin müxtəlif ərazilərindən, müxtəlif xalqlardan, müxtəlif dinlərdən, fərqli sosial siniflərdən insanları bir araya gətirmək və bununla da

müxtəlif zövqləri həm birləşdirmək, həm də ekran başına toplamaq proqramın formatının əsas məqsədini təşkil edir. Telekanallarda ana dilimizin məhvi, tapdanması, yerli-yersiz terminologiya, alınma sözlərdən, hətta bəzən barbarlıq nümunələrindən istifadə edilməsi efir məkanımızda mövcud olan ən çirkin faktlardır. Azərbaycanda ən son elmi nailiyyətləri, dünyada ən son əldə olunan elmi yenilikləri çatdıran və ya elmə hyüzillik olunmuş bir proqram belə yoxdur. Eləcə də mədəniyyətimizə aid. Mədəniyyət deyəndə, şou-biznesə yox, mədəniyyət xadimlərimizə, onların həyat və yaradıcılığına hyüzillik olunmuş proqramı nəzərdə tutduğumuz üçün rahatlıqla belə bir proqram olmadığını deyə bilərik. Eləcə də tariximizə, bugünkü siyasi arenaya, iqtisadiyyatımıza, sosial məsələlərə və təbii ki, milli-mənəvi dəyərlərimizi qorumağa xidmət edəcək proqramların olmaması acınacaqlı bir haldır. Ən böyük maarif ocağı və ən güclü təsir vasitəsi olan efir əyri onurğa sütununu xatırladır, Azərbaycan müstəqilliyinin ikinci onilliyində olsa belə...



**Aydın XAN (ƏBİLLİ)**
**Yeni Yazarlar və Sənətçilər Qurumunun sədri, yazıçı-kulturoloq**

## YENİ NƏSLİN İNTERNETDƏ MİLLİ VİRTUAL KİTABXANASI...

Statistik məlumatlara görə, Azərbaycan əhalisinin yarısından çoxunu, dünyada yaşayan soydaşlarımızın böyük əksəriyyətini yeni nəslin nümayəndələri - uşaq, yeniyetmə və gənclər təşkil edir. Millət olaraq mədəniyyətimiz, psixologiyamız, milli-mənəvi dəyərlərimiz, etnik şüur, mental standartlar, həyat və davranış tərzimiz bir olsa da, qloballaşmanın dağıdıcı, sürətli həmlələri, eləcə də xalqların son illərdəki sıx inteqrasiyası nəticəsində millətimizin idenfikasiya kodları dəyişikliklərə uğramaqda, milli sivilizasiyamızın özünəməxsusluqları unudulmaqdadır. Elektron KİV, yeni telekommunikasiya vasitələri, xüsusən də İnternetin bir çox dağıdıcı təsirinə daha çox gənc nəslin nümayəndələri - uşaq, yeniyetmə və gənclər məruz qalır, onlar ictimai-mədəni varlıq olaraq azərbaycanlı kimi özünüdərk proseslərindən kənarlaşırlar.

Son illər bütün dünyada gedən maraqlı proseslər bizdən də yan ötmür: Azərbaycan daxilində yeniyetmə və gənclər tərəfindən anadilli ciddi ədəbi-bədii, elmi-intellektual kitabları, əsərləri oxumaq, fərqli - şəbəkə mütaliə mədəniyyətini qavramaq, yeni oxu vərdişlərinə yiyələnmək məsələsində ciddi problemlər hiss olunur. Xaricdə yaşayan soydaşlarımız isə milli-mənəvi dəyərlərdən, azərbaycandilli kitab və ədəbiyyatdan kənar qalıblar. Araşdırmalar görə, ölkəmizdə bir qisim gənc kompyuter və İnternet bilgilərinə yiyələnsə də, milli İnternet - qlobal və lokal informasiya-şəbəkə resurslarımızın

zəifliyi, ana dilimizdə gənclərə, yeniyetmələrə uyğun saytların, ciddi, intellektual portalların azlığı, eləcə də elektron - Virtual Kitabxanaların, pulsuz bloq imkanlarının olmaması, onların maraq dairəsini cavab verən proqramların, milli kompyuter oyunlarının hazırlanmaması ona gətirib çıxarıb ki, yeni nəslin nümayəndələri İnternetə əyləncə vasitəsi, əksər hallarda isə erotik, bəzən pornoqrafiya, zorakılığı təbliğ edən materialların saxlanğıcı kimi baxırlar.

Ölkəmizdə "Elektron hökümət", "Elektron məktəb", "Elektron Kitabxana" kimi innovativ proqramlar həyata keçirilməsiylə bağlı dövlət proqramları, genişmiqyaslı planlar isə hələ də arzu olunan səviyyədə həyata keçirilmir. Onsuz da uşaqlar, gənclər üçün yeni əsərlərin və ədəbiyyatın kəmiyyətində, üstəlik də keyfiyyətində problemlər qalmaqdadır. Elektron kitablar, milli oyun proqramları, yeni nəslə ünvanlanmış saytlar, şəbəkə resursları, İnternetdə milli və bilgili resurslar, həmçinin tanışlıq saytları, maraqlı çatlar, təhsil və təlimin səmərəliyini artırmaq üçün digər innovativ-texnoloji vasitələr sahəsində böyük boşluqlar yaranıb. Yeni nəslin elektron poçt, elektron gündəlik - bloq, virtual kitabxana, şəbəkə etikası, İnternet mədəniyyəti, yeni e-oxu və e-yazı vərdişləri, e-ədəbiyyat, elektron və audio (səsli) kitablar, televiziya və radio verilişləri, gənclərə ünvanlanmış xəbər və əyləncə - resursları, mətbuat sahəsindəki boşluqlar isə artıq milli problemə çevrilib, çağdaş humanitar-mədəni düşüncəmizdə - təhsil və yeni nəslin formalaşmasında qlobal böhran səviyyəsinə çatıb. Hələ üstəlik də Azərbaycanda və xaricdə yaşayan gənclər arasında ucuz başa gələn yeni ünsiyyət vasitəsi kimi İnternet - yeni informasiya-kommunikasiya texnologiyaları sahəsində maarifçiliyə kəskin ehtiyac duyulmaqdadır.

Sadalanan problemləri öyrənmək, xalqımızın milli-mədəni dəyərlərinin geniş ictimai sferada təbliği, təhsilə, elmə, yeni texnoloji biliklərə, gənc nəslin sivil inkişafına səy



göstərməkdən, eləcə də qlobal, xalqların inteqrasiyaya meylinin güclü olduğu bir zamanda dünyada millətimizin başqa xalqlardan geri qalmamasından ötrü vaxt itirmədən yuxarıda sadalanan problemlərin həlli istiqamətində ciddi addımlar atmaq lazımdır.

Hər hansı bir dövlətin - millətin sivil inkişafının bir ölçüsü də onun ərazisində yaşayan insanların çağdaş dünya dəyərlərinə olan münasibətidir. Bu baxımdan biz Avropa ölkələrinə çatmaq istiqamətində çox işlər görməliyik.

Zəmanədə istənilən insanın yararlana biləcəyi e-kitablar elektron saxlanğıcı kimi İnternetdə Milli Virtual Kitabxananın dəyərini izah etməyə ehtiyac yoxdur. Respublikada, eləcə də xaricdə yaşayan azərbaycanlı uşaq, yeniyetmə, gənclər, habelə dünyanın istənilən yerindəki soydaşlarımız Azərbaycan ədəbiyyatını və dilini öyrənən xaricilər, həmçinin ədəbiyyatçılar, kulturoloqlar, mədəniyyət sahəsinin mütəxəssisləri, İnternet istifadəçiləri, jurnalistlər, KİV, kitabxanaçılar, dilçilər, filoloqlar, yeni nəslə ünvanlanmış ədəbiyyatın mütəxəssisləri virtual kitabxananın əhatələdiyi qruplar sayılır.

Kulturoloji layihə çərçivəsində yaradılan www.kitabxana.net ünvanlı İnternet portalında yeniyetmə və gənclərin mənəvi-estetik dünyagörüşlərini zənginləşməsindən ötrü e-kitablar hazırlanıb, qlobal informasiya şəbəkəsində pulsuz istifadə üçün yerləşdirilib. Eyni zamanda klassik, dünya, milli ədəbiyyat və kitablar, əsərlər rəqəmsal formata salınıb. Gənclər üçün bloq portalı hazırlanıb, eləcə də onlara Azərbaycan mədəniyyətini, ədəbiyyatını, milli-mənəvi dəyərlərini dünyaya yaymaqda ən yeni texnologiyalardan yararlanmaq öyrədilir. Milli şəbəkə resurslarımızı zənginləşdirmək, gənclərin yazdıqları əsərləri İnternet səhifələr - bloqlar formasında istifadəyə hazırlayıb şəbəkə resursunda yerləşdirməklə milli-mənəvi dəyərlərin qorunması, inkişafı, tanınması istiqamətində dünya azərbaycanlı gənclərini həvəsləndirməyə çalışılır ki, onların bir

araya gəlməsinə çalışılır, çağdaş estetik-bədii söz sənətimizin inkişafına çalışılır. Dünyada yaşayan 50 milyonluq soydaşlarımızın yarısından çoxunda Vətənə, dövlətçiliyimizə, onun tarixinə, mədəniyyətinə, ədəbiyyatına, milli-mənəvi də-yərlərinə, ədəbi-mədəni sərvətlərimizə, ana dilimizə, Azərbay-cançılıq məfkürəsinə marağı gücləndirmək, eyni zamanda, gənc nəslin Qlobal İnformasiya Şəbəkəsində "Virtual Azərbaycan"ı qurmaqda iştirakını təmin etmək isə əsas hədəflər kimi götürülüb.

Azərbaycanda və xaricdə yaşayan yeniyetmə və gənclərin təlim-tərbiyyəsi, intellektual formalaşması, yeni bilgilərin əldə edilməsi, yeni e-oxu və e-yazı mədəniyyətinə yiyələnməsi, Virtual Kitabxanadan yararlanması, yeni nəslin yaradıcı təfəkkürünün inkişafı, şəbəkədən istifadənin səmərəliyinin artırılması baxımından çox gərəkli nəticələr ortaya qoyub. Artıq ilk mərhələdəcə yeni şəbəkə ədəbiyyatı nümunələri yaranıb və kitabxana resursunda yerləşdirilib, yazıçılarımız gənclərə ünvanlanmış ədəbiyyat, poeziya, bilgili əsərlər yazıblar, bir sözlə, estetik-kulturoloji düşüncəmizin fərqli qatlarını ortaya qoyulub: buna həm e-kitab, həm də veb-sayt vasitəsilə nail olunub.

Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Virtual Kitabxana dəyərləndirilib, qurumun saytında ona birbaşa link verilib. Layihənin sonrakı mərhələsində - gələcəkdə elmin və ədəbiyyatın müxtəlif sahələrinə aid sahə elektron kitabxanaları, eləcə də şəbəkə nəşrlərini özündə birləşdirəcək saytlar yaradılacaq, portal daha da genişləndiriləcək, eyni zamanda ölkəmizin daxilində və xaricdəki analoji İnternet Kitabxanaların şəbəkəsinə qoşulmaq məsələsinə, qarşılıqlı faydalı əməkdaşlığa xüsusi əhəmiyyət veriləcək. Gənclər sektoru, QHT-ləri əhatə etməklə, təhsil müəssisələri, elm ocaqları, xarici ölkələrdəki diaspor və milli mədəniyyət mərkəzləri ilə geniş bilgi, e-kitab, ədəbiyyat, intellektual əlaqələr yaradılması da nəzərdə tutulur. Bir sıra aparıcı ölkələrin disapor mərkəzlərinə elektron kitabxana barədə geniş məlumatlar ötürülüb.



**Nemət TAHİR**

## ÇAĞDAŞ GƏNCLİK NIYƏ KİTAB OXUMUR?

## OXUYURSA, HANSI MÖVZUDA OLAN KITABLARA ÜSTÜNLÜK VERİR??

Çağdaş dövrümüzdə informasiya bolluğu olduğu üçün, daha doğrusu, bu informasiyaları əldə edəcək vasitələrin (televizor, kompüter, mətbuat və s.) kütləvləşməsi insanları mütaliədən uzaqlaşdırmaqdadır. Bu, xüsusilə gənclik dövrünü yaşayanlar arasında daha geniş yayılıb, desək, yəqin ki, yanılmarıq. Buna baxmayaraq hələ də kitab oxuyan insanlarımız var. Bəs bu insanlar hansı mövzuya daha çox müraciət edirlər?

Bu mövzuda kiçik bir sorğu apardım - tələbəsi olduğum SDU-nun tələbə və müəllimlərinə, kitabxanaçılara müraciət etdim.

Nəticəni və deyilən fikirləri olduğu kimi oxucularımıza çatdırırıq:

***SDU-nin müəllimi Sevinc Həmzəyeva:***

"Elə bir zaman kəsiyinə müsafir olmuşuq ki, iqtisadi böhran, maddi çətinlik insan qəlbinin ağır yükünə çevrilib. Bir tikə çörəyin ehtiyacında, soyuq qışın sərt üzünə baxıb donan kəsin harayına yetənmi var? Azmı bunlar? Hə bəs etmirmiş kimi ucuzlaşan dəyərlər, dəyərsizləşən mənəvi ucalıqlar. Bu sınağın qarşısında yenilən yenilir. Amma mənəvi zəngin olanlar sınağa baxmayaraq, içində sarsılar, lakin alçalmaz.

Belə şərait, belə zaman insan qəlbini darmadağın edir. Çörək pulu ehtiyacında olanlar kitaba vaxtmı ayırsın? Ancaq belə şəraiti mənfurlar üzə tez çıxardar. Əlverişli şərait yaranır onlar üçün. Qarşısına çıxanın canına susayır, min fırıldaqla özlərinə cəh-cəlal qururlar – təbii ki, başqalarının zəhməti hesabına…

Daim bu dünyadan küsənlər özlərinə oxşar qəhrəmanların prototipini psixoloji romanlarda axtarır, ya da cinayət dolu dünyanın hər oyunundan baş çıxartmaq üçün mənən silahlanmaq istəyir. Buna görə dedektiv əsərlərə üstünlük verirlər. Məncə heç nəyə baxmayaraq sevgiyə ac olanlar elə sevgi romanları ilə təsəlli tapacaqlar".

***Professor, şair-publist, SDU-nun filologiya fakültəsinin müəllimi Rafiq Yusifoğlunun cavabı isə belə oldu:***

"Biz tarixən oxumağı sevməyən xalqıq. Elə yüzilliklər boyu maarifçilərimiz bunu aradan qaldırmağa çalışıblar. Ancaq məncə, kitaba marağın azalmasını indiki dövr üçün normal qarşılamaq lazımdır".

***SDU-nun filologiya fakültəsinin müəllimi Eyvaz Eminalıyev:***

"Evimizə daxil olub bizi ailəmizi ucuz verlişlərlə təhqir edən televiziya və bir çox bayağı internet saytları gəncliyimizi mənəvi dəyərlərdən uzaqlaşdıraraq həm cismi, həm də zehni cəhətdən çılpaqlaşdırır".

***Sumqayıtın tanınmış bukinistlərindən biri Xan Rəsuloğlu:***

"20 ildən artıq müddətdə ticarətdə işləyən kitabçı kimi deyərdim ki, Sovet dövrü ilə müqayisədə kitab oxuyanların sayı az qala min dəfə azalıb... Amma baxır hansı anlamda.... Məlumdur ki, kompüter dövrüdür, oxucuların müəyyən hissəsi informasiyanı artırmaq üçün üslubun dəyişib. Eləcə də vaxt problemi və vaxtını praktiki işlərə sərf etmək ehtiyacı da oxucuların sayına təsir edir.

İndi vəziyyət bir az başqa cürdür. Əgər ali məktəblərə hazırlıq çabalarını və orta məktəb dərsliklərini, tapşırıqları nəzərə almasaq, oxuyanların sayının azaldığını görərik. Bunu elə kitabların tirajına baxdıqda da görmək olar.

Bu günlərdə Azərbaycan dövlətçilik tarixində önəmli bir iş görüldü: Prezidentin fərmanı ilə latın qrafikasında çap olunan



kitabların tirajı 25000-ə çatdırılıb. O ki qaldı, gənclərimizin kitaba marağı məsələsinə, çox qəribə bir mənzərə ilə qarşılaşırıq. Mütaliə də dövrümüzün əhval-ruhiyyəsinə uyğundur, yəni minillərin sınağından çıxıb gəlmiş kitablar 1-2 manata satılmır, amma şou xarakterli yüngül əsərləri 5-10 manata alırlar. Məhz yüngül oxu üçün, düşünməmək üçün oxuyurlar. Yəni, ciddi oxucular azalıb – bunun isə bir səbəbi var – dolanışıq problemi".

***SDU-nun kitabxanasının bədii şöbəsinin müdiri Kamilə Novruzova:***

"Bədii şöbədə 20683 kitab var. Ən çox istifadə olunan bədii kitablar M.F.Axundzadənin, N.Gəncəvinin, İ.Əfəndiyevin, S.Vurğunun, B.Vahabzadənin, N.Həsənzadənin, M.Hüseynin, Anarın kitablarıdır. Bizdən ən çox soruşulan və qıtlıq təşkil edən müəlliflər isə Ç.Abdullayev, Ə. Hacızadə, Z.Babanlıdır". – (Göründüyü kimi, burada da dərs vəsaiti və kriminal, sevgi mövzusu üstünlük təşkil edir – N.T.)

***IV kurs tələbəsi Ziba:*** "Etibarını itirmə ki, sənə inansınlar". Nədir inam, etibar? Kiçik hərflə yazılan bu sözlər böyük anlamlar ifadə edir. İnsanın insana inamı nəinki lazımdır, bu, hətta insanın cəmiyyətdə yer tutması üçün labüddür. İlk növbədə insanın özünün özünə inamı, etibarı olmalıdır. Bununla yanaşı təkcə özündə deyil, özgələrdə də özünə qarşı inam yaratmalıdır. Bəs bunu necə etməli, necə qorumalı? Verdiyin sözü tutmaqla! Lakin söz verən zaman da yaxşı düşünmək lazımdır. Təsadüfən deyilməyib ki,

***Görə bilmədiyin işi gözüyumlu,***
***Söz verib öhdənə götürmə, oğlum!***

Dramaturq Lope Veqanın "Seviliya ulduzu" əsərində ideya istiqamətləri çoxşaxəlidir. Burada mənim diqqətimi çəkən əsas məsələdən başlıcası "söz vermək", "inam, etibarı saxlamaq"

konsepsiyasıdır. Əsərdə baş verən bədbəxtliklərin səbəbi məhz bu anlayışlar üzərindədir. Əsərdəki Cəngavərin ehtiyatsızlığı, diqqətsizliyi üzündən sevdiyi qız Estrelya, qızın qardaşı, Cəngavər özü də faciəvi həyat yaşayır. Niyə? Çünki bilmədiyi məsələyə görə gözüyumlu söz vermişdi. Fərqi yox, bu söz səhvənmi verilmişdi, ya yox! Bu məsələdə məni gənc oxucu olaraq maraqlandırıb düşündürən məsələ gəncin tutduğu işdə nə qədər haqlı olub-olmaması deyil. Burada məni maraqlandıran məsələ onun nə olsa belə sonadək verdiyi sözünün qulu yox, ağası olmasıdı! Bu da içilən anda bərabərdir. Sözündən dönsəydi, andını pozmuş olacaqdı, hətta, müqəddəs kitabımız "Qurani Kərim"də də yazılıb ki, Məhəmməd Peyğəmbər (ə.s) verilən sözə əməl etməyi vacib buyurmuşdur.

Sözündən dönənlər mütləq cəzalandırılacaq. Tarixən, elə indinin özündə də sözünü tutan kəslərə insanlığın böyük ehtiyacı olub. Bizim bugünkü günümüzdə bizə məhz belə insanlar xüsusilə lazımdır – sözü ilə əməli birgə, vəhdətdə olanlar! Belə olan halda bəs niyə gənc yeniyetmə nəsildə bu hissləri aşılayan əsərlər geniş, kütləvi şəkildə yazılmasın! Niyə bu mövzular əsərlərimizin ideya xəttini təşkil etməsin?...

***Başqa bir tələbə, Aynurə isə deyir ki:*** Ən xoşladığım və böyük məmnuniyyətlə oxuduğum əsərlərin böyük bir qismini məhz qadın taleyini əks etdirən əsərlər təşkil edir desəm, yanılmaram. İstənilən əsərdə qadın obrazının müxtəlif yaş mərhələsi, mühiti, gəncliyi, səhv yaxud düzgün seçimi, həyati sınaqları, bu sınaqlara qarşı mətincəsinə mübarizəsi və yaxud sadəcə olaraq buna baş əyməsi bunu bir növ taleyin qismətimi yaxud sınaq kimi problemlər məni daha çox maraqlandırır. Bəlkə də bunlar məni ona görə maraqlandırır ki, mən də gəncəm. Bunları mütaliə etməklə bir növ hər bir kəs özünü gələcəyin istənilən "sürpriz"inə hazırlaya bilər. Yay tətilində mütaliə etdiyim əsər türk ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Səbahəddin Əlinin müəllifi olduğu



"İçimizdəki şeytan" romanı oldu. Əsərin baş qəhrəmanı – Məcidədir. Məcidə yeniyetmədir, pianinoda çalmağı bacarır. Xalasının köməkliyi ilə İstanbula gəlir və konservatoriyada oxuyur, burada Ömərlə tanış olur. Onunla görüşür. O zamankı mühitdə bu hal qəbuledilməz hal kimi qarşılanır. Bu hal xalasıgilə – yəni xalası və xalasının ərinə bəhanə verir ki, onu evdən uzaqlaşdırsınlar. Birinci səbəb isə o idi ki, Məcidə atasını itirmişdi, o vəfat etmişdi. Xalasıgil hər ay əldə etdikləri puldan məhrum olmuşdular. Pulla alınıb-satılan bu mühitdə Məcidələr təbii ki, bu vəziyyətin çarəsizləri idi.

Məcidə evləri olmadığı üçün yenicə tanış olduğu Ömərlə evlənir. Ömərin də vəziyyəti eynilə Məcidə kimidir. Son olaraq onlar hər ikisi həyatın zərbələrinə davam gətirə bilmir. Məcidə həyatının çiçəklənən çağında bir gül kimi solur.

***Ceyhunə filologiya fakültəsinin IV kurs tələbəsidir.*** Tələbə olaraq çağdaş gənc nəslin təlim və tərbiyəsi, onun dininin, əxlaqının inkişafı, "Vətən", "Ana" mövzularına hansı prizmalardan necə yanaşmaları onu da düşündürür: "Bu istiqamətdə maraqlarım, arzu və istəklərimi gerçəkləşdirmək məqsədi ilə ara-sıra mütaliə edirəm. Və bir filoloq olaraq başa düşürəm ki, hər bir inkişafın təməlində mütaliə durur. Ümumilikdə çağdaş dövrdə mütaliəyə maraq azalıb. Əslində isə məlumat və informasiyanın haradan və necə əldə edilməsindən asılı olmayaraq o, daima mübadilə edilməli, bu prosesdən müsbət nəticələr əldə edilməlidir.

Təbii ki, filologiya fakültəsində təhsil aldığımdan tez-tez dünya və milli yazarların əsərləri ilə tanış olur, onları mütaliə edirəm. Bununla yanaşı olaraq müqayisələr aparır, təhlillər, tələbə yoldaşlarımızla fikir mübadilələri, bəzən də bu mövzuda mübahisələr edirik. Qeyd edim ki, dərsdən mütaliəyə vaxt ayırır, məni düşündürən məsələlərlə bağlı kitabları əldə edib oxuyuram. Son olaraq mütaliə etdiyim və hələ də davam etdirdiyim İslam dini, Müsəlman şəxsiyyəti, İslam əxlaqı və b.

mövzularla bağlı dini və ictimai əsərlər olub. Misal olaraq kitabça formasında olan Peyğəmbərimizin dilindən müsəlman şəxsiyyəti, hadisələrlə bağlı olan "Gül ətirli hekayələr", Anar Eyvazovun "Oruc", O. Bilgənin "Müxtəsər Elmihal" əsərləri, "Ən böyük əxlaq" əsəri, eləcə də türkcədən tərcümə olan "Boşanmaq üçünmü evlənirik?" adlı əsər və başqa əsərləri göstərmək olar. Qeyd edim ki, dini mövzulara müraciət etməyim təsadüfi olmadı. Ətrafımda, cəmiyyətdə bəzən insanların hərəkət və davranışları ilə sözünün düz gəlməməsi, "Allah!" deyərək, onu yad edərək qədəhləri gənc cütlüklərə uzatmaları, evində, üstündə gözdən, bəd nəzərdən qorumaq üçün müxtəlif vasitələrdən istifadə edilməsi, evlərdən dini şəkillərin, imamların şəkillərinin asılması, müəyyən xəstəliklərdən azad olmaq üçün pirlərə, ocaqlara gedənləri və b. bu kimi digər səbəblər oldu. Təəssüflə qeyd etməliyəm ki, XXI yüzillik informasiya, kompüter yüzilliki olduğu halda, XIX yüzillikdə Ə.Haqverdiyevin əsərlərində, C.Məmmədquluzadənin, Sabirin əsərlərində, onları o dövrdə düşündürən bir sıra məsələlər indi də aktuallığını demək olar ki, itirməyib. Bunu bir ictimai bəla hesab edir, bunun həlli yolu olaraq müdafiəni ön plana çəkirəm. Düşünürəm ki, elmsiz, təhsilsiz ancaq xurafat hökm sürə bilər. "Mənim babam, atam bu cür ibadət edib, həm oruc tutub, həm də onların həyat yoldaşları falçıya da gediblər". "Maşınımdan göz muncuğu asıram ki, o, maşınımı, məni qorusun"-deyərək bu cür xurafata uyuruq. Baxın, biz bu gün şou-proqramlara, seriallara, müxtəlif filmlərə vaxt ayırır, onları izləyirik. Başa düşmürük ki, sonda əldə edəcəyimiz heç nə olmayacaq. İtirdiyimiz isə ən qiymətli olan vaxt olacaq!

***Tükəzban, SDU-nun tələbəsi:*** Bədii ədəbiyyat mənim üçün zövq və dünyagörüş məsələsidir. Tarixi mövzudan başqa istənilən səpkili əsərləri oxumağı xoşlayıram. Yetər ki, əsərdə uzunçuluğa, bayalılığa yol verilməsin. Oxuduğum hər bir əsər



mütləq orijinal və düşündürücü olmalıdır, məni nə isə yazmağa vadar etməlidir.

Ən sevdiyim əsərlər V.Hüqonun "Səfillər", Drayzerin "Dahi", Cek Londonun "Martin İclen", Mopassanın "Həyat", E.L.Voyniçin "Ovod", S.D.Xədicənin "Fosforlu Cevriyyə", O.N.Kamalın "Yad qızı" romanları, Ə.Nesinin, Anarın hekayələridir. Bu əsərlərin hər birini oxuduqdan sonra özümü bir yaş böyümüş hiss etmişəm. "Ovod"u oxuyarkən Arturla bərabər mən də güllələnmişəm, "Səfillər" romanında Jan Valjanın hisslərini anbaan mən də yaşamışam. Bax, məni haldan-hala sala biləcək bədii əsəri sevirəm. Təkcə "Səfillər" romanının mənə bağışladığı təəssürat bəlkə də bütün ömrüm boyunca oxuyacaqlarıma bərabərdir.

***Gülnarə, tələbə:*** Bildiyiniz kimi, ədəbiyyat tərbiyəvi əhəmiyyət kəsb edir. Buna görə də çağdaş Azərbaycan gəncliyinin milli ədəbiyyatımıza çox böyük ehtiyacı var. Çox təəssüf ki, gəncliyimiz daha çox kriminal əsərlər oxumağa, ya da internet-klublara daha çox üstünlük verir. Çağdaş gəncliyin maraq dairəsi olduqca genişdir. Və tələbləri də böyükdür. Biz torpaqları işğal altında olan bir ölkənin gəncləriyik. Və bizim vətənpərvərlik mövzusunda yazılmış əsərlərə daha çox ehtiyacımız var. Bu mövzuda yazılmış ədəbiyyat o qədər təsirli olmalıdır ki, bizdə Vətənə məhəbbət, düşmənə nifrət hissini daha da alovlandırsın. Həmçinin ailə-məişət mövzusuna ehtiyacımız var. Möhkəm ailə, saf məhəbbət, böyük və kiçiklərlə davranış qaydaları, milli adətlərimiz bu mövzuda öz əksini tapmalıdır. Çox təəssüflə qeyd etməliyəm ki, ədəbiyyatımızı demək olar ki, təbliğ etmirik. Gənclərimizə ədəbiyyatımızı sevdirmək, maraq oyatmaq, orta və ali məktəb ocaqlarında müəllimlərimizin, televiziya işçilərinin, həmçinin yazıçı və şairlərimizin borcudur.

***Cəfərova Kəmalə, tələbə:*** Mən tətil müddətində Tahir Kazımovun "Səsin sehri" bədii əsərini, "Müvəffəqiyyətə gedən

yol", "Gənclərlə üz-üzə" kitablarını oxumuşam. Hal-hazırda Paulo Caulonun "Əl-Kimyagər" əsərini oxuyuram. Ümumiyyətlə, mütaliə üçün daha çox dünya ədəbiyyatı nümunələrinə üstünlük verirəm. Çünki bu əsərlər insanı düşünməyə vadar edir. Müəllif özü heç bir fikir söyləmir. Nəticə çıxarmağı oxucunun ixtiyarına buraxır. Daha çox psixoloji əsərləri sevirəm. "Müvəffəqiyyətə gedən yol", "Gənclərlə üz-üzə" kitablarını ona görə oxudum ki, bu kitablar insanı həyatın anlamını başa düşməyə, qarşıya çıxan çətinlikləri dəf etməyə, insanı mübariz olmağa çağırır. "Gənclərlə üz-üzə" kitabı da gəncləri nikbin olmağa, bədbinliklərdən uzaq olmağa, irəliyə doğru uğurla addımlamağa, tənbəllikdən uzaq olmağa çağırır. İndi oxuduğum "Əl-Kimyagər" əsərində isə bir çoban oğlan: "Həyat nədir? Hamətlərə inanmaq lazımdırmı?" sualları ilə yola düşür, dünyanı, dünya dilini dərk etmək istəyir. Əl-Kimyagər ona dəyərli məsləhətlər verir. Oxuduğum kitablardan belə bir nəticəyə gəldim ki, insan hər hansı bir şeyi əldə etmək istəyirsə, mütləq qarşısına məqsəd qoymalı, inadından dönməməli, bu gün ilə yaşayıb gələcəyə nikbin baxmalıdır.



*dr.* **Elməddin BEHBUD**
***"Demokratik Azərbaycan Naminə" Gənclərin İctimai Birliyinin sədri***

## MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZ VƏ ÇAĞDAŞLIQ

Dünyanın dərki, bəşər cəmiyyətinin inkişafı və idarə olunması, tarixi inkişaf mərhələləri məhz insanla, onun fiziki və intellektual təkamülü ilə bağlıdır. İnsanın isə canlı varlıq olaraq yetkinləşməsi, cəmiyyət həyatında gələcəkdə oynayacağı rol onun gənclik dövründə yön aldığı istiqamətdən, mənimsədiyi dəyərlər sistemindən çox asılıdır. Yenicə müstəqilliyini bərpa etmiş ölkə kimi Azərbaycan Respublikasında da yetişən gənc nəslə milli-mənəvi dəyərlərimizin mənimsədilməsi, milli prioritetlərin doğru-düzgün şəkildə aşılanması xüsusi önəm kəsb edir. Məhz şüurlu şəkildə milli kimlik ruhuna yiyələnməklə, yüksək elmi nailiyyətlərin müəllifinə çevrilməklə ölçüsüz inkişaf sürətinə malik bu günkü dünyada millətimizi və dövlətimizi layiqincə təmsil etmək mümkündür.

Dünyada mövcud olan etnosların hər biri özünəməxsus xüsusiyyətlərə, dəyərlər sisteminə malikdir. Bu dəyərlər demək olar ki, hər bir millətin, xalqın pasportudur. Azərbaycan xalqı minillərin zəka, düşüncə süzgəcindən keçib gələn özünəməxsus mənəvi xəzinəyə malikdir. Yəni bizlər bu gün son dərəcə zəngin bir mənəvi irsin varisləriyik. Həmin bu irsin qüdrətindəndir ki, sivilizasiyanın ən qədim mərkəzlərindən sayılan şumerlərdən üzü bu yana ötən min illər ərzində müxtəlif iqtisadi-ictimai formasiyalar, qanlı-qadalı müharibələr, yadellilərin işğalları bir millət olaraq bizləri-Azərbaycan türklərini, Azərbaycan xalqını milli-mənəvi dəyərlərdən uzaq sala bilməyib. Yerləşdiyi regionda qurduğu möhtəşəm

dövlətlərlə daima cazibə rolu oynayan Azərbaycan xalqı üstün humanizmi, qonaqpərvərliyi, zəngin mədəniyyəti ilə seçilmiş, bəşəri dəyərlərin formalaşmasına da töhfəsini vermişdir.

Zaman keçdikcə həyatın bütün sahələri kimi mədəni-humanitar sferada özünəməxsus şəkildə inkişaf edir. Dünyada hər nə qədər totalitar rejimli, qapalı ölkələr olsa da qloballaşmanın dövrün sürətlə inkişaf edən texnologiyalar vasitəsi ilə dövlətlər arasındakı sərhədləri aradan apardığı, lokal məkanın deyil, "dünyanın adamı, vətəndaşı" olmağın hər fürsətdə təbliğ olunduğu bir zamanda bizimdə bir xalq olaraq qarşımızda çağdaş dövrdə bir sıra vacib məsələlər durur. Bu sıralamada ən ön yeri düşünürəm ki, dünyada mövcud 3-4 min etnosun içərisində milli dövlətini qurmağa nail olan 200 xalqdan biri kimi Azərbaycan xalqının milli kimliyini qorumaq, inkişaf etdirmək və gələcək nəsillərə ötürmək vəzifəsi tutur. Heç şübhəsiz ki, milli səciyyə daşıyan hər bir iş millətin hər bir nümayəndəsinin üzərinə vacib və şərəfli missiya qoyur.

Millətini və vətənini sevmək hər bir şəxsin malik olduğu ən üstün, ən ülvi, ali dəyər və məqamıdır. Özünü daim millətin bir parçası hesab etmək, onun maraqlarının təminatı üçün fədakarlıq göstərmək insanın sahib olduğu milli-mənəvi keyfiyyətlərin ən parlaq, aydın göstəricisi sayıla bilər.

Tarixin bütün dövrlərində hər bir millətin və ölkənin, Anadolulular demiş, vazkeçilməz ölçüləri və maraqları mövcud olmuşdur. Azərbaycan xalqı üçün bu komponent hazırda qurduğu dövlətin suverenliyi, pozulmuş ərazi bütövlüyünün bərpası məsələsidir.

Demək olar ki, zamanın bütün mərhələlərində milli-mənəvi dəyərlərimiz xalqımızın düşüncə sistemində əhəmiyyətli rol oynamış, hər bir fərdin vətəndaş kimi formalaşmasında ən önəmli meyarlardan biri olmuşdur. Yetmiş illik sovet-bolşevik ideoloji idarə sistemindən sonra ötən yüzilliyin 80-ci illərinin axırlarında Bakı küçə və meydanlarına toplaşaraq əlindən



alınmış milli hüquqlarının bərpasını tələb edən yüzminlərin iradə nümayişi məhz milli kimlik mücadiləsinin ən bariz nümunəsi idi.

Milli-mənəvi dəyərlərimiz deyəndə nələri başa düşürük və bu anlayış bizim qarşımızda hansı vəzifələri qoyur? Hər bir xalqın dili, tarixi, folkloru, ədəbiyyatı, dini, adət-ənənəsi, mədəniyyəti kompleks surətdə onun milli-mənəvi dəyərləridir. Bu irsi günümüzədək gətirib çıxaran ulularımızın nəsilbənəsil davam etdirdiyi milli varislik məktəbi fərəhlə söyləmək olar ki, bu gün də əmin, etibarlı əllərdədir.

Biz gəncləri daim inkişafa, sivil ənənələri mənimsəməyə, malik olduğumuz müstəqil Azərbaycanımızı göz bəbəyi kimi qorumağa səsləyən də məhz milli ruhumuzdur. "Ey türk oğuz bəyləri! Türk milləti eşidin! Üstdən göy çökmədikcə, altdan yer dəlinmədikcə, bil ki, türk ulusu, türk yurdu, türk dövləti, türk törəsi pozulmaz" deyən Bilgə Kağana da, "Biz əzəldən ta əbəd meydanə gəlmişlərdəniz" deyən, Azərbaycan dövlətçiliyi tarixinə şanlı Səfəvi dövlətini bəxş edən Şah İsmayıl Xətai də, qanlı Sovet rejiminin ən güclü dövrlərində "Millətimizin köləlik zəncirlərini qıraraq milli müstəqilliyini bərpa edəcəyi gün o qədər də uzaqda deyil" deyən Məmməd Əmin Rəsulzadəyə də, XX yüzilliyin sonunda Azərbaycan xalqına qüdrətli dövlət quran, "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" deyən Böyük Öndər Heydər Əliyevə də tükənməz güc verən, məhz milli ruhumuz olmuşdur.

Millətini sevmək, torpağını sevmək, onu hər şeydən üstün tutmaq bu gün Azərbaycan insanının, ən əsası Azərbaycan gəncliyinin ən ümdə borcudur. Bu borcun qarşılığı isə bizlərin ilk növbədə yüksək səviyyədə təhsil almağımız, elmi biliklərə dərindən yiyələnməyimiz, bəşəriyyətin sürətlə inkişaf etdiyi bir zamanda daima hərtərəfli axtarışda olmağımızdır.

Zahirən çox cəlbedici təsir bağışlayan bu dünya amansız qanunları ilə konkret maraq və iddialar üzərində qurulmaqla bərabər mənəvi dəyərlərin deqradasiyasına da səhnə olmaqdadır. Çox təəssüflər olsun ki, bu vəziyyətin inkişafında əsas ilhamverici faktor hazırda televiziya, radio və internetdir. Heç kimə sirr deyil ki, dünyanı nüfuz dairələrinə bölən böyük dövlətlər bütün zamanlarda kiçik ölkələri ram etməyə, onları maraqlarının təminatçısına çevirməyə çalışırlar. Bu gün bu rolu artıq ənənəvi müharibələr deyil, informasiya savaşları həyata keçirir. Kütləvi informasiya vasitələri əsas funksiyalarını bir çox hallarda kənara qoyaraq beyinləri "yumaqla" məşğul olur. "Milli kimlik", "vətənpərvərlik", "milliyyətçilik" kimi anlayışlar artıq keçmişin əhəmiyyətsiz ideoloji qalığı adlandırılır və bununla da kifayətlənilməyərək daha "mütərəqqi" liberal konsepsiyalar ortaya qoyularaq ideologiyasız cəmiyyət modeli sivil inkişaf üçün başlıca şərt irəli sürülür. Çox maraqlıdır ki, bu tip çağırışları edən şəxslər bu və ya digər şəkildə, bilavasitə və ya dolayısı ilə yuxarıda haqqında bəhs etdiyimiz dünyanı idarə edən güclərlə əməkdaşlıqda olanlardır. Mən heç də sözügedən camiəyə mənsub olanların hamısını pafoslu ifadələrlə "vətənə xəyanətdə" ittiham etməkdən uzağam. Ancaq istər Qafqaz, istər Yaxın Şərq ölkələri, istərsə də bütövlükdə Asiyanın və Afrikanın tarixinə diqqətlə nəzər yetirsək tam aydınlığı ilə görərik ki, bütün dövrlərdə milli dövlətlərin "özününkülləşdirilməsində" "troya atlarının" əvəzedilməz rolu olub. Ancaq heç şübhəsiz ki, xalqımız tarix boyu bu və bu tip sınaqlardan üzüağ çıxdığı kimi bu mərhələni də uğurla adlayacaq. VIII-IX yüzilliklərdə ərazimizə çoxsaylı ərəb tayfaları köçürərək bizi ərəbləşdirmək cəhdlərinin də, XIX yüzillikdən başlayaraq ta XX yüzilliyin sonlarınadək aparılan məqsədli, sistemli ruslaşdırma siyasətinin də bir proyekt kimi uğursuzluğa düçar olmasının dominant səbəbi fikrimcə Azərbaycan xalqının, Azərbaycan türklərinin Tanrı milləti olması,



möhkəm özül üzərində dayanan mədəniyyətə, milli şüura sahib olması idi.

"Azərbaycan qırğınla, mədəniyyətlə və hiylə ilə yox edilmək istənilməsinə baxmayaraq, böyük bir diriliklə dirənməkdə və güclənməkdədir. Kıprıs adaları, Qərbi Trakiya və Kərkük nədirsə, Azərbaycanda odur. Böyük keçmişi və mədəniyyəti olan millətlər necə olsa, zəncirləri qırarlar" deyən böyük fikir adamı, milliyyətçi öndər Hüseyn Nihal Atsızın diləyi çin olduğu günümüzdə çox da uzaq olmayan bir zamanda 20 ildən artıq "hayk"ların tapdağında olan Qarabağımızı azad edəcəyimizə, Güneyli, Quzeyli vahid Azərbaycanın qurulacağına bizləri hər cür məhrumiyyətlərdən üzü ağ, alnı açıq, başı dik, qürurlu və möhtəşəm Türk əzəməti ilə çıxaran o İNAMımı ifadə etmək istəyirəm.

Vüsalə RAFİQQIZI

## QLOBALLAŞAN DÜNYADA MİLLİ İDEOLOGİYA NECƏ OLMALIDIR?

Təxminən on-on beş il əvvəl qloballaşan dünya haqqında ilkin düşüncələr meydana gələrkən əksər insanların düşüncəsində iyirmi birinci yüzilliyin daha çox qloballaşma yüzilliki olacağı barədə təsəvvürlər var idi. Lakin yaşadığımız iyirmi birinci yüzilliyin ilk on ilində Yer planetinin sakini olan - bizlər dünyanın baş verən hadisələrə və problemlərin həllinə qlobal müstəvidən daha çox qütbləşmiş dünya müstəvisindən yanaşma nümayiş etdirməsini müşahidə etməkdəyik. Baxmayaraq ki, indi qloballaşma, qlobal dünyanın problemlərinin həlli barədə tez-tez danışırlar, hətta aparıcı dövlətlərin rəhbərləri də öz çıxışlarını daha çox bu tezislər üzərində qurmağa çalışırlar. Ortada olan real faktlar və hadisələr dünyanın bu problemlərin həllində bir araya gəlməsindən çox yeni parçalanmalara və qütbləşməyə getdiyini göstərir. İyirmi birinci yüzilliyin - belə deyək ki, qloballaşan dünyanın indi əsas problemlərindən biri də Milli ideologiya ilə bağlıdır.

Çox maraqlıdır ki, bir sıra aparıcı dövlətlər özündən ərazicə və güc baxımından zəif olan dövlətlərdə Milli ideologiyanı zəiflətmək və ya onu çağdaş düşüncə adı altında kosmopolit yanaşmalarla əvəzləmək siyasətlərini indi daha açıq şəkildə yeritməyə başlayıblar. Azərbaycanda da son illər bu məsələyə yanaşmalar heç də biranlamlı deyil. Bəzi kosmopolit düşüncələrin məhsulu olaraq Azərbaycanın bu məsələdə dünya dəyərlərindən geri qaldığına dair iddialar var. Hətta bir sıra hallarda ölkədə Milli ideologiyanın aşağı olması və yaxud da formalaşmaması kimi iddialar da var ki, bu da bu gün bu məsələ üzərində daha ciddi düşünmək üçün əsas yaradır.



Gəlin, görək Azərbaycanı modernləşdirmək istəyən modernistlərin, başqa sözlə desək, Azərbaycançılıq düşüncəsini daha çox kənardan gələn dəyərlərlə əvəzləməyə çalışan insanların Avropalaşmış Azərbaycan modeli bizim Milli ideologiyamızla nə dərəcədə uzlaşır. Bu gün Azərbaycan Avropaya inteqrasiya edən, bir sıra çağdaş standartları və yenilikləri əldə etməyə çalışan ölkələr sırasındadı. Lakin Avropaya inteqrasiya heç də o demək deyil ki, çağdaş dünyanın tələbləri fonunda Azərbaycana məxsus milli-mənəvi dəyərlər, uzun tarixi yol keçmiş ənənələr arxa planda qalmalıdır. Azərbaycan Avropaya öz dəyərlərini saxlamaqla inteqrasiya etməlidir. Lakin bu gün cəmiyyətdə müşahidə edilənlər bir sıra hallarda milli dəyərlərin qorunub saxlanılması ilə bağlı bir qədər narahatçılıqlar doğurur ki, bu da əsasən çağdaş gəncliyin avropalaşması istiqamətdə gedən proseslərlə daha çox bağlıdır. Qərblə Şərqin arasında bir körpu olan Azərbaycanda milli ideologiya necə olmalıdı, bu gün milli ideologiya ilə bağlı baxışlar necədir?

Əslində bizim cavab axtardığımız bu suallar bu gündən doğan, ortaya çıxan məsələlər deyil. Hələ ötən yüzilliyin əvvəllərində Azərbaycan tarixində xüsusi yeri və çəkisi olan böyük ziyalılarımız da milli ideologiya ilə bağlı düşüncələrini ortaya qoymağa, insanları bu dəyərlər ətrafında birləşdirməyə çalışırdılar. O zamanlar M.Ə.Rəsulzadə, Ü.Hacıbəyli, Ə.Ağaoğlu, Ə.Hüseynzadə və digər Azərbaycan aydınları insanlarda milli əqidənin formalaşması, insanların kütlə düşüncəsindən çıxaraq ziyalı düşüncəsini əldə etməsi üçün çox işlər görüblər. O zamanlar Azərbaycan Xalq Cümhuriyyətinin baniləri millətçilik, dövlətçilik, türkçülük əqidəsindən çıxış edərək ortaya kifayət qədər aydın bir konsepsiya qoymuşdu. Azərbaycan gənclərinə müraciətində də onları türkləşmək, islamlaşmaq və çağdaşlıq dəyərləri ətrafında birləşməyə çağıran böyük ictimai-siyasi xadimin bu ideologiyası müsavatçılıq adı altında inkişaf

etsə də bu dəyərlər əslində bu günkü Azərbaycanımızın da sütun dəyərləridir. Hansı ki, Xalq Cümhuriyyətinin varlığına son qoyan «qırmızı imperiya» belə insanların düşüncəsindən və tarixin səhifələrindən bunu silə bilmədi.

Ötən yüzilliyin 70-ci illərində Milli lider Heydər Əliyevin «qırmızı imperiya» daxilində bir azərbaycançılıq fəlsəfəsini ortaya qoymasının özü də kifayət qədər uzaqgörən və sağlam məntiqin nəticəsi idi. 90-cı illərin əvvəllərində keçmiş SSRİ-nin dağılması bütün post-sovet ölkələri kimi Azərbaycanın da qarşısında bir sıra cavabı açıq qalan suallar qoymuşdu. Bunlardan biri ölkənin bundan sonrakı siyasi taleyi ilə bağlı idisə, digər ən önəmli məsələlərdən biri Milli düşüncə tərzinin formalaşması ilə bağlı idi. O zamanlar cəmiyyətin daxilində kifayət qədər problemlərin və daxili parçalanmaların olmasına baxmayaraq, Milli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycançılıq ideologiyasının möhkəmlənməsində də öz sözünü dedi. ***«Mən fəxr edirəm ki, Azərbaycanlıyam»***-tezisini irəli sürən ulu öndər bu fikri ilə təkcə vətənə olan sevgisini ifadə etməmişdi. O həm də özünə məxsus və dahiyanə şəkildə Azərbaycançılıq ideologiyası ilə bağlı fikirlərini bir cümlə ilə ifadə etmişdi. Hansı ki, bu gün ulu öndərin bu tezisi insanların vətənə sevgisini bildirməsi üçün ən çox istinad etdikləri bir şüara çevrilib. Bu baxımdan da bu gün Azərbaycanda Milli ideologiyanın necə olması axtarışına çıxmaq lazım deyil. Sadəcə biz özümüzdə olan dəyərləri qorumaq və onu gələcək nəsillərə ötürməliyik. Gənclərin Milli ideologiyanın daşıyıcılarına çevrilməsi üçün də kifayət qədər işlər görülməlidir. Bu gün Azərbaycan gəncliyi özünü Avropalaşmış bir məkanda hiss etməklə yanaşı, həm də öz düşüncəsində türkçülük, islamçılıq və çağdaşlıq dəyərlərini yaşatmalıdır.



**Elmidar ƏLİYEV**

## MİLLİ MƏNƏVİ DƏYƏRLƏRİMİZ DEQRADASİYAYA UĞRAYIR

Azərbaycan Avropaya çox böyük sürətlə inteqrasiya edir. Bu inteqrasiya prosesi milli-mənəvi dəyərlərimizi deqradasiyaya uğradır. Bunun da səbəbi heç şübhəsiz ki, gənclərin pis vərdişlərə adət etməsindən uqaynaqlanır. Ölkəmizə təşrif buyuran bəzi missioner təşkilatlar öz fəaliyyət və təbliğatlarında millətimizə milli adət ənənələrindən imtina etməyi təlqin edir. Bu ölkəyə gələn "Yehova Şahidləri" təşkilatlarından tutmuş Birlik kilsəsinə qədər onlarla missioner təriqətlər fəaliyyətlərini ilk növbədə əxlaqsızlıq yönündə aparırlar. Bu bir faktdır. Ölkənin hüquq-mühafizə orqanları ildə bir neçə dəfə bu təriqət üzvlərini ifşa edir, yaxud da həbs edərək ölkədən çıxarır. Onlar isə yenə də başqa-başqa adlarla ölkəyə gəlməkdə və bizi milli adət-ənənələrimizdən ayırmağa çalışmaqdadırlar.

Əlbəttə, bu gün ölkədə milli-mənəvi dəyərlərin deqradasiyası ilə yalnız missionerlər deyil, telekanallar, barlar, saunalar, bəzi istirahət mərkəzi adı altında fəaliyyət göstərən kafe-restoranlar da məşğul olur. Belə obyektlər paytaxtın mərkəzində onlarla, yüzlərlədir. Klubların giriş qapısında "18 yaşı tamam olmayanların daxil olması qadağandır" elanı asılsa da, içəridəkilərin əksəriyyəti azyaşlı oğlan və qız uşaqlarıdır.

Təəssüf doğuran başqa bir hal isə odur ki, dinə meylli olan Gənclər qeyri-ənənəvi dini məzhəblərə qoşulur, min illər təşəkkül tapan ənənəvi dini qaydaları isə xurafat adlandırmaqdan belə çəkinmir. Az-sağlam düşüncəli gənclər isə gününü idman oyunlarına "şot" qoymağa hyüzillik edir. "Real", "Barselona" və sairə bu kimi futbol klublarının oyunlarını günlərlə mü-zakirə etməkdən yorulmur.

Adət-ənənələrimizdən uzaqlaşan gəncliyimizin inkişaf etməməsinin səbəblərindən biri də bu gün onların elmə-təhsilə marağının kifayət qədər zəif olmasıdır. Bu gün kitabxanalarda az sayda gəncə rast gəlmək mümkündür. Gənclər kitabdan uzaq düşüb desək yanılmarıq.

Təbii ki, bütün bunların baş verməsi səbəblərindən birini də Azərbaycanda ailə institutunun sıradan çıxmasında axtarmaq lazımdır. Ailələrdə uşaqların tərbiyə olunması sahəsində ciddi problemlər var. Bunu rəsmi şəxslərdən tutmuş ziyalılar da təsdiq edirlər. Bəzi hallarda mütəxəssislər bunun qarşısını almaq üçün yeniyetmə və gənclər arasında maarifçilik və təbliğatı işlərin daha da gücləndirilməsini əsas sayırlar. Elə biz də belə düşünürük...



**Hafiz HACXALIL**
***DGTYB Məclisinin üzvü***

## GƏLƏCƏYƏ SƏYAHƏT

Həyatda var olan hər şeyin hərəkət etməsini, bir-birini əvəzləməsini və bu hərəkətetmə, əvəzləmə nəticəsində yeni inkişaf meyllərinin yaranmasını dünyanın öz oxu və günəş ətrafında fırlanmasının əbədi bir qanunu kimi başa düşmək olar. Məhz bununçün də hərəkətlilik hər zaman inkişafa səbəb olur.

Məncə insanın bir qətrə sudan və torpaqdan yaradılaraq ucu-bucağı görünməyən dünyaya sınaq üçün göndərilməsinə, həyatın boş qalmamasına, onun təbiətlə "dərdləşərək" baş-başa verməsinə uca Allahın bir lütfü kimi baxmaq lazımdır.

Gözlə görünən və görünməyən hər bir canlının, cansızın, yaradılmışın davamı var. İnsan övladı da özündən sonra iz qoymaq üçün doğub törəyir və bu proses min illərdir ki, davam edir. İctimai formasiyaların ən qədimi olan ibtidai icma quruluşunda belə bir körpənin dünyaya gəlişi böyük bir sevincə, şadlığa səbəb olurdu. Yeni doğulmuş körpə həm davamçı, həm köməkçi, qoruyucu, həm də işçi qüvvəsi demək idi.

Lakin bəşər Allahın və özünün yaratdığına heç də hər zaman humanistliklə yanaşmayıb. Həqiqət və yaxud da əfsanə kimi insanların şüurunda yer eyləyən Amazoniyalı qadınlar, deyilənə görə, yeni doğulmuş oğlan uşaqlarını öldürürdülər. Hələ ərəb dünyasında islam dini formalaşmayana qədər doğulan qız uşaqlarını diri-diri torpağa basdırır, oğlan uşaqlarını isə saxlayırdılar. Bu hal insan adına yaraşmayan bir rəzillik idi. İslam dininin təşəkkül tapmasından sonra sevgili peyğəmbərimiz Məhəmməd (s.a.s) tərəfindən deyilən "bir insanın ölümü bəşəriyyətin ölümüdür" fikri çürük beyinlərdə kök sal-

mış "allahsız" dünyagörüşün, insana və insanlığa belə qəddar, amansız münasibətin əbədi olaraq torpağa gömülməsinə "insanşünaslıqda" yeni, səmimi münasibətlərin yaranmasına, qadın-kişi bərabərliyinin qorunmasına səbəb oldu.

Qeyd etmək lazımdır ki, türk dünyasında ərəblərdən fərqli olaraq qadına münasibət, anaya hörmət, uşağa sevgi ən ali səviyyədə olmuşdur və biz bunu milli düşüncəmizin, soyumuzun, genefondumuzun təməl prinsiplərini özündə əks etdirən "Kitabi-Dədə Qorqud" dastanında aydın görə bilərik.

İnkişaf edən dünyamızda sosial və mənəvi bəlalarla üzbəüz qalan insan cəmiyyətində qadına, uşağa mənfi münasibət aşkar şəkildə nəzərə çarpaqdadır. Təbii ekologiya ilə "mənəvi ekologiyanın" da korlanması insan üçün heç də gözəl nəsə vəd etmir, əksinə onu gələcək qlobal bəlalarla üzbəüz qoyur. "Əxlaq mətbəxi"nin ən dəyərli komponentlərinin məhv olması, dəyərsizliyin daha da inkişaf etməsi üçün yaradılmış şərait artıq uşaqların da psixologiyasına təsir edir, onların millətə, torpağa sevgi ruhunda böyüməsinə əngəl törədir. Belə olan halda şübhəsiz ki, uşaqların gələcəyimizin dayaqlarına çevrilməsi ehtimalı azalır. Ruhumuzun əyilməzlik bayrağı olan sazımızı, düşüncəmizin, fikir tariximizin bünövrəsini təşkil edən muğamımızı dinləməyən, onu bayağı Avropa müsiqiləri ilə bir səviyyədə tutan gənclik torpağa, yurda bağlı bir vətəndaş kimi formalaşa bilərmi?!.

Bu gün cəmiyyətin inkişafını informasiyasız təsəvvür etmək qeyri-mümkündür və bu informasiya bolluğunda insanın öz keçmişinə səyahət etməsi, itirdiyi dəyərlərin və müqəddəslərin yenidən bərpası uğrunda əziyyətə qatlaşması absurd görünsə də, biz buna nail olmağı qarşımıza həyati önəm kəsb eyləyən bir məqsəd kimi qoymalıyıq. Dünya mədəniyyətinin inkişafına səbəb olan türk kültürünün əxlaqi dəyərlərə söykənməsi türk insanının milli kimliyinə, dilinə, dininə, müqəddəsləşdirdiyi və tapındığı dəyərlərə münasibəti bu günün



mənzərəsində çox da yaxşı görünmür. Lakin kürəsəlləşmədən çox-çox öncə türk insanı bütün dəyərlərinə sahib idi və bunun başında isə vətən, millət və milli kimlik sevgisi dayanırdı. Mədəniyyətləşmədən çox iqtisadiləşən və siyasiləşən dünyanın ab-havası, görüntü xatirinə kimlərsə tərəfindən uydurulmuş daha sivil dünya mədəniyyəti heç də ilk ibtidai insanın bir daşı yonmasından bir o qədər də fərqlənmir. Çünki burada qeyri-adi heç bir şey yoxdur və əgər inkişaf varsa, demək mədəniyyət də var. Lakin ilk insanın yaradılışından bu günə kimi böyük bir yol keçən bəşər övladı özü də bilmədən ən böyük dəyərini-təbiiliyini itirib. Əxlaqda insanilik, sənətdə bədiilik məfhumu da elə məhz bunu nəzərdə tutur.

İtirilən dəyərlərin, unudulan adət-ənənələrin təbliğinin aparılmamasının əsas səbəblərindən və onu ləngidən amillərdən biri də budur ki, cəmiyyətin inkişaf meyllərini yönləndirən ictimai elmlər çox vaxt mühafizəkarlığın, ehkamçılığın qoruyucusu kimi çıxış edir. Və bu anlamda qan və gen yaddaşı, vicdan estafeti nəsillər arasında pozulmasın və onun sarsılmaz dayaqları üzərində sağlam əqidəli bir gəncliyin formalaşması üçün aparılan işlər gərək ləngiməsin. İntellekti, adət-ənənəni sosial rifaha və "varlı yaşamağa" qurban verməк olmaz. Belə bir şəraitdə mənəviyyatın ekologiyası insanlığın əsaslı narahatlıq hədəfinə çevrilməyə bilməz və unudulmaqda olan adət-ənənələrimizi qorumaq proqramını hazırlamaq, həyata keçirmək üçün böyük bir əxlaqi səlahiyyət, müqəddəs cavabdehlik bizim hər birimizin və fəlsəfi publisist fikrimizin üzərinə düşür.

Gökənli akademikimiz Yaşar Qarayev *"Meyar-şəxsiyyətdir"* kitabında yazır: "...artıq neçə-neçə yüzillikdir ki, babaların əxlaqı bizim ən yaxşı xəlqi və milli ənənələrdə yaşayır: onlar ritorika ilə, şüurla yaranmadığı üçün şüurla da, ötəri, konyuktur plakatla da məhv olmurlar. Mən birinci növbədə torpaq, dil, ocaq, əcdad, övlad və qadınla bağlı şərəf,

ləyaqət və namus ənənələrini nəzərdə tuturam; şüurda yox, gendə və qanda həkk olunmuş, yazılmamış qanunları nəzərdə tuturam. Çağdaş Avropada və Amerikada bir sıra xalqların milli faciə, qlobal fəlakət kimi yaşadığı çağdaş əxlaqi-demoqrafiq bəlalara qarşı ən yaxşı sipər bu təbii-insani, milli-tarixi sərvətləri müqəddəs tutub qorumaq, gələcək üçün də zədəsiz saxlamaq olmazdımı?! Təəssüf ki, belə sərvətlərə münasibətdə də həssaslığın lazımı səviyyədə olmadığı hallara rast gəlirik...."

Bəli, fikirdən aydın göründüyü kimi, milli adət-ənənələrin qorunmasında, yaşadılmasında gen faktoru da xüsusi rol oynayır. Məhz ona görə də biz leksikonumuzda genetik yaddaş, genofond anlayışlarını əbəs yerə işlətmirik. Avroməkana daxil olan ölkəmizdə də müxtəlif genlərin qarışması prosesi demək olar ki, böyük vüsət alıb və bu problem sosioloqların diqqətindən yayınmamalıdır. Müxtəlif dilin, irqin, dinin daşıyıcıları olan insanların siyasi baxımdan heç də sabit olmayan dünyamızda qardaşlaşması, dostlaşması müsbət hal kimi nəzərə çarpsa da, zənnimizcə genlərin qarışması artıq böyük bir fəlakətdir. Bu gün bizim hər birimizi təmizqanlılıq, təmizgenlilik problemi narahat etməlidir. Çünki bu problemlərin hədəfində bizim adət-ənənəmiz, milli kimliyimiz durur. Sosial sorğular, müşahidələr onu deməyə əsas verir ki, Azərbaycanda gənclik arasında güclü şəkildə təbəqələşmə var. Sosial, siyasi, zehni və bədii təbəqələşmə çağdaş gəncliyin dünyabaxışının formalaşmasına təsir edən amillərdəndir. Lakin bu mənzərə heç də ürək açan deyil və bu yerdə böyük Mirzə Cəlilin "Anamın kitabı" yada düşür.

Ailə institutunun milli yaddaşın yaşamasında, adət və ənənələrin unudulmamasında rolu çox böyükdür. Məsələn, əgər ailədə hər hansı bir milli musiqi-saz havası və yaxud da muğam səsləndiyi zaman valideyn ona mənfi münasibət bəsləyirsə, televizoru və ya radionu söndürürsə, həmin hadisə ailədə



böyüyən uşağın yaddaşına elə o formada da həkkə olacaq və beləliklə də keçmişlə gələcək arasında olan bağlılıq, harmoniya pozulacaq. Laylasız, oxşamasız, bayatısız böyüyən, hər havaya qol qaldırıb oynayan, şoulara, əyləncələrə meyl eyləyən gəncliyin beyninə milli düşüncəni yükləmək gec olacaq və beləliklə də biz gələcəyimizi itirəcəyik.

Hansısa bir görünməz əl tərəfindən milli düşüncəmizə, mənəviyyatımıza zərbə vurulması üçün KİV-lərin şoularına, seriallarına meydan verməklə gəncliyimizin beyninin zəhərlənməsi, onların manqurtlaşdırılması kimin dəyirmanına su tökür görəsən?

Yaddan çıxarmaq lazım deyil ki, biz müharibə şəraitində yaşayırıq və belə bir şəraitdə milli adət-ənənələrin unudulması, onların tarixin dərin qatlarına gömülməsi, qəhrəmanlıq fəlsəfəmizə "ağciyərlik" simptomlarının yol tapması bizi bütövlüyümüzə, birliyimizə aparan yollardan uzaqlaşdırır, milli məfkurə uğrunda əlbir, dilbir olmağımıza balta vurur. Böyük şairimiz Bəxtiyar Vahabzadə millətin gen və ruh problemini düşünərək yazırdı:

***Sən bizi aldatdın illərdən bər,***
***Mən çərxi- fələkdən dərs götürmüşəm.***
***Özgə anasından süd əmənləri***
***Özgə qulluğunda duran görmüşəm***

və yaxud:

***Xalqın tarixini bilməyən insan,***
***Özünü tanımaz, sözünü bilməz.***
***Səfalı çeşmədən su içən heyvan.***
***İçdiyi çeşmənin gözünü bilməz.***

Gəlin gələcəyimizi etibar etdiyimiz uşaqlara, gənclərə diqqət və qayğı ilə yanaşaq, onların savadlı, vətənpərvər böyüməsində öz böyüklük missiyamızı layiqincə yerinə yetirək, məsuliyyətimizi dərk edək və unutmayaq ki, gələcək bu gün qurulur. Bu günün gəncliyi isə gələcək hədəflərimizi müəyyənləşdirir və bizləri əvəz edir.



**Aygün HƏSƏNOĞLU**
***yazıçı-dramaturq, filologiya üzrə fəlsəfə doktoru***

## AZƏRBAYCAN İDEOLOGİYASININ QAYNAQLARI

Azərbaycan milli ideoloji təfəkkürünün qaynaqları çox-çox dərinliklərdən gəlir. Öncə qeyd etməliyik ki, ideologiyamızın prinsipləri türklük təfəkküründən qaynaqlanmış və intişar tapmışdır. Azərbaycan təfəkkürünü türklükdən ayrı təsəvvür etmək onu öz mənbəyindən, dayaqlarından ayırmaq deməkdir. Tarixin müxtəlif dövrlərində ictimai-siyasi proseslərin təsiri ilə ideoloji düşüncəmiz müxtəlif təsirlərə məruz qalmışdır. Lakin bütün bu proseslər, tarixin hərəkətverici qüvvələri, cərəyanlar və baxışlar sistemi ideoloji təfəkkürümüzü türklük qaynağından ayıra bilməmişdir.

Azərbaycan ideoloji təfəkkürünün mifik təsəvvürlərdən bu günədək davam edən türklük psixologiyası üzərində intişar tapdığını, inkişaf etdiyini və genişləndiyini təsdiqləyən kifayət qədər əsaslarımız vardır.

Bütün köklü millətlər kimi türklüyün dünyaya baxışı və ilk fəlsəfi-ideoloji düşüncə tərzi mifik dünyagörüşdə özünü göstərmişdir. Məlumdur ki, Türk mifik təsəvvüründə əsas obrazlar Boz Qurd, Boz öküz, Qoç kimi totemlərdir. Bunların içərisində uzun yüzilliklər boyu öz nəhəng yerini qoruyub saxlayan, bugünədək dünyagörüşümüzdə izi qalan və hətta siyasi simvol səviyyəsinə qədər yüksələn əsas obraz Boz Qurddur.

Maraqlıdır ki, Boz Qurd toteminə inanclar nə qədər köhnəlsə də, ona sevgi heç bir zaman azalmamış, xalqımızın ən ağır zamanlarında, milli istiqlal mücadiləsində Boz Qurd milləti birləşdirən bir birlik və qurtuluş rəmzi kimi meydana çıxmış, bayraqlarda, emblemlərdə istifadə olunmuş, şifahi və yazılı ədəbiyyatda geniş əks etdirilmişdir. Boz Qurd miflərində Türkün xilaskarı, ədalət və azadlıq simvolu kimi ortaya çıxan

Boz Qurd Türk tarixində ən önəmli rol oynayan, millətin psixologiyasında siyasiləşən və canlanan bir baxışlar sistemidir desək, səhv etmərik.

Türk mifik təsəvvürü ilk yazılı abidəmiz hesab olunan "Kitabi Dədəm Qorqud" dastanlarında da özünü göstərir. "Qaçanı qovmadılar, aman istəyəni öldürmədilər", "İgid namərdlik etməz". Ədəbiyyatımızın ən böyük dahisi Nizami Gəncəvinin əsərlərində əsl türk obrazları ilə rastlaşırıq. Nizamı ədalətli, məğrur, haqqı na-haqqa verməyən xarakterlər silsiləsi yaratmaqla və zəngin nəsihətlər sistemi ilə böyük bir məktəb yaratdı. Məsələn, "Yeddi gözəl", əsərində olduğu kimi, bir hökmdar sadə bir kənizdən üzr istəyə bilər, yaxud "Nuşirəvan və bayquşların söhbətində" bayquşların söylədiklərinə görə padşah peşman olub ədalətli ola bilər. Və yaxud, bir qarının sözlərindən sultan utanıb xəcalət çəkə bilər. Nizaminin qəhrəmanları məhz bu hərəkətləri ilə bir nümunə idi.

Ədəbiyyatımızda ən çılğın poetik qəhrəmana Nəsiminin yaradıcılığında rast gəlinir. Üsyankar, cəsarətli, dövrün axınına və cəhalətə qarşı çıxmağı bacaran bir obraz!

Əsl Azərbaycan türklüyünün obrazına Hüseyn Cavidin əsərlərində rast gəlirik. "Maral" əsərində qəhrəmanının dili ilə Cavid yazır: "Bir Türk nə gülər, nə oynar, nə də ağlar. Gülmək çocuklara, oynamak çinganələrə, ağlamaq isə qadınlara yaraşar". Və yaxud, "Ana" əsərində ana oğlunun qatilini ona görə buraxır ki, qatil onun evinə sığınmışdır. Qonağa isə əl qaldırmaq Türkə yaraşan sifət deyil. "Qız məktəbində" şeiri ilə böyük şairimizin gənclərə nəsihəti ilə qarşılaşırıq. Hüseyn Cavid nəinki Azərbaycan, hətta dünya türklüyünün ən xarakterik qəhrəmanlarını yaratmış şəxsiyyətdir.

***Turana qılıncdan daha kəskin bir qüvvət,***
***Mədəniyyətdir, mədəniyyətdir, mədəniyyət.***



- deyə yazan Cavid eyni fikri "Topal Teymur" əsərində daha geniş şəkildə tərənnüm etmişdir. Hüseyn Cavid Turançılıq, Türklük ideyalarının ən böyük tərənnümçüsüdür. Onun istər şeirlərində, istər səhnə əsərlərində yaradılmış silsilə obrazlar və ideyalar sistemi Türklük nəzəriyyəsinin, Milli İdeologiyanın bütün tərəflərini özündə əks etdirir. Milli İdeologiya nəzəriyyəsinin yaradılması üçün məhz Cavid yaradıcılığını dərindən öyrənmək, misra-misra, obraz-obraz təhlil etmək və onun qurduğu ideoloji nəzəriyyəni üzə çıxarmaq yetərlidir. Cavid yalnız şair, dramaturq, yaxud filosof deyil, həm də nəzəriyyəçidir, ideoloqdur.

Cəfər Cabbarlının qəhrəmanları isə daha üsyankar, daha fəal və cəmiyyəti dəyişdirməyə qadir olan insanlardır. Çox gənc yaşlarında həyatı tərk etmiş böyük dramaturq insanla cəmiyyəti bölünməz, tam bir vahid kimi görür, şüurlarda yaranan oyanışın, mədəni dirçəlişin bir nöqtədən başlanaraq bütün çevrəni, cəmiyyəti dəyişdirməyin mümkün olduğunu göstərir. Cabbarlının əsərlərinin son dərəcə təmiz, saf dildə yazılması, bütün fəaliyyətində dilimizin yad sözlərdən təmizlənərək türkləşməsi üçün mübarizə aparması, qəhrəmanlarına məhz milli adlar seçməsi, bir azərbaycanlı türkün taleyin zərbələri qarşısında aciz qalmadan mücadiləyə qalxaraq, inkişaf edərək, öz yolunu məhz özü seçərək azadlığını əldə etməsi də örnək ola biləcək xüsusiyyətlərdir.

Azərbaycanın bütün ağrılarını, dərdlərini öz yaradıcılığında bir güzgü kimi göstərən Cəlil Məmmədquluzadənin "Anamın kitabı" əsərində milli düşüncə bir neçə xətt üzrə inkişaf edir. Birinci xətt millətin övladlarının dilə münasibətdir, ikincisi vahid ideologiyanın olmamasının yaratdığı fəsadlardır. Xeyriyyə məqsədi ilə keçirilən toplantıda aclara yardım məsələsi müzakirə olunarkən, fərqli ölkələrdə təhsil alan ziyalılar o ölkənin dili ilə danışdıqları üçün heç kəs bir birini başa düşmür, nəticədə yardım baş tutmur. Lakin əsərdə ana tarixi,

yaddaşı, milli düşüncəni əks etdirən iki obraz var: Doğma dilindən başqa heç bir dil bilməyən Gülsabah və tarixi yaddaşın daşıyıcısı və ötürücüsü Ana ilə onun kitabı.

Həmişə savadsızlıqla, cəhalətlə mübarizə aparan Cəlil Məmmədquluzadə yabançı ölkələrdə təhsil alarkən yabançılaşmağın əleyhinə idi və bunun nəticələrini "Anamın kitabı" əsərində göstərmişdir.

Almas Yıldırım poeziyası Azərbaycan türklüyünün iztirablarını, həyəcan və düşüncələrini, üsyankarlığını əks etdirən ən gözəl nümunələrdir.

Ümumiyyətlə, ədəbiyyatımızda milli ideoloji düşüncəni əks etdirən kifayət qədər ədəbiyyat vardır. Çağdaş yazıçılarımızdan İsa Hüseynovun İdeal (Əbədiyyət) romanında tarixi vərəsənin qorunması uğrunda gedən mübarizə öz əksinin tapmışdır. Bu vərəsənin (tarixi yaddaşın) qoruyucuları nəsildən-nəslə, zamandan-zamana ötürürlər, çünki vərəsə millətin hələ üzə çıxmamış tarixidir. Mövlüd Süleymanlının "Səs", Elçinin "Ölüm hökmü", Yusif Səmədoğlunun "Qətl günü" romanları da millətimizin keçdiyi tarixi proseslərin onun milli şüuruna, ruhuna vurduğu zərbələri əks etdirir. Bu əsərlər nə qədər mükəmməl olsalar da, sonda bədbinlik ruhu hakimdir.

1979-cu ildə 28 yaşında həbsxanada vəfat etmiş Tofiq Vəndamlının 2005-ci ildə çap olunan "Qandal qolda nə yazım" adlı kitabında "Çağırış", "Vətən desinlər" kimi şeirlərində əsl vətəndaş obrazı yaradılmışdır.

Lakin təəssüflə qeyd etməliyik ki, son dövr ədəbiyyatımızda Milli İdeologiyanı əks etdirən və tərənnüm edən əsərlər demək olar ki, yaranmamışdır. Özünü yeni ədəbiyyatın nümayəndəsi adlandıran "posmodernist" gənc müəlliflər bəşərilik ideyasını təqdim etməklə əslində milli simasızlıq, yüzilliklərlə təfəkkürümüzdə qorunub saxlanan milli dəyərləri dağıtmaqla ədəbiyyatda qalmağa, beynəlxalq məkanda tanınmaq istəyirlər. Bu müəlliflər unudurlar ki, hər bir şəxsin dəyəri



əslində onun böyük bir kökə bağlılığı, məhz özünə məxsus olanlara sadiq qalması ilə müəyyənləşir. Bir avropalı üçün Avropa əxlaqını təbliğ edən əsər yalnız siyasi cəhətdən cəlbedici ola bilər. Amma bir Şərq, bir asyalı, bir azərbaycanlı türk əxlaqını əks etdirən əsər bilmədiyi, dərk etmək istədiyi bir dünyanın əksi kimi daha maraqlıdır və daha yüksək dəyərləndirilir.

Məsələn, Qurban Səidin "Əli və Nino", "Altunsaç" romanlarında Avropa ilə Asiya, Şərq-Qərb təfəkkürünün, əxlaqının toqquşması bütün kəskinliyi ilə göstərilmişdir. Burada əks əxlaqların təmsilçisi olan qəhrəmanları sevgi birləşdirir, lakin onların təfəkkürü dəyişmir, hər biri sonadək öz baxışlarını müdafiə edir. Bununla böyük yazıçı-ideoloq bir-birinə əks olan ideyalar dünyasında da öz ruhunu qorumağın mümkün olduğunu göstərmişdir. Demək, ədəbiyyatda əsas məsələ nədən yazmaq deyil, necə yazmaqdır. Yalnız güclü qələmi olan yazıçı başqa tərzləri təqlid edir, böyük yazıçılar isə yaratdığı əsərlərin mükəmməlliyində həm də öz baxışlar sistemini yaradır, təqdim və təbliğ edirlər.

Təəssüflə qeyd etməliyəm ki, böyük şair və yazıçılarımızın ədəbiyyatın dili ilə təqdim etdikləri milli ideoloji düşüncəyə münasibəti çağdaş şair və yazıçılarımızda yox dərəcəsindədir. Bunu nəzərə alaraq yaradıcılığımı, bütün qüvvəmi Milli İdeologiyamızın təbliğinə yönəltdim. Adlarını çəkdiyim böyük şəxsiyyətlərin yolu ilə gedərək yazdığım bütün əsərlərimdə Milli İdeologiyanın nəzəri sistemini yaratmağa çalışmışam. Hesab edirəm ki, bir yazıçının millətə ən böyük xidməti də məhz budur.

Yuxarıda qeyd edilən əsərlərin təhlili zamanı milli ideoloji təfəkkürümüzün aşağıdakı çalarlarını qeyd etmək olar:

1. ***Heç bir millətə, heç bir etnik qrupa və dinə qarşı çevrilməyən əsl Türklük!***

2. ***Milli dəyərlərə hörmət və sədaqət;***

*3. Çağdaşlıq və inkişaf; (Azərbaycan türklüyü həmişə çağdaş zamanın tələblərinə cavab verib);*
*4. Elm və mədəniyyət;*
*5. Türklüyə əks olmayan Asiya və Şərq dəyərləri;*
*6. Bəşəri dəyərlər;*
*7. Dini dəyərlərimiz (totemizm, şamanizm, atəşpərəstlik və bütün dinlərin ən mükəmməli olan İslamın ən gözəl dəyərlərinin öyrənmək);*
*8. Torpaq, yurd, ocaq dəyərləri;*
*9. Ana, ata-baba, böyüyə, qonağa hörmət;*
*10. Çörəyə hörmət;*
*11. Dövlət maraqları;*
*12. Ana, bacı, qadın namusu;*
*13. Kişinin qoruyucu, qadının yaradıcı rolu və s.*

Ancaq təəssüflə deməliyik ki, bu gün ictimaiyyətdə, KİV-də, bədii filmlərimizdə və ədəbi əsərlərdə milli ideoloji təfəkkürə laqeydlik, biganəlik vardır. Teatrlarımızda milli ruhda olan əsərlərə demək olar ki, yer verilmir və KİV tərəfindən heç bir reklamı aparılmır. Son illərdə çəkilən, Qarabağ müharibəsinə hyüzillik olunmuş filmlərimiz həm ideoloji-siyasi, həm də sənətkarlıq baxımından çox zəifdir. Hesab edirik ki, milli ruhda olan sənədli və bədii filmlərin çəkilişi ilə məşğul olacaq xüsusi kinostudiyanın yaradılmasına, bu məqsədə xidmət edən əsərləri dəstəkləyən və təbliğ edən mərkəzin yaradılmasına ehtiyac vardır. Milli İdeologiya millətin gələcəyinin təməlidir, onu yaşatmaq, qorumaq və inkişaf etdirmək lazımdır. Azərbaycan ideologiyasının qaynaqlarından söz açarkən Əli bəy Hüseynzadəni unutmaq olmaz. Əli bəy Hüseyn-zadə Türklüyün ideya ocaqlarını yandıran ilk şəxsiyyətlərdən olmuş, ideoloji düşüncəmizin siyasi-ideoloji nəzəriyyəsini yaratmışdır. Bəli, ideologiyamızın qaynaqları vardır. Bundan sonra da olması və yaşaması üçün xüsusi nəzəri sistemin prinsiplərinin hazırlanmasına, təkmilləşdirilməsinə ehtiyac vardır.



**ƏKBƏR QOŞALI**
***DGTYB Başqanı***

## ALNIMI OXUMUŞ KİMİ...

***Bu yazını A.Turana, onun «Cavid əfəndi» və «İrfan çobanı» kitablarına ad edirəm.***

Amalsız adam gözəl ola bilməz. – Sözün bütün anlamlarında gözəl ola bilməz. «Dünyanı gözəllik qurtaracaq.» – Tanrısı gözəllik və sevgi olanlar qurtaracaq dünyanı. Mən düşünə bilmirəm, məişət ölçüsünün dışında yalnız əlyetər, ünçatarla gözü doyan, olumsuzu olumlu etmək üçün çaba xərcləməyən birisi necə şair, yazar olar; devrimçi ola, vətənkeş ola bilər?

...Biz çevrəmizə qayıl olub durmamalıyıq. Biz balaca-əzilmiş, səsi eşidilməyən, ikili ölçülərlə yönədilən dünyada daha heç nə eləyə bilməyən, uluslararası düzəni dəyişdirə bilməyən ortamla, parçalanmış ulusluğumuzla barışmamalıyıq... Haqsızlıqla barışmamazlıq və ya haqq bildiyin iş uğrunda çarpışmaq heç zaman cavabsız qalmır. Elə şeir-yaradıcılq alanını götürək. Füzuli dahi şeir ustadının «Şeirdən ucalıq umma dünyada, çünki, Nizamiylə qurtardı o da» uyarısından sonra dünyaya ün salmadımı? Siyasi-hərbi alanı götürək. Uzun yüzillər dövlətsiz qalan yəhudilər daha XX yüzilin ikinci yarısınadək sürən çabaları sonucu amaclarına qovuşmadılarmı?

İstər birinci örnəkdə dörd yüz il sonra olsa belə şeirlə ucalmağın olumluluğunu göstərən–daha doğrusu yaşayan; istərsə də ikinci örnəkdə olduğu kimi özlərinə görə haqlı bildikləri inadlarından dönməyən, bir ulus olaraq tökülüb-itməyən yəhudilərin çatdıqları məqam (o məqamdır-məqam deyil olanağını qırağa qoyuram, bu başqa yazılıqdır. Bir də yəhudilərin çatdıqlarını öymürəm, yalnız olmuşu deyirəm!) «düşünəndə,

çarpışanda, vuruşanda olur!» həqiqətini aydın şəkildə göstərir. Yenidəlik olmasın, çağdaşımız olmuş Asif Atanın sovetlərin verdiyi titullardan, silkinib də doğrudan-doğruya filosofluğunu, us(fikir) babalığını sübuta yetirməsi örnəyində də, yaradıcılığının həyacanverici içəriyində də görməkdəyik (heç quşqusuz onu filosof, bilgin kimi qəbul etdiyimi, peyğəmbərliyini qəbul etmədiyimi bildirməliyəm. Ancaq bu yazı dini və ya antidini məqamlara köklənmə-di-yindən bu barədə danışmayaq.)

***

Dünyada ikili ölçülərlə yönəltmənin başında duran və yandaşı olan dövlətlər var ki, ulusları sayartımından yoxsundur, ailə yapısı, böyük-kiçik, ədəb-ərkan kuralsızlığı öz işini görür. Dünya onu yaradanın qoyduğu nizama tabedir. Akademik Azad Mirzəcanzadənin təbirincə desək doğada *avtoraqs* mövcuddur. Yaradılış harmoniyaya möhtacdır. Heç kim və heç nə türkə, Azərbaycana qarşı haqsızlıqdan əl çəkməyən güclərin yaşadığı qarğınmışlığın qarşısını ala bilməz! Deyəsən öz «xoş gün»lərini–ulusal və kişisəl qocalıqlarını bizim ulusumuza da pərçim eləmək istəyirlər.

Cavid əfəndi də, «Cavid əfəndi» də, İrfan çobanı da, «İrfan çobanı» da deyir ki, ey ulus, ey ulus övladı, belə olmamalıdır və belə olmaması üçün sənin dolu özqaynaqların var! Bu kitablar yazarının XIX yüzilliyin sonu-XX yüziiliyin başlanğıcında intişar tapan türkçülük fikrinin, xantürkçülük ülküsünün çağdaş mədəni-mənəvi quruculuq sürəcinə, onun belə demək olarsa, strukturuna bir düzən, nizam-intizam gətirmək üçün cəhdi, ən azından töhfəsidir. Özü də bu iş «guya azərbaycanlılar»ın – Azərin tay-tuşu olan bir para «əli qələmli»nin ānti-türk, anti-Azərbaycan düşüncəsini güncəl etmə çabalarının sürdüyü bir vaxta təsadüf edir. Görünür doğrudan-doğruya dünyada təsadüf yoxdur və bu da tam doğal bir şəkillənmədir.



Hər bir hərəkət özünə qarşı başqa bir hərəkəti doğurma enerjisini «bətnində» gəzdirir.

Heç quşqusuz biz «gözü çıxan qardaşın» halına düşməməliyik. Dəyərlərimizi; Olanlarımızı; Öy-eşik (Ailə), böyüklük-kiçiklik qatımızı; Yarınlara Umudumuzu qorumalı; Ulusumuzu yüksəltməliyik.

***

Heç düşünmüsüzmü, bir yeniyetmə, bir tələbə Cavid əfəndini (və ya "Cavid əfəndi»ni) oxuduqdan sonra ruhani, bələkə bir az romantik və doğal olaraq edulusçu ovqata köklənmişkən, az qala addımbaşı ulusdan haram yollarla oğurladıqlarını haram işlərə səpənlərlə rastlaşır, onları bəlli bir mövqedə görürsə hansı duruma düşür... – Bəlkə br az xırdalığa varacağam, – qoy olsun. – Həmin gənc tanıyır, bilir və görürsə, filan yaramazlar bir istedadın əlindən tutub qaldırmır; boynuyoğunlar hansısa «şpakilovka»lı müğənnidən fərqli olaraq Qarabağ əlilini qəbul otağında gözlədir, gözlədir və geri qaytarır; yeyəcək, geyəcək adı ilə dışarının zir-zibilini gətirib piştaxtalara doldurur... gərək önləyici alt düşüncə yapısına yiyələnmiş ola ki, əli-ayağı yanına düşməyə. Bilə (idrak edə) ki, onlar bizim sifətimiz deyil, bir ulus öz dahilərinin, aydınlarınan, qəhrəman və fikir adamlarının kimliyi ilə tanınır...

Yuxarıda rahatsızlıqla dayandığımız məqamlara bir başqa açıdan yenə qayıtmaq istəyirəm... Təlim-tərbiyə yerinə antitərbiyə verən «təhsil ocaqları»nı deyirəm... «Təlim-tərbiyədən anlamayan bir müəllim... fəzilət yerinə rəzalət öyrədər» (H.Cavid). Təhsilinə zərbə vurulan ulusun Gələcəyinə zərbə vurulmuşdur. Hər bəlanın başında da təhsilsizlik, savadsızlıq və də bu göstəricidə olanların, Tanrı göstərməsin, irəlidə olması gəlir. Aşınma, qaşınma verən paltarların, keyfiyyətsiz malların ölkə sınırlarından keçirilərək dükan-bazarlarımıza daşınması; ərzaq təhlükəsizliyinin gözlənməməsi dəyərələrin əl

çirkinə dönməsidir... Nihilizim, məzdəkizim elementləridir bu. Qafil bədbəxtlər düşünmür ki, ətrafı, qonum-qonşusu xəstə olandan sonra onun da sağlıq durumu risq altına girir... İstedadın, vətənkeşin, ismətlinin yolunu bağlamağa çalışan həpənd qanmır ki, beləcə efirdən-ekrandan özünün, əzizlərinin də evinə istedadsızlıq tökülür, zövqsüzlük yağır. yan-yörəsi mənfi enerji ilə sarılır... Onun zornan ünlü etdikləri sınır içində ailəsini urvatsız etdiyi kimi, sınırımızdan dışarı çıxan kimi də adımızı batıracaq və sabah-birisi gün bir dış səfərdə o qara enerji çevrilib «sponsor cənabları»nın elə özünə münasibətdəcə əks olunacaq... Adam üzünü dönüklərə, mənəviyyatını itirmişlərə tutub ölkə boyu qışqırmaq istəyir ki, sən ismətlini işə götürmədikcə, üzüsulunu evsiz qoyduqca, üzüntülərin içində qalmağa vadar etdikcə–əxlaqsızlığı stimullaşdırdıqca öz öyeşiyinə uzanan qara, görunməz əlləri də bir az uzatmış olursan!.. Şəxsiyyətlini sındırmağa, qürurlunu əyməyə cəhd etmək təhlükəli işdir. Mərdi qova-qova namərd edərlər–belə deyib atalar. ...Eşitmirsiz, ürəklə bağlı üzüntülərdən nə qədər adam ölür?!. Ürəklilər öldükcə sən heç nə qazanmırsan, ey ulusumun üz qarası!.. (Bəlkə doğrudan da «sözünü o kəslərə de ki, səni eşitmirlər...» (Mirzə Cəlil)

...Və üzünü ləyaqətli soydaşa tutub demək istəyirsən: –Həkim savadsız, dərman saxta, məmur özbaşınadırsa-qırılma, sınma! Bu nə sənin dövlətinin baxışı, görüşü deyil, nə də ulusunun. Bu həmin yaramazın və onun özü kimilərin özəlliyidir. Bax elə biri sən özün, sən özün elə olarsanmı? İnan ki, naxışına çıxan durum heç də bütün ağxalatlıların, bütün dövlət işçilərinin, bütün iş adamlarının halını göstərmir. Böyüklərinlə təsəlli tap. Sən özün boyda yaxşı ol! Damcı daşı dələr... And içəndə Quran haqqı deyirsən. Eləsə Qurana inan və irəli bax: Haqq sözü deməkdən çəkinmə, haqq olan işi gör!..

Dinə də əydəş-üydəş mollaların baxış bucağından boylanıb darılma... Qəbiryeri satanları özünə dərd eləmə... Onların haram yolla yığdıqları pullarla ucaltdığı binalar sabah-birisi gün ulusun cocuqlarının ixtiyarında olacaq, inşallah. Heç bir haram halala çıxmır! Halalı harama dönüşməkdən qoruyaq! Kitablar da bunu deyir.

Ulusoğlu, ulusqızı, Azər Turanın haqqında yazdığı azman kişini oxu və hansı fikr qalalarına, bürclərinə, yola-irizə malik olduğunun fərqinə var. (Uusunun, insanlığın dünəni, bu günü, sabahı haqqında düşünməyən mənsəb sahibləri hansı kitab-dəftəri oxuyur, görəsən?) Biz sürünənlərdən oluşmamışıq. Şair demiş, sən qanadlı ulusun övladısan. Ömrü boyu şəhid ərinə vəfalı qalan gülüzlü xanımlardır sənin ulusunun qadını! Məmməd İsmayıl demiş, oğlunu bir qılınc kimi nəfsiylə öz arasına qoymuş cavan analardı sənin ulusunun qadın kimliyini şəkilləndirən qadınlar! Azərin kitabları–Azərbaycanın kitabları bir daha söyləyir: «Özünə dön, sən özünə dönəndə böyük olursan!»

***

İndi – internetin gəlişdiyi bir vaxtda dəqiq bilgilər qaynağında qalxınmış alanlardan çox yazır, çox deyir və sanki bizim ulus adımız adlar, qolumuz qollar içində yoxmuş düşüncəsinə qapılanlar–burdan da çıxış edərək, yanlış yola varıb «ulusçu olmadan bəşəri olmaq» istəyənlər, bilməm, ingilisvari, ispanvari, fransızvarilik sərgiləyən, bir-iki dış yazarın ətəyini tutub buraxmayan «guya azərbaycanlılar» peyda olub... Və də «biz düzəlmərik», «bizdən ulus olmaz», «yenə rusun dövründə yaxşıydı...» kimi yaramaz fikirləri yeritmək istəyirlər ictimai şüura.

***

Dəqiq elmlər üzərində intişar tapan alanlar dedik... Əfəndimə söyləyim, Fərabi kimdir, Tusi kimdir? Ya Lütfi-

zadə?!. Baxma, orta məktəbdə dış (bu sırada daha çox rus), ümumən xaçpərəst bilginlərin adını beynimizə «həkk» etmişdilər. – Onlardan qabaq, bizə onlarınkıymış kimi sunulan biliklərin, teorilərin özəyini Fərabinin, Nəsirəddin Tusinin, başqa bilginlərimizin araşdırma, incələmə və hesablamaları tutur... Zamanında biz türklər – «dünyanı xaosdan qurtarıb, harmoniyaya gətirmiş ulus» (prof. N.Cəfərov) başqalarını qorumuşuq, biz yaratmışıq, biz kəşf etmişik başqaları faydalanıb, indi də kiminsə yaratdığından faydalanırıqsa, eyb etməz. Dünyada yaxşı nə varsa onun hamıya içərikliyi var. Dahilərin yaratdıqlar bəşəriyyətə aiddir. «Hər bir elmi ideya başqasının davamı kimi ortaya çıxır. Elmi fikirlər toplanaraq bütün dövrlərin və bütün millətlərin vahid, möhtəşəm bir abidəsini yaradır.» (prof. S.Xəlilov). Hansı birini deym, – bilgisayar yüzilliyidir deyirik. Qardaş, yeni nəsil bilgisayarlar bizim soydan olan Lütfizadənin qeyri-səlis məntiq teorisi qaynağında yaradılmayıbmı? Ya astronomiyanı götürək: Dünyanın uzay tarixində türklərin–azərbaycanlılar general Kərim Kərimovun, akademik Tofiq İsmayılovun, uzayçı Musa Manarovun, uzaya çıxan ilk insan-çuvaş Qaqarinin, uzaya dunyada üçüncü çıxmış və 2 dəfə uzayda olmuş çuvaş Andrian Nikolayevin, qazaxlar-5 dəfə uzaya çıxmış Vladimir Canıbəyovun, 2 dəfə uzay yolçuluğu etmiş Talqat Musabəyovun, Toxtar Aubakırovun; habelə qazax torpağı Baykonurun adı özəl olaraq keçir...

***

Dövlətçilik, vətənkeşlik, sədaqət, məhəbbət, şəhidlik, bəşərilik, mədəniyyət barədə–hər hansı bir alanda, daha nə barədə–hansı qutsal çatacaq haqqındasa söhbət düşəndə başını dik tutası, ən alnıaçıq uluslardan biri bizik. Dünyanın etiraf edib-etməməsindən asılı olmayaraq, yalnız son günündən bizi illər ayıran yüzillik üzrə bir neçə ad çəkmək bəs edər ki, ulu-



sumuzun böyüklüyünü, qəhrəmanlığını, intellektini, düşüncəsinin miqyasını apaydan göstərə bilək: Cavid əfəndi, Məmmədəmin Rəsulzadə, Fətəli Xan Xoyiski, Cəfər Cabbarlı, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Üzeyir bəy Hacıbəyli, Yusif Məmmədəliyev, Həzi Aslanov, İsrafil Məmmədov, Heydər Əliyev, Qara Qarayev, Səttar Bəhlulzadə, İsa Muğanna, Mikayıl Azaflı, 20 yanvar qəhrəmanları... Qayalıqdan özünü atan Kəlbəcərli qadınlar... Məftun və Leyla... Əliağa Kürçaylı və qızı Ülkər... İlham və Fərizə...

***

O fikirlə razıyıq ki, «sovet dövründə fəlsəfi fikir üçün əlçatmaz, ünyetməz ideoloji çəpər çəkildiyi bir vaxtda, neçə minillik tarixi olan milli məkurə ancaq bədii ədəbiyyat vasitəsilə sızıb keçir və gələcək nəsillərə çatdırılmaq üçün öz varisliyini, kəsilməzliyini təmin edirdi.» (prof. Səlahəddin Xəlilov). Doğrudan da biz günü bu gün belə tariximizin dərin qatlarına məhz ədəbiyyat, söz sənəti və qismən də abidələr vasitəsi ilə gedib çıxa bilirik. Burada «tarix yaradıb, tarix yazmamağımız» da, başqa bir nəsnə də aparıcı rola sahib ola bilər, ancaq deyilənləri danmaq olmaz. Azər Turanın fəlsəfi ağırlıqlı, fikir yüklü ədəbi yaradıcılıq örnəkləri bəlli yolda bir açar rolunu oynayır. Onun kitablarının ruhuna ədəbi, bədii təfəkkürdən daha çox hakim kəsilmiş elmi düşüncə yazarın əsəbi olanaqlarda belə təmkin göstərməsinə yardımçı olmuşdur. Ancaq açıqcası, biz bu yazımızda əsəbiliyimizi gizlətmək fikrində deyilik.

...Qardaşlar, bütövləşmə həsrəti daha neçə nəsilləri dərdlətməli, neçə gəncliyi qocaltmalıdır? Nə vaxta qədər «çöpü də ikiyə bölməyəcəyik»? Yoxsa zaman-zaman «dolanıb qanımız olan» yad südüdür, altını çəkdiyimiz? Ağır suallardır. Amma bu suallardan sonra Atatürkün «Hər halda dünyada

haqq var və o haqq qüvvədən yüksəkdir» kəlamı hayımıza gəlir, umudumuzu bir daha közərdir...»

Biz bu közərtini «İrfan çobanı»nda, «Cavild əfəndi»də görürük. Onlara qədər oxuduqlarımız necə olsa da oxumaq istədiklərimizin tamı deyildi. Xalq şairi Zəlimxan Yaqubun təbirincə desək, yazmışdılar oxumuşduq, yazırıq oxusunlar. ...Həmişə bir boy daha irəli yönəlmək, daha üstün hədəflərə yürüməkdən başqa yol yoxdur. Başqa yol var, sadəcə o geriyə-istəmədiyimiz və getməyəcəyimiz yerə aparır!

***

...Azərdə də azərbaycançılıq ilk sırada türkçülüyə qayıdışı və dünyəviliyə irəliləyişi özündə birləşdirən ideya olaraq sunulur. Biz bunun ulusal dövlətçiliyimizə xidmət edən yanaşma – kökən və coğrafiya baxımından «Bütöv Azərbaycan» ülküsünə xidmət edən ideya kimi təbliğ olunmasını alqışlayırıq.

...Azərbaycan Türk Dünyasının bir hissəsidir. "Azərbaycanda türkçülük ilk sırada əsl tariximizi azdırmamaq, onun əsl köklərinə qayıtmaq, ana dilimizi kimlərinsə zor gücünə qəbul etdirdiyi lisan kimi deyil, əcdadlarımızın binədən danışdığı dil kimi qəbul etməkdir. Türkçülük türk xalqlarının ortaq mənəvi, tarixi və mədəni dəyərlərinə sadiq qalmaqla yanaşı, ilk öncə Azərbaycan türkü olduğumuzu unutmamaq deməkdir. Türkçülük türk xalqlarının birliyi, qardaşlığı olduğu kimi, başqa xalqlara da dost gözüylə, xoşgörüylə, barışçı və dözümlü baxışla baxmaq deməkdir." (Anar).

Yeri gəlmişkən, Türk yazarı, Türkiyəli yazar adı üzərində də gəzişmə (manipulyasiya) edən «tərcüməçilər» (türkcədən türkcəyə tərcümə?!.) türkə qətiyyən dəxli olmayan «ağaltun» soyadlıları, hətta Türkiyənin bölücülüyü alanında «şer ideoloqluğu» edən «daş-kəsək» soyadlıları ədəbi topluma sırı-



maq istəyirlər. Türk düşüncəsindən uzaq olanlar Türk ədəbiyyatını, kültürünü sərgiləyə bilməz!..

Adı və sözükeçən kitablarda olduğu kimi biz də o düşüncədəyik ki, XXI yüzildə türk dövlət və topluluqlarının istər mənəvi, istərsə də iqtisadi, mədəni birliyinə nail olmaq görəvi əsaslı şəkildə məhz bizim xalqımızın üzərinə düşən tarixi bir görəvdir. Bu missiyanı yerinə yetirərkən, Oljas Süleymenovun «Əgər dünya kəndi bir neçə evdən ibarətdirsə, bu evlərdən biri də şübhəsiz, türk evidir" sözlərinə haqq qazandıraraq, türk evinin azad, dolu, örnəkçi olması üçün ədəbiyyatçıların, yaradıcı gəncliyin üzərinə böyük görəvlər düşdüyünü unutmamalıyıq. İki sanballı kitabın yazarı bu unutqanlıqdan nə qədər uzaq olduğunu və unutqanlığa qarşı nə qədər dözümsüz olduğunu elmi-publisistik dillə bütün turk oxucusuna çatdırır. (Ancaq həmişə soyuqqanlı olmaq mümkün olmur və bu da xalq yazıçısı Anarın kitaba yazdığı «ön söz»də öz əksini tapır...)

***

Söylədiymiz kimi, artıq ötən yüzilin sonlarından dünyada kürəsəlləşmə prosesi vüsət götürüb. Uluslararası qurumların təlimatları az qala qutsal dini mərkəzlərin fitvaları kimi ölkələrə, xalqlara nüfuz edir. Dünya iqtisadiyyatı vahid bir sistem çərçivəsində təmərküzləşməkdədir. Kürəsəlləşmə sürəcində, ulus özbərliyimizin sıradışı edilməməsi üçün ulusal və us dəyərlərimizi, yüzillərin süzgəcindən keçmiş gələnəklərimizi qoruyub, Qafqazlardan Türk Dünyasına daşımaq, onları ortaq türk kültür dəyərləri ilə daha da dolğunlaşdırıb kürəsəl boyut qazandırmaq gərəklidir. Azərin hər iki kitabında uyğun məqamlardan çıxan ideya belə bir fikirlə ümumiləşdirilə bilər: "Kürəsəllik həm də ulusal kültürlərin bir-birinə qovuşaraq insancıl məzmunlu ümumbəşəri kültür xəzinəsi yaratmaq deməkdir" (f.e.n. Y.Günaydın). Bu sürəcdə ümum-

türk mənəvi dəyərlərinin öncül mövqelərə çıxması elə həm də İrfan çobanının və "İrfan çobanı"nın, Cavid əfəndi və «Cavid əfəndi»nin dediklərindən keçir.

Çox işlər görə biməmişik. Gördüyümüz işlərdə də bəlkə çox yanlışlıqlar ola bilər. «Bir balaca fikirləşsək, o saat özümüzdə hər hansı günah tapmış olarıq» (Kant). Ancaq əsas irəli yürümək istəyində qərarlı olmaqdır. Qərarlı olmaq! Qərar-bu isə alternativlərdən ən yaxşısının seçilməsidir.

***

Yeni toplumu yeni təfəkkür quracaq. «Yeni təfəkkür–yeni nəsil tərbiyə etməlidir. Bu isə o zaman mümkündür ki, nəsillər bir-birini başa düşsünlər və həqiqət özünün bütün mücərrədliyi, polemikliyi ilə həmin nəsillərdən bir-birinə maneəsiz keçsin...» (prof. N.Cəfərov). «...Milli fəlsəfi fikrin hüdudları isə, ilk növbədə, dilin hüdudları ilə məhdudlaşır. Bəsit dillə böyük fəlsəfə ortaya qoymaq mümkün deyil.» (prof. S.Xəlilov). Həm haqqında yazdığı Kişinin dili, elə həm də A.Turanın öz dili, üslubu bu anlamda məhdudluğun sınırlarını aşır...

***

Cılız adamlar TURAN qura bilməz! Turan qurmaq bəlkə heç ümumiyyətcə insan iradəsində deyil! Bu Tanrı yazısıdır! Biz qutsal çatacağa çatacağıq—alnımı oxumuş kimi bilirəm!



**Anar ƏLİYEV**
*Azərbaycan Milli Elmlər Akademiyasının*
*Tarix İnstitutunun dissertantı*

## AZƏRBAYCANIN DÖVLƏT RƏMZLƏRİ, ONLARIN MAHİYYƏTİ VƏ İDEOLOJİ-TƏRBİYƏVİ ƏHƏMİYYƏTİ

Dünyanın bütün dövlətlərinin özünəməxsus dövlət rəmzləri mövcuddur və bu rəmzlər onların tarixi keçmişlərindən tutmuş, işıqlı gələcəklərinə doğru olan prinsipləri özündə əks etdirir. Hər bir xalqın öz düşüncəsi olduğu üçün, onun milli atributlarında onun milli düşüncəsi öz əksini tapmalıdır. Çünki atribut ölkənin mayakı, xalqın vizit vərəqəsidir. Hər bir dövlət yaradan xalq ilk növbədə öz atributlarını təsis edir ki, onun dövlətçiliyinin siması olsun. Ona görə də, dövlət yarananda ən aktual problemlərini sanki kənara tullayaraq, atribut məsələsini təsis etməyi qarşısına məqsəd qoyur. Milli rəmzlər elə aktual mövzudur ki, hətta dövlətçiliyini yaratmamış lakin buna doğru can atan hansısa xalqın və yaxud mübarizəni sivil yolla və yaxud separatçı üsullarla aparan qruplaşmanın belə öz atributları mövcuddur. Çünki, atribut istər xalqın, istərsə də hansısa qurumun və ya separatçı birliyin ən böyük mübarizə simvoludur. Hansı ki, bu simvolun sayəsində onu tanıyırlar, ona qarşı birləşirlər, onu məhv edirlər və ya gücü qarşısında tab gətirməyib onunla hesablaşırlar.

Azərbaycan xalqının da öz fikrini, düşüncəsini əks etdirən siyasi müstəqilliyi və bu müstəqilliyi əks etdirən bayraqdan, gerbdən, himndən ibarət dövlət rəmzləri mövcuddur. Ana qanunumuzda yazıldığı kimi, *"Azərbaycan Respublikasının dövlət rəmzləri–Azərbaycan Respublikasının Dövlət bayrağı, Azərbaycan Respublikasının Dövlət gerbi və Azərbaycan*

*Respublikasının Dövlət himnidir." (Azərbaycan Respublikası Konstitusiyası, 23-cü maddə)*

*Azərbaycan Respublikasının Dövlət Bayrağı*

Azərbaycan Respublikasının tanıtım vəsiqələrindən, dövlətçilik rəmzlərindən biri onun Milli Bayrağı- Dövlət bayrağıdır. Milli bayraq – siyasi-ideoloji, mənəvi baxımdan bir millətin və bu milləti təşkil edən dövlətin mövcudluğunu təsdiqləyən rəmzdir. "**BAYRAQ** sözü ümumtürk mənşəlidir və tarixi çox qədimdir. Hələ 1000 il bundan öncə böyük türk dilçisi, dahi bilgin Mahmud Kaşğarlı özünün ünlü "Divanü-lüğət-it-türk" əsərində çağdaş dilimizdəki anlamda və **BAYRAK-BATRAK** fonetik variantlarında qeydə alınmışdır. Eyni zamanda tədqiqatçıların fikrincə, həmin söz "**BATIRAK/ BATRAK/ BAYRAK**" semantik-struktur təkamül modeli əsasında **BATIR** – (batırmaq, "sancmaq") felindən törəmişdir. Onu da qeyd edək ki, çağdaş türk dilində **BAYRAQ** sözü ilə yanaşı **SANCAQ** sözü də işlədilir ki, o da **SANCMAQ** felindən yaranmışdır". *(M.Mərdanov, Ə.Quliyev, Azərbaycan Dövlət Rəmzləri, "Çaşıoğlu"-2001, s.38).*

**BAYRAQ** sözü bir müstəqillik işarəsidir. Çağdaş anlamda bayraq, dövlətimizin, millətimizin müstəqillik, suverenlik, milli azadlıq və istiqlal rəmzi, simvolu funksiyasında işlənməkdədir. Dövlət bayrağı, milli bayraq müqəddəs anlam daşıyır. Millətin qeyrəti və namusu, şərəfi və ləyaqəti bayraqda ifadə olunmuşdur. Bayraq mükəmməl ideal olmasaydı, Respublika Prezidenti başda olmaqla, hər bir vətəndaş onun qarşısında ehtiramını bildirməzdi. Çünki bayraq milli azadlığın, istiqlal ideyalarının, bəşər sivilizasiyasında istər xalqın, istərsə də "Azərbaycan Respublikasının dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir və qırmızı zolağın ortasında



bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir." *(Konstitusiyanın 23- cü maddəsi)*

Göründüyü kimi, Ana qanunumuza uyğun şəkildə hazırlanan dövlət bayrağımız üç rəngli, ay-ulduzlu hissələrdən ibarətdir. Hər bir simvolun özünəməxsus tarixi-siyasi, mədəni amillərlə bağlı olan anlamı və funksiyası vardır. Onu da qeyd etmək lazımdır ki, bayraq, onun mənşəyi, tarixi təkamülü və çağdaş vəziyyəti, bayraqda əks olunan milli rəmzlərin anlam və istifadə təyinatları ilə, bayrağın qaldırılma və endirilmə mexanizmi və s. ilə veksilologiya elmi məşğul olur. Çağdaş veksilologiya elminin son məlumatlarına görə, hazırda dünyada mövcud olan dövlət bayraqları içərisində qırmızı rəngli bayraqlar birinci yerdə olub, ümumən mövcud bayraqların üçdə ikisini təşkil edir. Onun ardınca ağ, mavi, qara, və yaşıl rəngli bayraqlar gəlir. Bayraqlar rənglərin sayına görə də müxtəlif növlərə ayrılır ki, onlar içərisində üçrəngli bayraqlar üstünlük təşkil edir. Bu tipli bayraqlara **TRİKOLOR** ("üçrənli bayraq") deyilir.

1918-ci ildə M.Ə.Rəsulzadənin rəhbərliyi altında Şərqdə ilk demokratik quruluş olan Azərbaycan Xalq Cumhuriyyəti meydana gəldi. Təbii ki, min bir əziyyətlə yaranan respublikaya milli atributlar olduqca gərəkliydi. Belə olduqda böyük ideoloqumuz Əli bəy Hüseyinzadənin irəli sürdüyü ölkənin baş ideologiyası olan "Türkçülük, Çağdaşlıq, İslamçılıq" siyasi xəttinə uyğun bir bayraq hazırlandı və bu bayraq bu gündə Azərbaycanın müstəqilliyini özündə əks etdirir. O zaman cəhalət içində boğulmaq üzrə olan xalqımızın milli təəssübkeş ziyalıları, mənəvi, milli və çağdaş dəyərləri özündə ehtiva etdirən bir mübarizə xətti götürdülər ki, bu da sonunda ölkənin müstəqil dövlət olaraq elan edilməsinə gətirib çıxardı. Böyük maarifçi-ideoloqumuz Əli bəy Hüseynzadənin yaratdığı **"TÜRKLƏŞMƏK, İSLAMLAŞMAQ, ÇAĞDAŞLAŞMAQ"**

düsturu ziyalılarımız tərəfindən dəstəkləndi və sonralar Türkiyənin böyük mütəfəkkiri Ziya Göyalp tərəfindən daha da inkişaf etdirilib konsepsiya halına salındı. AXC yaranandan sonra da bu ideyalara sadiq qalaraq öz milli atributlarını bu düsturun üzərində qurdu. Hələ AXC-nin ilk parlamentinin açılışını edən Azərbaycan Milli Şurasının sədri M.Ə.Rəsulzadə üçrəngli milli bayrağımızı göstərərək, onun əbədiyyətinə sonsuz inamını belə ifadə etmişdi: "Müstəqil Azərbaycanı təmsil edən o üç boyalı bayrağı Şurayi-Milli qaldırmış, türk hürriyyəti, islam mədəniyyəti və çağdaş Avropa iqtidariəhraranəsini təmsil edən bu üç boyalı bayraq daima başlarımızın üstündə ehtizaz edəcəkdir. Bir dəfə qaldırılmış bayraq bir daha enmə-yəcəkdir..." *(Azərbaycan Xalq Cumhuriyyəti (1918-1920). Parlament. (Stenoqrafik hesabatlar). Bakı, " Azərbaycan" nəşriyyatı, 1998, I cild, s.34.)*

Beləliklə, bayrağımızın mavi rəngini anlamlandıran "**TÜRKÇÜLÜK**" milli kimliyimizi dərk etmək, milli ənənələri dirçəltmək, soykökünə bağlılıq, dilimizin qorunması, tariximizin qorunması, milli inkişaf, milli istiqlal, milli mücadilə deməkdir. Bayrağımızın mavi rəngi Azərbaycan xalqını türk milli kimliyi ətrafında birləşdirir və bizə bir xalq olaraq özümüzü dərindən dərk etmək üçün istiqamətləndirir.

**ÇAĞDAŞLAŞMAQ** dedikdə isə, xalqımızın bundan sonra keçəcəyi inkişaf, tərəqqi yolu nəzərdə tutulur. Həmin dövrdə Avropa dünyanın elmi-texniki nailiyyətlər baxımından son modern qütbü sayıldığından, milli düşüncəli uzaqgörən ziyalılarımız mənəviyyatca Avropasayağı yox, elmi inkişaf, qabaqcıl düşüncə baxımından Avropasayağı olmağı tövsiyə edir və bu prinsipi çağdaşlıq kimi qiymətləndirirdilər. Nəticə etibarı ilə, çağdaşlıq bayrağımızda qırmızı rənglə öz həllini (bayraq həllini) tapmışdır və ölkəmizin gələcək inkişaf yolunu göstərməkdədir.



**İSLAMLAŞMAQ** deyəndə isə ilk növbədə xalqımızın uzun yüzilliklərdir ki, mənəvi aləmini zənginləşdirən, əxlaq dəyərlərini, mərdliyi, cəsarəti və ilk növbədə Allaha olan sonsuz inamı təcəssüm etdirən məfhumdan söhbət gedir ki, bu da öz növbəsində milli bayrağımızda yaşıl rənglə anlamlandırılır. Çünki yaşıl həqiqətən bir İslam rəmzidir. İslamın ta qədimdən bütün bayraqları yaşıl olmuş bunun da əsas səbəbi təbii ki, İslamın qayəsi olan həyat və yaşamaqla bağlı olan hər şeyin təbiətlə əlaqəli olmasıdır. İslamçılıq ideyaları Azərbaycanlıların milli mənlik şüurunun, milli istiqlal uğ-runda mübarizəsinin, islam dünyası ilə sıx əlaqələrin yaranmasına və möhkəmləndirilməsinə xidmət edir.

İslamçılıq ideyalarının milli ideyalarla dərindən bağlı olduğunu və milli inkişafa hər zaman təkan verən qüvvə olduğunu böyük İslam filosofu Camaləddin Əfqaninin "Milli vəhdət fəlsəfəsi və dil birliyinin həqiqi mahiyyəti" adlı əsərində dəfələrlə görmək olar. Camaləddin Əfqani konkret olaraq türk, fars, ərəb, və başqa milli kimliklərdən danışmır. O bütün İslam ümmətindən bəhs edir və bu ümməti dönə-dönə birliyə çağırır. Millətlərin məhv olmaması və tərəqqisi üçün dil faktorunun vacibliyini qeyd edir. Dil birliyini birlik məsələsində yaradıcı amil olaraq götürən C. Əfqani qeyd edir ki: "İctimai qüsurları birgə dəf etmək", Milli çətinlikləri birgə aradan qaldırmaq", "Millətin məqsədi ümumxalq səadətinə nail olmaq", "Müsibət və bədbəxtliklərdən nicat yollarını arayıb tapmaq", "Yekdil həmrəylik hissi yaratmaq" üçün dilin mükəmməl öyrənilməsi, qorunması vacibdir. *(Ş.Qurbanov. Camaləddin Əfqani və Türk dünyası. Bakı-1998.)*

Onu da qeyd edək ki, C. Əfqaninin bu əsəri İslam xalqlarının, özəlliklə Türk xalqlarının milli oyanışında önəmli rol oynamışdır. M.Ə. Rəsulzadə bu əsəri Azərbaycan türkcəsinə tərcümə etmişdir. Ona görə də bayrağımızdakı yaşıl rəngin

İslamı bildirməsi böyük əlamətdar hadisə və ən əsası milli imanın göstəricisidir.

Azərbaycan Respublikasının milli bayrağındakı böyük anlam kəsb edən nişanlardan biri də bayraqdakı qırmızı zolağın hər iki üzündə təsvir olunan **AĞ RƏNGLİ AYPARA VƏ AĞ RƏNGLİ SƏKKİZGUŞƏLİ ULDUZ**dur.

Milli bayrağımızdakı aypara və səkkizguşəli ulduzun anlam və funksiyası barədə müxtəlif fikirlər mövcuddur. Bəzi insanlar səkkizguşəli ulduzun Azərbaycandakı millətlərin sayını ifadə etdiyini bildirir. Təbii ki bu fikir tamamilə absurd olduğunu çoxdan isbatlayıb. Çünki, Azərbaycandakı etnosların sayının 8-dən çox olması buna əyani sübutdur. Bununla yanaşı bu simvol Azərbaycan bayrağına hazır şəkildə Osmanlı İmperiyasının bayrağından gətirilib. Tarixi baxımdan isə 3 min ildən çoxdur ki, bu rəmz qədim türk-şərq xalqlarının dövlətçilik atributlarında yer almışdır. Bəzi Qərb araşdırıcıları aypara simvolunu islamlığın əlaməti kimi qələmə verirlər və belə hesab edirlər ki, aypara orta yüzilliklərdə Qərbin Şərqə xaç yürüşləri ( xristianların xaç simvoluna qarşı olaraq) zamanı İslam birliyinin təcəssümü olmuşdur. Amma bunlar təbii ki, həqiqətə bənzər fərziyyələrdən başqa bir şey deyildir. Türkiyə tarixçisi Fevzi Kurtoğlu bu məsələdən danışarkən qeyd edir ki, "hilal (aypara) 5000 il bundan əvvəl Orta Asiyadan Ön Asiyaya köç etmiş şumerlilər, eləcə də qədim türklər tərəfindən istifadə edilmişdir. Ayparanın türk heraldikasında istifadə olunması nə Sultan Osman Qazinin məşhur röyasından, nə də Sultan Mehmet Fatehin İstanbulu fəthindən başlar. Bunun köklərini dərinlərdə aramaq lazımdır. Hilal türk millətinin tarixi qədər əskidir..." *(Kurtoğlu Fevzi. Türk bayrağı və ay-ulduz. Ankara,1992)* Səkkizguşəli ulduz əslində günəş kimi yozulmalıdır. Çünki əski türklərdə günəş səkkizguşə şəklində təsvir olunur və ona ehtiram göstərilirdi. Qədim türklər Günəşə və Aya sitayiş edər və onların inanclarında günəş birinci dərəcəli



yer tuturdu və ona Göy Tanrı deyilirdi. Maniçilik dinini qəbul etdikdən sonra Ay kultuna da üstünlük verən türklər Aya Ay Tanrı deyə müraciət etdilər. Bir sözlə bayrağımızdakı aypara və səkkizguşəli ulduzun anlam etibarı ilə qədim türk –şərq xalqlarının inanc sistemini ifadə etməsi bir tarixi gerçəklikdir və burda başqa heç bir anlam axtarmaq lazım deyil.

### *Azərbaycan Respublikasının Dövlət Gerbi*

Azərbaycan Respublikasının Dövlət gerbi müstəqilliyimizin, istiqlalımızın əsas simalarından, əsas rəmzlə-rindən biridir. Avropa mənşəli olan gerb sözü "vərəsəlik" anlamsına gəlməklə istənilən dövlətin, şəhərin, qohumluq birliyi və ya nəslin fərqləndirici nişanı olub, əksər hallarda bayraqda, möhürdə, pul vahidlərində, istiqraz vərəqələrində və s. əks etdirilir. Gerbin mənşəyi, gerbdə göstərilən simvolların anlam və funksiyası, gerbin xüsusiyyətləri, quruluşu və s. məsələlərlə heraldika sənəti məşğul olur. Hansı ki bəzən köməkçi tarix fənni olan gerbşünaslıq da deyilir.

Milli gerb hər bir xalqın, dövlətin, şəhərin milli və dini, mifik görüşlərini, eyni zamanda tarixi, siyasi-ideoloji və mədəni baxışlarını əks etdirir. Bu baxımdan dövlət gerbimiz həm simvolların zəngin ahəngdarlığına, həm də dövlətçiliyimizin, xalqımızın tarixi və mədəniyyətini hərtərəfli əks etdirməsi ilə digər ölkələrin gerblərindən fərqlənir.

Azərbaycan Respublikasının dövlət gerbinin layihəsi 1918-1920-ci illərdə fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyətinin dövründə hazırlanmışdır. Bu barədə "Azərbaycan" qəzetinin 1919-cu ilin martın 23-dəki buraxılışında AXC Nazirlər Şurasının dövlət gerbinin təsvirinin hazırlanması barədə qərarının dərc olunması buna əyani sübutdur. Lakin həmin müsabiqədə uğurla nəticələnən təqdimat olmadığından Nazirlər Şurası 1920-ci il yanvarın 30-da "Azərbaycan Respublikasının

gerbi və möhürünün, milli himnin və hərbi ordenlərin layihələrinin hazırlanması haqqında" yenidən qərar qəbul etdi. Bu məsələlərin icrası isə Xalq Maarifi Nazirliyinə tapşırıldı. Bu barədə nazirlik tərəfindən 1920-ci ilin fevralın 19-da "Azərbaycan" qəzetində gerb və himnin hazırlanması barədə müsabiqə elan etdi. Milli istiqlalın ikinci ildönümünə qədər bu müsabiqənin ən yaxşı nəticəsi elan olunmalı dövlət rəmzləri kimi istifadə edilməli idi. Təəssüf ki, mənfur sovet işğalı tale yüklü bu məsələləri sonadək həll etməyə imkan vermədi.

Beləliklə, gerbin tarixinə qısa ekskurs edərək onun üzərindəki simvolların anlamlarının açıqlanması üçün bir başlanğıc edərək fikrimizi daha da genişləndiririk. Dövlət Gerbində **QALXAN**- azərbaycanlıların şərq xalqlarından biri, Azərbaycanın isə Şərq dövləti olması ilə yanaşı, hər cür hücuma mətinliklə sinə gələn, əzəmətli, dözümlü anlamlarını verir. Qalxanın üzərindəki üçrəng – təbii ki, milli ideoloji düsturumuz olan türklük, çağdaşlıq, müsəlmanlığı tərənüm edir. **SƏKKIZGUŞƏLI ULDUZ** əbədiyyət rəmzi olan Günəşi; Alov – Odlar yurdunu; **PALID BUDAQLARI** – milli hərbi dəyanətimizi və qüdrətimizi; **SÜNBÜL** – Vətənimizin bolluğunu, bərəkətliliyini, çörəyə olan doğma münasibəti; **GÜNƏŞİN AĞ RƏNGDƏ** olması xalqımızın və dövlətimizin sülhsevərliyini, xalqımızın sülh, sabitlik tərəfdarı olduğunu göstərir.

Bir sözlə milli gerbimizdə əks olunan işarə və ifadələr Azərbaycan dövlətçiliyi ilə bərabər ümumbəşəri dəyərlərə xidmət edir və dünya heraldika qanunauyğunluqlarına cavab verir.





Azərbaycan xalqının mənəvi sərvətlərindən biridə onun dövlət himnidir. Milli himn əsas dövlətçilik atributlarımızdan biri olmaqla yanaşı, milli birliyimizin sözlə və musiqi ilə ifadə olunan müqəddəs şah əsərimizdir. Himnimiz, milli dövlət bayramlarında, tarixi günlərdə, rəsmi mərasimlərdə yerli və beynəlxalq tədbirlərdə, təhsil müəssisələrində mövcud qanunvericilikdə göstərilən şəkildə hər zaman ayaq üstə, böyük coşqu və ehtiramla oxunur. Bu da milli himnə olan sevgi və sayqımızı, vətənimizə son dərəcə bağlı olduğumuzu nümayiş etdirir. Azərbaycan türkcəsində artıq qərar tutmuş himn sözü qədim yunan (humnos) mənşəlidir. Qədim Yunanıstanda himndən yunan allahlarının və qəhrəmanlarının şərəfinə istifadə edilirdi. Çağdaş dövrümüzdə isə himn dövlətin və xalqın milli müstəqilliyinə hyüzillik edilən şanlı musiqi kimi qiymətləndirilir.

Musiqisini dahi bəstəkarımız Ü. Hacıbəylinin bəstələdiyi, sözlərini isə böyük şairimiz Əhməd Cavadın yazdığı milli himnimiz bu gündə AXC–nin varisi olan müstəqil respublikamızın dövlət himni kimi hər yerdə böyük coşqu ilə oxunur. Amma tarixdə Üzeyir bəyin böyük dahiliklə yaratdığı bu əsərin adını çəkmək 70 il yasaq olundu. Lakin 1989-cu ildə 14 iyul tarixində "Ədəbiyyat və İncəsənət" qəzetində çap olunmuş "Üzeyir Hacıbəylinin iki marşı" adlı yazısı ilə məlumat verildi. Aydın oldu ki, Üzeyir bəyin iki marşı "Azərbaycan milli marşı" və "Azərbaycan marşı" adı altında ilk dəfə görkəmli türk musiqişünası Etem Üngör tərəfindən özünün "Türk marşları" kitabında (Ankara, 1966) çap olunmuşdur. Bu musiqi əsərlərini yaşatmış Etem Üngörün "Türk marşları" əsərində verdiyi məlumata görə hər iki mahnıdan Cümhuriyyət dövründə hərbi məktəblərdə əsgəri marş kimi öyrədilirmiş. Eyni fikri 82 yaşlı Rüstəm Hüseynovun indiki himnimiz qəbul

edilməzdən xeyli əvvəl çap olunmuş xatirələrindəki qeydlər də əyani sübut etməkdədir. "İndiki kimi yadımdadır. Bakkommunanın dövrü çox aclıq idi. Amma Cümhuriyyət zamanında bolluq oldu. O vaxt mən yetimlər evində yaşayır, "russkoe-tatarskoe" məktəbində oxuyurdum. Milli ordunun kadet korpusu bizim yaşadığımız yerin yaxınlığında, indiki 134 saylı məktəbin binasında yerləşirdi. Əsgərlər həmişə o binada bu mahnını oxuyardılar:

*Azərbaycan Azərbaycan!*
*Ey qəhrəman övladın şanlı Vətəni!*
*Səndən ötrü can verməyə cümlə hazırız!*
*Səndən ötrü qan tökməyə cümlə qadiriz!*
*Üçrəngli bayrağında məsud yaşa...*
*Yaşasın ağalar, bəy əfəndilər,*
*Hamı əsgərlər, Azərbaycan!*

Biz də o əsgərləri yamsılayırmış kimi sıraya düzülüb onlar kimi oxumağa başlayardıq. Bolşeviklər gələndən sonra hər şey yığışıldı". *(N.Yaqublu. Məmməd Əmin Rəsulzadə. Bakı, 1991, s140)*

Bəli, gördüyümüz kimi 82 yaşlı müdrik ağsaqqalın himnimizi əzbərdən söyləməsi, onun yaddaşında bu hadisənin bu günədək qalması bizlərdə böyük bir qürur hissi oyatmaya bilməz. Bu gün müstəqil Azərbaycanın dövlət himni məhz bu tarixi reallıqdan doğan həqiqətdir. Bu tarixi reallığı Azərbaycan Respublikasının Ali Soveti vaxtında qiymətləndirdi və "Azərbaycan Respublikasının Dövlət Himni haqqında" 27.05.1992-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ilə musiqisi Ü. Hacıbəylinin, mətni Əhməd Cavadın olan "Azərbaycan marşı" təsdiq edildi.

Hazırda böyük coşqu ilə dövlət və ya ictimai tədbirlərdə oxunan himnimiz həqiqətən qəhrəmanlığa, Vətən naminə



canından belə keçmə duyğusuna, tarixinə bağlılıq baxımından önəmli fikirlərdən və insanı canlandıran, mübarizəyə səsləyən musiqi ilə bəstələnmişdir. Buna görə xalqımızın böyük oğulları dahi bəstəkarımız Ü.Hacıbəyli və himnə yazdığı sözləri ilə xalqımızın genefonduna əbədi daxil olan Əhməd Cavada xalq olaraq minnətdarıq. Onların əziz ruhları önündə hər zaman baş əyirik.

Bu barədə ümummilli liderimiz Heydər Əliyevin dövlət rəmzləri, xüsusi ilə himnimiz barədə fikirləri maraq doğurur: Mən bu gün bildirmək istəyirəm ki, 1918-1920-ci illərdə Azərbaycanda hakimiyyətdə olmuş Xalq Cümhuriyyətinin bugünkü nəsillərə qoyub getdiyi ən dəyərli miraslardan biri Azərbaycanın bu gün biz qəbul etdiyimiz qanunla istifadə etdiyimiz dövlət himnidir və bir də Azərbaycanın dövlət bayrağıdır...

Bizim ölkəmizin vətəndaşlarının bəlkə də hamısı bunu istənilən səviyyədə dərk edə bilməyibdir. Ancaq mən xarici ölkələrdə ziyarətlərdə olarkən, Azərbaycanın və həmin dövlətin himni çalınarkən çox böyük qürur hissi keçirirəm. Həmin ziyarətlərimdə məndə bəlkə də ən böyük əhval-ruhiyyə yaradan Azərbaycanın bayrağı altında Azərbaycanın himninin çalınmasıdır. Onu da deyə bilərəm ki, bəzi dövlət başçıları sonrakı söhbətlərdə etiraf ediblər ki, sizin himninizin musiqisi çox gözəldir, bayrağınız da gözəldir. Bu həqiqətən belədir... Ona görə də biz öz himnimizi, bayrağımız özümüz qədər sevməliyik. *("Azərbaycan məktəbi" jurnalı, 1999, No5, s.5-6)*

Beləliklə, Azərbaycan Dövlət Rəmzləri, onların anlam və mahiyyətindən bizlərə bir daha aydın olur ki, bayrağımız, gerbimiz və himnimizdəki simvolikalar sırf "Türkçülük, İslamçılıq, Çağdaşlıq" düsturu ilə yaradılmış və indi də, gələcəkdə də Azərbaycan xalqının milli şüurunun dirçəlməsinə xidmət edəcəkdir.

Bu barədə alimimiz öz kitabında qeyd edir: "XIX yüzilliyin sonu, XX yüzilliyin əvvəllərində Azərbaycan milli ideologiyası

formalaşdı və tarixdə ilk dəfə 1918-ci ildə milli dövlətin – Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə nəticələndi. Özündə türkçülük, islamçılıq və Qərb dəyərlərini birləşdirən həmin ideologiya Azərbaycançılıq idi" *(Bax: N.Şəmsizadə. Azərbaycan ideologiyası, s.38).* Məhz bu gün də bu üç ideoloji düstur bütöv Azərbaycançılıq məfkurəsinə xidmət göstərən əsas prinsiplərdəndir.

Bir sözlə, xarici müdaxilə və yad ideologiya nəticəsində əzilmiş milli şüurumuzun yenidən bərpa olunmasında və layiqli inkişafında milli rəmzlərin əvəzsiz rolu vardır. Bunun üçün ilk növbədə Milli Rəmzlərimizin yaranma tarixinin, məzmun və mahiyyətinin, funksiyalarının, istifadə təyinatlarının ayrıca öyrənilməsi üçün məktəbdə kurslar təşkil edilməli və yaxud məktəblərdə humanitar fənn blokuna aid dərslərin tərkibinə daxil edilməli və ciddi öyrədilməlidir. Hətta keyfiyyətli təbliğatın əmələ gəlməsi üçün bu kursların pedaqoqların da arasında keçirmək zəruridir. Çünki bir çox pedaqoqların özləri belə milli rəmzlərimiz barədə yetərincə məlumatlı deyillər. Bu da təbii ki, təhsil sistemimizə yaraşmaz bir haldır. Bu məsələnin həlli ilə bağlı Təhsil Nazirliyi xüsusi təbliğat materialları hazırlamalı və məktəblərə paylamalıdır. Bu məsələ elə bir aktual mövzudur ki, nəinki məktəblər, universitetlər, hətta məktəbəqədər tərbiyə müəssisələri də bu barədə ciddi işləməli və onların işləmə mexanizminə isə birbaşa Təhsil Nazirliyi nəzarət etməlidir.



## İÇƏRİK

***Kitaba başlarkən*** ........ 5
**Toy adətlərimiz** ........ 7
*Qız bəyənmə və ya qızgörmə* ........ 7
*Xəbərgöndərmə* ........ 7
*Kiçik elçilik* ........ 7
*Elçilik* ........ 8
*Nişan* ........ 9
*Xonça gətirmə* ........ 10
*Bayramlıq* ........ 10
*Cehiz* ........ 10
*Paltarbiçdi* ........ 11
*Qız şaxı* ........ 11
*Xınayaxdı* ........ 11
*Kəbinkəsdirmə* ........ 12
*Qız toyu* ........ 12
*Gəlin aparma* ........ 13
*Oğlan toyu* ........ 14
*Üzəçıxdı* ........ 16
*Gəlingördü* ........ 16
*Ayaqaçdı* ........ 16
*Qonaqçağırma* ........ 17
*Nəvəgörmə* ........ 17
**Şakir Albalıyev**
***Azərbaycanda toy mərasimləri*** ........ 18
**Şakir Albalıyev**
***Azərbaycan gəlini xoşbəxtlik rəmzidir*** ........ 27
**R. Rəfiyeva**
***Azərbaycan toylarının bəzəyi*** ........ 41
**Arzu Şirinova**
***Özümüzə qayıtmalıyıq*** ........ 44
**Aydın Xan (Əbilli)** 48

*Doğru düşüncə, doğru söz, doğru əməl: yüzilliklərin-nəsillərin bayrami Novruz: qlobal kulturoloji dəyərimiz*
.......................................................................................
*Novruzun ulu tarixi* .......... 48
*İlaxır çərşənbələr* .......... 51
*Su çərşənbəsi* .......... 52
*Od çərşənbəsi* .......... 52
*Yel çərşənbəsi* .......... 53
*Torpaq çərşənbəsi* .......... 54
*Əsas Bayram mərasimi* .......... 55
*Yekun mülahizələr* .......... 56
**İlhamə Məmmədova**
***Azərbaycanda bayram mərasimləri ilə bağlı qarşılıqlı yardım formaları*** .......... 58
**Güllü Yoloğlu**
***Milli dəyərlərimizi araşdırarkən*** .......... 68
*Nardoğan – Gündoğan* .......... 69
*Yelda gecəsi* .......... 71
*Böyük çillə* .......... 73
**Bəhmən Faziloğlu (Əliyev)**
***Qonaqpərvərlik milli "mən"in elementi kimi*** .......... 77
**Vüqar Zifəroğlu**
***Milli mənəvi dəyərlər və media*** .......... 87
**Elcan Salmanqızı**
***Media qloballaşma dövründə milli-mənəvi dəyərləri qoruya bilərmi?*** .......... 92
**Aydın Xan (Əbilli)**
***Yeni nəslin internetdə milli virtual kitabxanası*** .......... 99
**Nemət Tahir**
***Çağdaş gənclik niyə kitab oxumur? Oxuyursa, hansı mövzuda olan kitablara üstünlük verir?*** .......... 103
**Elməddin Behbud**
***Milli-mənəvi dəyərlərimiz və çağdaşlıq*** .......... 112



**Vüsalə Rafiqqızı**
***Qloballaşan dünyada milli ideologiya necə olmalıdır?*** .......... 116
**Elmidar Əliyev**
***Milli mənəvi dəyərlərimiz deqradasiyaya uğrayır*** .......... 119
**Hafiz Hacxalıl**
***Gələcəyə səyahət*** .......... 121
**Aygün Həsənoğlu**
***Azərbaycan ideologiyasının qaynaqları*** .......... 127
**Əkbər Qoşalı**
***Alnımı oxumuş kimi*** .......... 133
**Anar Əliyev**
***Azərbaycanın dövlət rəmzləri, onların mahiyyəti və ideoloji-tərbiyəvi əhəmiyyəti*** .......... 143
*Azərbaycan Respublikasının Dövlət Bayrağı* .......... 144
*Azərbaycan Respublikasının Dövlət Gerbi* .......... 149
*Azərbaycan Respublikasının Dövlət Himni* .......... 151
**İçərik** .......... 155

# Unudulmaqda olan milli-mənəvi dəyərlərimiz və gəncliyimiz

*(məqalələr)*

Çapa imzalanmış: 04.06. 2010
Kağız formatı: 60x84 1/16
Həcmi: 10 ç.v.; Sifariş: 503; Sayı: 500

«VEKTOR» BEYNƏLXALQ ELM MƏRKƏZİ
«VEKTOR» NƏŞRLƏR EVİ
Ünvan: AZ1018. Bakı şəh, Zığ yolu, 20 q
tel: (+99470) 3007000; (+99412) 4471404
faks: (+99412) 4796003
e-mail: isgenderzadeh@rambler.ru

www.vektor.az